Xalqın qəzeti!

# Xalq qəzeti

№ 59 (30753) 18 mart 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan–Rusiya çoxtərəfli əməkdaşlığına parlamentlərin dəstəyi artır

## Prezident İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



Görüşdə Azərbaycan ilə Rusiya arasında parlamentlərarası əlaqələr, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Valentina Matviyenko Bakı-Qroznı istiqaməti üzrə uçuş yerinə yetirən Azərbaycan Hava Yollarına məxsus təyyarənin qəzaya uğraması ilə bağlı başsağlığını çatdıraraq, bu məsələnin Rusiyanın istintaq orqanları tərəfindən araşdırıldığını və ona obyektiv qiymət veriləcəyini bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında parlamentlərarası təmasların davam etdirilməsinə dair fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

# Etimadın sıfır nöqtəsində açılan atəş

*Ermənistanın atəşkəsi pozması sülhə təhdiddir*

**Bir yandan Azərbaycanla Ermənistan arasında sülh sazişi mətninin razılaşdırılması üzrə danışıqların başa çatdığı bildirilir, dünyanın müxtəlif ölkə və təşkilatlarının rəhbərlərindən bununla bağlı təbriklər eşidilir, pozitiv fikirlər ifadə olunur, digər tərəfdən isə Ermənistanın silahlı qüvvələri şərti sərhəddə, qoşunların təmas xəttində atəşkəsi pozurlar.**



Hələ baş nazir Nikol Paşinyan region ölkələrinin rəhbərlərinə barış sazişi mətni barədə məlumat xarakterli telefon zəngləri də edir. İndi necə başa düşək, hansı nəticəni çıxaraq? Deməli, Ermənistan rəhbərliyinin bir əməli ilə digəri arasında təzad var. Görünür, məhz buna görə Prezident İlham Əliyev martın 13-də XII Qlobal Bakı Forumundakı çıxışında rəsmi İrəvana etimadın sıfıra bərabər olduğunu vurğulamışdı.

Dövlətimizin başçısının fikirləri yenə də özünü doğruldur və uzun fasilədən sonra eşidilən güllə səsləri Ermənistana etimadsız yanaşmamıza haqq qazandırır. Yeri gəlmişkən, Prezident İlham Əliyev martın 13-də "Euronews" telakanalına müsahibəsində Azərbaycan – Ermənistan münasibətləri ilə bağlı bunları da vurğulamışdı: "Hətta indiki dövrdə, İkinci Qarabağ müharibəsinin bitməsindən beş il keçməsinə baxmayaraq, bizim Ermənistanla sülh müqaviləmiz yoxdur. Bəli, sakitlikdir, itkilər yoxdur və bu da bugünkü vəziyyətin böyük üstünlüyüdür. Lakin sülh sazişi imzalanana qədər burada sabitlik olmayacaq".

(ardı 5-ci səhifədə)

# Ermənistanın silahlanması Cənubi Qafqazda yeni təhlükə yaradır

**Martın 16-dan Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun mövqelərini üç dəfə atıcı silahlardan atəşə tutublar. Bu, nə birinci, nə də sonuncu hadisə deyil. İrəvanın təxribatlarının davamlı xarakter daşıdığını göstərir. Hayastanı buna həvəsləndirən isə Fransa, Avropa İttifaqı və Hindistandır. Burada Fransa əsas rol oynayır. Çünki Hindistandan silahların alınmasını təşkil edən Fransadır. Fransa ilə Hindistan arasında bəzi silahların birgə yaradılması ilə bağlı anlaşma var. Bu anlaşmada həmin silahların dost ölkələrə satılmasına dair xüsusi bir bənd yer alıb. Dost ölkə dedikdə isə təbii ki, Ermənistan nəzərdə tutulur. Fransa Prezidenti Emmanuel Makron hakimiyyətdə olduğu müddətdə İrəvana hərbi yardım davam edəcək.**

(ardı 4-cü səhifədə)



# Abşeron dairəvi dəmir yolunda xidmət yüksəldilir



Səhifə ⇨ 7

# Neytrallıq bundan ibarətdirsə...

Səhifə ⇨ 4

# TANAP Azərbaycan qazının Avropaya etibarlı körpüsüdür




Səhifə ⇨ 7

# Xalqımızın sayı çoxalır

**Ölkə əhalisinin sayı ilin əvvəlindən 2 935 nəfər və ya 0,03 faiz artaraq fevral ayının 1-i vəziyyətinə 10 milyon 227 min 824 nəfərə çatıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**



Qeyd olunub ki, əhalinin 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

# Azərbaycan ən təhlükəsiz ölkələr sırasına yüksəldi

*Bu, hökumətin səmərəli siyasəti, təhlükəsizlik qüvvələrinin işi və ölkənin davamlı inkişafı sayəsində mümkün olmuşdur*




**Azərbaycan bir çox göstəricilərə görə dünyanın ən təhlükəsiz ölkələrindən biri kimi qəbul olunur. Ölkənin sabit ictimai-siyasi vəziyyəti, qanunların tətbiqi və qonaqpərvər mədəniyyəti bu təsəvvürə töhfə verən əsas amillərdəndir. Həmçinin Azərbaycan zəngin mədəniyyət, tarix və təbiət gözəllikləri ilə turistlərin marağını cəlb edir ki, bu da ölkənin təhlükəsiz imici ilə dəstəklənir. Martın 17-də açıqlanan "Global Terrorism Index 2025" (GTİ) hesabatı da bu faktları bir daha təsdiqləyir.**

(ardı 6-cı səhifədə)

# Ərdoğan və Trampın birgə sülh axtarışı

*Ankara ilə Vaşinqton Rusiya və Ukraynanı güzəşt və etimada çağırır*



**Martın 16-da Türkiyə və ABŞ prezidentləri arasında telefon bağlantısı olub. Liderlər bir çox aktual ikitərəfli və qlobal problemləri müzakirə ediblər. Ankara hesab edir ki, Rusiya ilə Ukrayna arasında mənasız müharibəyə mütləq son qoyulmalıdır. Ağ ev tərəflər arasında 30 günlük atəşkəsə cəhd etməklə düzgün yol seçib.**

Qeyd edək ki, hazırkı məqamda Ukrayna böhranının həlli üçün Vaşinqtonun Ankara ilə fikir mübadiləsi aparması təsadüfi sayıla bilməz. Cənab Tramp müdrik və xarizmatik dövlət adamı olan Rəcəb Tayyib Ərdoğana rəğbətlə yanaşdığını gizlətmir. Eyni zamanda, Türkiyənin regiondakı kifayət qədər siyasi və hərbi gücü gözardı edilə bilməz.

(ardı 15-ci səhifədə)

# Prezident İlham Əliyev Bosniya və Herseqovina rəsmilərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavini və müdafiə naziri Zukan Helezi qəbul edib.**

Söhbət zamanı Azərbaycan ilə Bosniya və Herseqovina arasında müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, ölkələrimizin müdafiə nazirliklərinin və müdafiə sənayesi qurumlarının əməkdaşlığının genişləndirilməsinin önəmi vurğulandı.

Qonaq Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbənin əhəmiyyətini qeyd etdi.

Zukan Helez ölkəmizin Bosniya və Herseqovinada müxtəlif sahələrdə təmsil olunmasının önəmini diqqətə çatdırdı və gələcəkdə də bu istiqamətdə əməkdaşlığa hazır olduqlarını dedi.

Bosniya və Herseqovinaya rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev həmin səfər çərçivəsində ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında birgə Bəyannamənin imzalandığını qeyd etdi və Azərbaycanın bu sənədin tələblərindən irəli gələn bütün işləri görməyə, əməkdaşlığa öz töhfəsini verməyə hazır olduğunu vurğuladı.

Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparıldı.

# "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Azərenerji" Açıq Səhmdar Cəmiyyətində (bundan sonra – Cəmiyyət) ümumi yığıncağın səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

1.1. Azərbaycan Respublikasının Prezidentinə:

1.1.1.Cəmiyyətin yenidən təşkili və ləğvi;

1.1.2.Cəmiyyətin icra orqanının yaradılması;

1.1.3.Cəmiyyətin İdarə Heyəti sədrinin və onun müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

1.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

1.2.1.Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Cəmiyyətin nizamnaməsinin və strukturunun təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

1.2.2.Cəmiyyətin inkişaf strategiyasının müəyyən edilməsi;

1.2.3.Cəmiyyətin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

1.2.4.Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi;

1.2.5.bu Fərmanın 1.1-ci və 1.3-cü bəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli;

1.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə:

1.3.1.Cəmiyyətin idarə, nümayəndəlik və filiallarının yaradılmasına və ya ləğvinə, törəmə cəmiyyətlərinin yaradılmasına, yenidən təşkilinə və ya ləğvinə razılıq verilməsi;

1.3.2.Cəmiyyətin digər hüquqi şəxslərə kapital qoyuluşu barədə qərarların qəbul edilməsinə razılıq verilməsi;

1.3.3.Cəmiyyətin iştirak etdiyi birgə layihələrə əmlak və (və ya) pul şəklində pay qoyulmasına razılıq verilməsi.

**2.** Müəyyən edilsin ki, Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirmək üçün 3 (üç) üzvdən – Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədri və onun iki müavinindən ibarət İdarə Heyəti yaradılır.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Cəmiyyətin nizamnaməsini və strukturunu Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 mart 2025-ci il**

# Rusiya FM Federasiya Şurasının sədri Ulu öndərin məzarını ziyarət edib

**Ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun başçılıq etdiyi nümayəndə heyəti martın 17-də Fəxri xiyabana gələrək, müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.



# V.Matviyenko Şəhidlər xiyabanında

**Ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun başçılıq etdiyi nümayəndə heyəti martın 17-də Şəhidlər xiyabanını ziyarət edib.**

Ziyarət zamanı ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər çiçəklər düzülüb.

Federasiya Şurasının sədri Valentina Matviyenko "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.



# Şimali Makedoniya Respublikasının Prezidenti Zati-aliləri xanım Qordana Silyanovska-Davkovaya

**Hörmətli xanım Prezident,**

Koçani şəhərində baş vermiş faciəli hadisə nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması xəbəri bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Şimali Makedoniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 mart 2025-ci il**

# X.R.Vəliyevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Xanlar Rüstəm oğlu Vəliyev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 mart 2025-ci il**

# Trampın müşaviri Hikmət Hacıyevlə sülh sazişindən danışıb





**Cənubi Qafqazda münaqişəyə son qoyulmalıdır. Bunu ABŞ Prezidenti Donald Trampın milli təhlükəsizlik üzrə müşaviri Mayk Uolts "X"dəki səhifəsində yazıb.**

"Mən bu həftə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin köməkçisi cənab Hikmət Hacıyevlə danışdım. Biz Azərbaycan və Ermənistanın irəliyə doğru böyük addım atmasından və sülh müqaviləsinin razılaşdırılmasından məmnunuq", - Trampın müşaviri vurğulayıb:

– Mayk Uolts qeyd edib ki, sülh sazişinin imzalanması yekunlaşmalıdır: "Regionun daha təhlükəsiz və firavan olması üçün birlikdə çalışmalıyıq. Amerikanın Qızıl Dövrü dünyaya sülh və firavanlıq gətirəcək və bu baş verənə qədər biz işi dayandırmayacağıq".

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2025-ci ilin aprel ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu | 2 |
| Baş nazirin müavini<br>Şərifov Samir Rauf oğlu | 3 |
| Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu | 4 |
| İqtisadiyyat şöbəsinin müdiri<br>Həsənova Sevinc Telman qızı | 7 |
| Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu | 30 |
| Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu | 9, 23 |
| Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu | 10, 24 |
| Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu | 11, 25 |
| Humanitar məsələlər şöbəsinin müdiri<br>Həbibbəyli Ərəstü İsa oğlu | 4 |
| Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu | 15, 28 |
| Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu | 6 |
| Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu | 7 |
| Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu | 18, 29 |
| Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu | 21 |
| Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu | 8, 22 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# Birinci vitse-prezident Rusiya FM Federasiya Şurasının sədri ilə görüşüb

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 16-da ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.**



Birinci vitse-prezident Mehriban Əliyeva Valentina Matviyenkonu salamlayaraq, onun ölkəmizə səfərinin ölkələrimiz arasında parlamentlərarası əlaqələrin inkişafına töhfə verəcəyini qeyd etdi.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri qəbula və qonaqpərvərliyə görə Birinci vitse-prezidentə təşəkkürünü bildirdi.

Qonaq ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafında parlamentlərarası əlaqələrin və parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğuladı.

Görüşdə Azərbaycan ilə Rusiya arasında münasibətlərin strateji müttəfiqlik xarakteri daşıdığı qeyd olunaraq ikitərəfli mədəni-humanitar əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Baş nazirin Türkiyə səfiri ilə görüşü



**Martın 17-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgünlə görüşüb.**

Baş nazir Ə.Əsədov B.Akgünü Azərbaycanda diplomatik missiyasının başlaması münasibətilə təbrik edib, qarşıdakı fəaliyyətində ona uğurlar arzulayıb.

Görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin dövlət başçılarının birgə səyləri ilə müttəfiqliyin və strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə çatması məmnunluqla vurğulanıb.

İki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə olunub.

*XQ*

# Azərbaycan–Rusiya PƏK-nin iclası



**Martın 17-də Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi Parlamentlərarası Əməkdaşlıq Komissiyasının 22-ci iclası keçirilib.**

İclasın açılışında Milli Məclisin sədri Sahibə Qafarova və Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko iştirak ediblər.

Sahibə Qafarova və Valentina Matviyenko salamlama nitqlərində parlamentlərarası əlaqələrin əhəmiyyətindən söhbət açıblar. Onlar deputatların parlamentlərarası əməkdaşlıq komissiyası çərçivəsində fəaliyyəti barədə fikirlərini bölüşüblər.

Tədbirdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğluna Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının "Parlamentarizmin inkişafındakı xidmətlərinə görə" fəxri nişanı təqdim edilib.

Sonra Azərbaycan-Rusiya Parlamentlərarası Komissiya işini davam etdirib. Komissiyanın həmsədrləri – Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov və Rusiya Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin gündəlikdəki məsələlər barədə məlumat veriblər. Müzakirəsindən sonra Azərbaycan Milli Məclisi və Rusiya Federal Məclisi parlamentlərarası komissiyanın 22-ci iclası başa çatıb.

*XQ*

# Milli Məclisin sədrinə Rusiyanın "Dostluq" ordeni təqdim edilib

**Martın 17-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.**



Əvvəlcə tərəflər arasında təkbətək görüş olub. Görüşün sonunda Valentina Matviyenko Milli Məclisin sədri Sahibə Qafarovaya Rusiya Federasiyasının "Dostluq" ordenini təqdim edib.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam edib. S.Qafarova parlamentlərimiz arasındakı əlaqələrin rolunu qeyd edərək, ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif aspektlərinə dair fikirlərini bildirib, bu kontekstdə parlament üzvlərinin fəaliyyətinin əhəmiyyətinə toxunub. Azərbaycan Milli Məclisi ilə Rusiya Federal Məclisinin Parlamentlərarası Əməkdaşlıq Komissiyasının rolu vurğulanıb.

Valentina Matviyenko ölkəmizə səfəri və paytaxt Bakının sürətli inkişafı haqqında müsbət təəssüratlarını bölüşüb. O, Prezident İlham Əliyevlə görüşünü və aparılmış müzakirələri məmnunluqla qeyd edib. Həmçinin Birinci vitse-prezident Mehriban Əliyeva ilə humanitar əlaqələrin bütün istiqamətləri üzrə apardığı fikir mübadiləsindən danışıb.

Federasiya Şurasının sədri görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinin Rusiyada da geniş qeyd olunduğunu bildirib, bu dahi şəxsiyyətin Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətlərini vurğulayıb.

Valentina Matviyenko, həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq səviyyədə artan rolunu qeyd edib. Vurğulanıb ki, Azərbaycan beynəlxalq tədbirləri, mədəniyyətlərarası dialoqu təşviq edən forumları, həmçinin nəhəng iqtisadi layihələri uğurla həyata keçirir.

*XQ*

# YAP İdarə Heyətinin maliyyə hesabatı





**Martın 17-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin növbəti iclası keçirilib. Müzakirəyə partiyanın 2024-cü il üzrə maliyyə hesabatı təqdim olunub.**

Auditorlar Palatasının üzvü Elza Süleymanova çıxış edərək maliyyə hesabatının mükəmməl səviyyədə, bütün əhəmiyyətli aspektlər baxımından mövcud qanunvericiliyin tələblərinə uyğun hazırlandığını, partiyanın hesabat dövrü üçün maliyyə vəziyyətini və maliyyə fəaliyyətinin nəticələrini tam əks etdirdiyini vurğulayıb. Sonra 2024-cü il üzrə maliyyə hesabatı müzakirə olunaraq İdarə Heyətinin üzvləri tərəfindən təsdiq edilib.

Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul olunub.

Yekunda YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bütün ərazisində tam suverenliyini təmin edərək növbəti inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanın 2024-cü ildə mühüm uğurlara imza atdığını və yeni hədəflərə doğru inamla irəlilədiyini vurğulayıb. YAP Mərkəzi Aparatının rəhbəri qarşıda duran milli məqsədlərə çatmaq üçün Yeni Azərbaycan Partiyasının da üzərinə böyük məsuliyyətin düşdüyünü söyləyib, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müəyyənləşdirdiyi, eləcə də partiyanın Nizamnamə və Proqramından irəli gələn vəzifələrin mütəşəkkil qaydada yerinə yetiriləcəyinə əmin olduğunu bildirib.

*XQ*

# V.Matviyenko Xalça Muzeyində



**Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olub.**

Muzeyin direktoru Əminə Məlikova qonağa muzeyin tarixi, fəaliyyəti, zəngin kolleksiyaları, qədim xalçaçılıq ənənələrimiz barədə ətraflı məlumat verib.

Valentina Matviyenko muzeyə Azərbaycanın nadir mədəni-tarixi irsinin qorunub saxlanılması və təbliği istiqamətində fəaliyyətində uğurlar və tərəqqi, əməkdaşlara isə nəcib işlərində nailiyyət və ilham arzulayıb. Sonra qonaq xatirə kitabına öz xoş təəssüratlarını yazıb.

Valentina Matviyenkoya muzeyin 55 illiyinə həsr olunan "Azərbaycan Milli Xalça Muzeyi" kitabı hədiyyə edilib.

*XQ*

# XİN-in müsəlman ölkələri səfirləri üçün iftar süfrəsi

**Martın 17-də xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda akkreditə olunmuş müsəlman ölkələrinin səfirləri üçün təşkil olunmuş iftar məclisində çıxış edib.**



Ceyhun Bayramov müqəddəs Ramazan ayı, habelə qarşıdan gələn bayram münasibətilə təbriklərini çatdırıb, dünyamıza sülh, əmin-amanlıq arzulayıb. Azərbaycan cəmiyyətinin milli-mənəvi dəyərlərində, o cümlədən müxtəlif icmaların nümayəndələrinin sülh şəraitində birgəyaşayış təcrübəsində İslam dininin və Ramazan ayının xüsusi yeri və rolundan bəhs olunub.

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun duayeni, Fələstinin ölkəmizdəki səfiri Nəssir Əbdül Kərim Əbdül Rəhim çıxış edərək Ramazan ayı münasibətilə təbriklərini çatdırıb, eləcə də Prezident İlham Əliyev tərəfindən "Dostluq" ordeni ilə təltif olunmasından şərəf duyduğunu bildirib.

Sonra isə Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi tərəfindən iftar duası oxunub, tədbir iştirakçıları üçün iftar süfrəsi açılıb.

*XQ*

# Neytrallıq bundan ibarətdirsə...

## *Fransanın yedəyində "Səlib yürüşü"nə qoşulan İsveçrənin gecikmiş haypərəstliyi*

**Azərbaycanın 44 günlük müharibədə Zəfərini, 23 saatlıq antiterror tədbirləri nəticəsində öz əraziləri üzərində tam nəzarətini və suverenliyini bərpa etməsini həzm edə bilməyən "kollektiv Qərb"in haypərəst aktorlarından biri də İsveçrədir. Cənubi Qafqazda yaranan yeni reallıqlarla heç cür barışmaq istəməyən Avropanın "baş neytral" ölkəsinin parlamentinin yuxarı palatası – Kantonlar Şurasında "Dağlıq Qarabağ" "münaqişəsinin sülh yolu ilə həlli"nə həsr olunmuş müzakirələr keçiriləcək. Bu, İsveçrə parlamentinin son 6 ayda "Dağlıq Qarabağ"la bağlı qəbul edəcəyi ikinci qətnamə olacaq. Beş ay bundan əvvəl İsveçrə Federal Assambleyasının (parlamentin aşağı palatası) Xarici əlaqələr komitəsi "Dağlıq Qarabağla" bağlı beynəlxalq sülh konfransı təşkil etmək" barədə müvafiq "qətnamə" qəbul edib. İndi həmin "qətnamə" parlamentin yuxarı palatasında müzakirəyə çıxarılır.**



Avropa Parlamentinin ardınca anti–Azərbaycan düşərgəsinin sıralarına qoşulan neytral, bitərəf İsveçrənin kimin maraqlarına xidmət etdiyini və nəyin müqabilində bu addımı atdığını təxmin etmək çətin deyil. "Kollektiv Qərb"in ermənipərəst "xor"unda yer alan İsveçrə parlamenti siyasi statusuna arxa çevirib ikili standartlardan çıxış etmək, Azərbaycanın daxili işlərinə qarışmaq istəyi, eləcə də diplomatiyadan və beynəlxalq hüquqdan məhrum "tələblər" səsləndirməklə uğursuz fəaliyyətə baş vurub. "Qoca qitə"nin göbəyində yerləşən, bəzilərinin cənnət guşəsi adlandırdığı bu dörddilli dövlətin gecikmiş haypərəstliyinə yalnız heyrətlənmək olar. Axı artıq ilyarımdır nə "Dağlıq Qarabağ" adında ərazi-inzibati vahidi, nə də orada münaqişə mövcuddur.

*

Sual olunur ki, İsveçrə parlamentini belə gecikmiş və faydasız çağırışlar səsləndirməyə, müzakirələr açmağa və dəyəri kağız parçasından artıq olmayacaq qətnamə qəbul etməyə həvəsləndirən nədir? Fransanın qitədəki forpostu kimi haypərəst mövqedən çıxış edən İsveçrənin bu hərəkətinin bir adı var: qərəz! Bu "neytral" dövlətin parlamentinin bu cür əsassız təkliflər irəli sürməsi birmənalı olaraq Azərbaycana düşmən mövqeyin sərgilənməsi deməkdir. Yəni, belə qərəzli təşəbbüslərdə bulunan İsveçrənin, Fransanın, Hollandiyanın, Belçikanın, eləcə də erməni lobbisi ilə sıx işbirliyində olan digər Aİ üzvlərinin niyyətləri bəllidir. Onların bitərəfliyinə və insan hüquq və azadlıqları məsələsində mövqelərinə şübhə ilə yanaşmaq lazımdır. İsveçrə parlamentinin bu qərəzli davranışı da sübut edir ki, neytral dövlət ilk dəfə deyil ki, öz orbitindən çıxır, bu cür siyasət yürüdür. Bir əsrdən çoxdur İsveçrə özünü tərəfsiz dövlət kimi qələmə verməyə çalışsa da, onun yürütdüyü siyasət bunu təsdiqləmir. İsveçrə parlamentinin belə bir müzakirə təşkil etməsi yolverilməzdir və bu həmin ölkənin anti–Azərbaycan mövqeyinin göstəricisidir. Bu ölkə yalnız Azərbaycana deyil, digər türk və müsəlman dövlətlərinə qarşı da qərəzli münasibətilə tanınır. Guya, məqsədləri beynəlxalq aktorların nəzarəti və ya iştirakı ilə erməni əhalisinin təhlükəsiz və kollektiv şəkildə qayıtması ilə bağlı Azərbaycan nümayəndələri ilə "Dağlıq Qarabağ erməniləri" arasında dialoqu təşviq etməkdir. Əsl işğalçının – Ermənistanın adını çəkməyən İsveçrə qərəzli mövqe tutaraq Azərbaycanı Qarabağı "işğal etməkdə" suçlayıb, 1915-ci ildə, guya, baş verən "erməni soyqırımı" Qarabağda da "təkrarlanıb", ermənilər "etnik təmizləməyə məruz qalıblar".

Aydın görünən odur ki, Avropanın bəzi ölkələri "stəkanda fırtına yaratmaq" istəklərindən hələ də əl çəkmək fikrində deyillər. Bu azmış kimi, özlərinə dəxli olmayan proseslərin müzakirəsinə girişir, Bakının tarixin arxivinə göndərdiyi və qapanmış "münaqişəni diriltməyə" cəhdlər edirlər.

**Mövzu ilə bağlı XQ-yə danışan Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** hesab edir ki, İsveçrə bu addımı ilə neytral dövlət olmadığını ortaya qoyub: "Göründüyü kimi, neytrallıq müəyyən mərhələdə korporativ maraqlara qurban verilir. Əslində, bunu



məhz indiki şəraitdə o qədər də ciddi qəbul etməməliyik. Təbii ki, İsveçrə Avropa İttifaqının parlamentarilərindən geri qalmaq istəmir. Onlarla eyni platformada addımlamağa çalışır. Əgər "Dağlıq Qarabağ problemi" onları bu qədər maraqlandırır və narahat edirdisə, onda bölgədə cərəyan edən hadisələrlə yaxından tanış olmalıydılar. Torpaqlarımızın uzun illər işğalda qalması, qaçqın və köçkünlərimiz, ermənilərin torpaqlarımızı minalarla zibilləməsi və mina terrorunun qurbanları və şikəst olan vətəndaşlarımızın sayı barədə səhih məlumatlara istinad etməliydilər. O cümlədən bu qəbildən olan digər məsələlər var. İsveçrə parlamentinin üzvləri bu həqiqətləri bilmədiyindən məsələyə formal yanaşırlar. Onların bu "qanunvericilik fəaliyyətinə" zəngin erməni lobbisinin yaxından dəstək verdiyinə şübhə etmirəm. Parlament müzakirəsinin gözlənilən nəticəsi məhz kənardan "dəstəyin" nəticəsi sayılmalıdır.

Neytral statuslu İsveçrə məsələyə, həqiqətən də, sağlam düşüncə ilə yanaşmaq istəyirsə, bu cür qərəzli mövqedən əl çəkməli, bölgədə reallığın yaratdığı geosiyasi mənzərəni görməli və anlamalıdırlar. Onlar müzakirələr keçirə, faktlardan və sübutlardan məhrum saxta qətnamə də qəbul edə bilərlər. Bunun Azərbaycana heç bir isti-soyuğu omayacaq. Özlərini biabır edir və pis vəziyyətdə qoyurlar. Belə vəziyyət isə ancaq özlərinə qarşı işləyəcək".

*

Gizli deyil ki, Qərbdə erməni diaspor və lobbi təşkilatlarının "orbitinə" daxil olan bəzi ölkələrin parlamentləri Ermənistan və Azərbaycanın sülhün bir addımlığına çatdığı hazırki məqamda da "Dağlıq Qarabağ" oyununu gündəmdə saxlamağa çalışırlar. İsveçrə də onların sırasındadır. Qarabağ münaqişəsi deyilən problemin aradan qalxdığını anlamaq istəməyən bu ölkələr külü belə soyumuş ocağı körükləmək xəyalına düşüblər.

Heç bir hüquqa və məntiqə sığmayan qətnamələri qəbul edən İsveç parlamentinin üzvləri, guya, bilmirlər ki, erməniləri Qarabağdan heç kim çıxarmayıb, özləri könüllü şəkildə Azərbaycan ərazisini tərk ediblər? Bu məsələdə haylara cəmiyyətimizə inteqrasiya olmaq şansı yaratmış Azərbaycan dövlətinin heç bir məsuliyyəti yoxdur. Sadəcə, etiraf etmək istəmirlər ki, Azərbaycan dövləti ermənilərə Qarabağı tərk etməmələri ilə bağlı dəfələrlə çağırışlar edib, onlara vətəndaşlığı qəbul edib bizim qanunlarla yaşamaları ətraflı izah olunub. İntəhası, Xankəndidəki separatçı-xunta rejimin, kənardan göndərilən emissarların təzyiqləri qarşısında Qarabağ iqtisadi rayonumuzdan getməyə məcbur edildilər. Bəli, onların bu seçimi könüllü surətdə etmədikləri hamıya məlumdur.

İndi İsveç parlamenti "çeşidli" qətnamələr qəbul etməklə, "münaqişənin sülh yolu ilə həlli"nə çağırışlar yaymaqla öz məkrli niyyətinə nail ola bilməyəcək. "Neytral" İsveçrə parlamentinin atdığı bu addımlar düşünülmüş qərəzli siyasətin nəticəsidir. Avropa İttifaqına daxil olan bəzi ölkələr, onların yaramaz parlamentləri Azərbaycana qarşı qərəzli mövqelərini dəfələrlə nümayiş etdiriblər. Bunun da çox sadə səbəbi var: Azərbaycan heç vaxt xarici təzyiq və təhdidlərin qarşısında geri çəkilməyib. Əksinə, bu təzyiqlərə yetərincə kəskin adekvat cavab verib. "Kollektiv Qərb"in ermənipərəst dairələrinin Azərbaycana qarşı ikili standartlara söykənən, ədalətsiz mövqe nümayiş etdirmələrinin kökündə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbəmizin dayandığını əminliklə söyləyə bilərik.

İşğalçı, terrorçu, separatçı mahiyyəti bütün dünyaya bəlli olan Ermənistanın bu qədər dəstəklənməsi həmin qüvvələrin, dairələrin, xüsusən də İsveçrə parlamentinin iç üzünü bir daha ortaya qoymuş oldu. Bəli, biz bir daha əmin oluruq ki, bu gün dünyada hüququn deyil, gücün bərpa etdiyi ədaləti qəbul edirlər. Daha doğrusu, beynəlxalq hüququ ayaqlar altına atanlar bu cür ikibaşlı siyasət yeridirlər. Ölkəmizə qarşı bu cür məkrli davranışlar Azərbaycan ictimaiyyətində, Azərbaycan xalqında, təbii olaraq, hiddət hissi doğurur. Amma məsələnin maraqlı tərəfi həm də odur ki, biz artıq bu cür qərəzli siyasətə öyrəşmişik, ona təəccüblənmirik. Çünki bu ikiüzlü siyaət on illərdir ki, davam etdirilir. Fəqət, son dörd ildə bütün sahələrdə və müstəvilərdə özlərinin layiqli cavablarını alan o qüvvələrin aqibəti bundan sonra daha betər olacaq.

*

Qarabağ Azərbaycan dövlətinin beynəlxalq hüquq çərçivəsində tanınan ərazisidir. Biz torpağımızın işğalına son qoymuşuq, bütün ərazimizdə suverenliyimizi bərpa etmişik. Bizim bu haqqımızı hansı beynəlxalq konvensiya, pakt, yaxud müqavilə tanımaya bilər? İsveçrə bitərəf dövlət kimi özünü bu müstəvidə də "təsdiqləmək" fikrinə düşübsə, ermənilərin məsələsini qaldırırsa, onda Qərbi azərbaycanlıların geri qayıdış hüququnu niyə unudur? Bu ölkənin parlamentinin yuxarı palatasının anti–Azərbaycan qətnaməsində yer alacaq şər-böhtan, "münaqişəsinin sülh yolu ilə həlli" kimi boyat və cəfəng çağırışları Zəngəzur dağlarından sərhədyanı ərazilərimizə hər gün binoklla baxan Aİ missionerlərinin təxribatından nə ilə fərqlənir? Heç nə ilə! Çünki bu qüvvələr bir-birinin "ağzına tüpürürlər".

Yəqin İsveçrə parlamentinin təxribatçı çağırışına rəsmi Bakı mövqe bildirəcək, ona sərt və tutarlı cavab verəcək. İsveçrənin daxil olduğu həmin haypərəst düşərgənin üzvləri, "kollektiv Qərb" belə davranışları ilə öz ölkələrinin məkrli niyyətlərini ifşa etmiş olurlar. Burada söhbət neytrallıq xəttini çoxdan pozmuş təkcə İsveçrədən deyil, Fransanın yedəyində hərəkət edən digər ölkələrdən də gedir. Onların bundan peşimançılıq keçirəcəkləri gün uzaqda deyil. Amma, bu, fayda verməyəcək sonuncu peşmançılıqları olacaq...

***İmran BƏDİRXANLI***
***XQ***

# Ermənistanın silahlanması Cənubi Qafqazda yeni təhlükə yaradır

**(əvvəli 1-ci səhifədə)**

Əgər Ermənistan silalandırılırsa, deməli, hansısa məqsəd var. Bu məqsəd heç də bu regionun sabitliyinə xidmət etmir. Əksinə Hayastanı təxribatlar törətməyə və Azərbaycana qarşı növbəti müharibəyə həvəsləndirir. Bunun nəticəsidir ki, 2024-cü ildə Ermənistanda oktyabrın 15-dən dekabrın 20-dək ehtiyatda olan hərbi qulluqçuların təlim-məşq toplanışları keçirilib. Ermənistan hökuməti bu il aprelin 1-dən iyunun 13-dək ehtiyatda olan hərbçilər üçün hərbi təlimlər keçirəcək. Bu təlimlər sıravi, çavuş və zabitləri əhatə edəcək. Bəzi ekspertlərin fikrincə, Ermənistan hökumətinin bu qərarı regionda gərginliyin artmasına səbəb olacaq. Çünki Ermənistanın yenidən müharibəyə başlamayacağına heç bir təminat yoxdur.

Bundan əlavə, 2024-cü ilin fevralında Ermənistan parlamenti hərbi xidmət və səfərbərlik haqqında qanunvericiliyə dəyişiklik edib. Səfərbərlik dövründə çağırış yaşına çatmış vətəndaşların qeydiyyata alınması və hərbi xidmətə çağırılması prosedurları sadələşdirilib, yayınma hallarına görə cəzalar sərtləşdirilib. Ermənistanda baş verən silahlanma prosesi və hərbi təlimlərlə bağlı dəyişikliklər isə şübhəsiz ki, Cənubi Qafqaz üçün yeni təhlükə faktorudur.

Ermənistan həm də Azərbaycanla şərti sərhəddə intensiv şəkildə fortifikasiya qurğuları tikir, mühəndis-istehkam işləri aparır. Hayların məqsədi daha güclü müdafiə sistemi qurmaq və gələcəkdə aparacaqları müharibə üçün zəmin yaratmaqdır. Hindistandan alınan silahların Azərbaycanla şərti sərhəd yaxınlığında yerləşdirildiyi barədə də məlumatlar var. Bu, çox narahatedici siqnaldır. Ona görə də iki ölkə arasında hərbi toqquşma riski yüksək olaraq qalır.

Qeyd edə ki, bu ölkə özünü bir az da güclü hiss edən kimi qonşularına ərazi iddiaları irəli sürməyə başlayır. Hücum silahlarının sərhəd bölgələrində yerləşdirilməsi yalnız bu niyyətləri təsdiqləyir.

Bütün istiqamətlərdə baş verən proseslər bir daha göstərir ki, Ermənistan sülh mesajlarının verilməsi fonunda sürətlə silahlanır və onu yeni münaqişədə Azərbaycana qarşı istifadə etməyi planlaşdırır.

Onu da qeyd edək ki, Ermənistanın silahlanması, mühəndis-istehkam qurğularının, dərinləşdirilmiş bunkerlərin yaradılması ilə paralel olaraq, şərti sərhəddə Aİ-nin mülki missiyası fəaliyyət göstərir. Missiya Ermənistanın xeyrinə casusluqla məşğul olurlar. Ümumiyyətlə, missiya üzvlərinin davranışı normal siyasi mədəniyyət standartlarına sığmır. Deməli, təxribatlar tez-tez vaş verəcək.

Ölkəmiz müharibə şəraitində olduğu dövlətin bu şəkildə silahlandırılmasına göz yuma bilməz. Çünki hələ də müharibə şəraitindəyik. İrəvan İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələrinə çox ciddi yanaşmalıdır. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Biz istəyirik ki, artıq müharibə səhifəsi bağlansın. Ancaq görürük ki, Ermənistanın həm özü, həm onun yeni havadarları bunu istəmirlər. Onlar revanşist fikirlərlə yaşayırlar və Ermənistan faktiki olaraq bölgə üçün bir təhdid mənbəyidir... Bir daha demək istəyirəm ki, biz, sadəcə olaraq, müşahidəçi kimi buna tamaşa edəsi deyilik. Ermənistan silahlanmanı dərhal dayandırmalıdır. Ona silah verən Fransa və digər ölkələr o kontraktlara xitam verməlidir, ləğv etməlidir. Artıq Ermənistana göndərilmiş silahlar geri qayıtmalıdır. Bu, bizim şərtimizdir. İndi kim bunu necə istəyir elə də qəbul etsin. Mən sözümü deyirəm, onlar da bilirlər, onların arxasında duranlar da bilirlər ki, əgər biz nəyisə deyiriksə, deməli, artıq bu məsələyə çox ciddi yanaşırıq".



**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev** hesab edir ki, Ermənistan revanşist istəklərindən əl çəkməyib:



"Ermənistan rəsmiləri sülh danışıqlarında müsbət məqamları qeyd etsələr də, hərbi ritorikadan əl çəkməyiblər. Üstəlik, son illər Ermənistan sürətlə silahlanır və bu silahlar təkcə müdafiə deyil, həm də hücum xarakterlidir. Ehtiyatda olan hərbçilərin uzunmüddətli təlimlərə cəlb olunması da müəyyən niyyətlərdən xəbər verir". Nağıyev onu da qeyd edib ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olmaqla, əslində, Rusiyaya qarşı addımlar atır, Moskvanı Cənubi Qafqazda mümkün münaqişəyə cəlb edir. Onun fikrincə, bu cür hərəkətlər Rusiyanın regionda təsirini zəiflətməyə çalışan Avropa İttifaqı və Fransa tərəfindən istiqamətləndirilir: "Azərbaycan Ermənistanın istənilən qanunsuz hərəkətinə qarşı ciddi cavab tədbirləri görəcək. Ermənistanın istənilən təxribatı onun üçün problemlə nəticələnəcək. Ona görə də o, və onun himayədarları ciddi düşünməlidirlər".

Deputatın sözlərinə görə, Ermənistan tərəfi Aİ-nin regiondakı müşahidə missiyasının məlumatlarından istifadə edir. "Bu missiya casusluqla məşğul olur".

Bu arada qeyd edək ki, Pentaqon iyul-avqust aylarında Almaniyadakı hərbi bazalardan təlimlərdə iştirak etmək üçün Ermənistana texnika və avadanlıq gətirməyi planlaşdırır. Onların geri qaytarılması isə sentyabrda nəzərdə tutulur. Ümumilikdə, generatorlar və ixtisaslaşdırılmış konteynerlər də daxil olmaqla 151 texnikanın daşınması planlaşdırılıb.

Sonda onu da deyək ki, Cənubi Qafqazda əmin-amanlığa aparan yol sülh müqaviləsidir. Ermənistan rəhbərliyi sərbəst siyasət yürütmək qabiliyyətinə malik olmadığından xarici qüvvələrin təsiri ilə onların dediklərini həyata keçirir. Ermənistanı silahlandırmaq, əlavə vəsait vermək regionda yeni münaqişələr yaratmağa yol açır. Bu da Cənubi Qafqazda sabitliyin möhkəmlənməsinə, sülhün bərpa edilməsinə zərbədir. Onu da bilməlidirlər ki, silahlanmaq və şərti sərhəddə təxribatlar törətməklə heç nəyə nail ola bilməyəcəklər. Bu, onların sonunu gətirəcək. Bunu haylar başa düşməlidirlər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Etimadın sıfır nöqtəsində açılan atəş

(əvvəli 1-ci səhifədə)



Hazırda sülhün 44 günlük müharibə qalibi olan Azərbaycan tərəfindən müəyyənləşdirilmiş iki başlıca şərti var. Ermənistan konstitusiyasının dəyişdirilməsi, sənədin işğalçı istinad mahiyyətinin aradan qaldırılması, ATƏT-in Minsk qrupunun, yəni, fəaliyyəti, böyük ölçüdə, torpaqlarımıza təzavüzün leqallaşdırılmasına yönəlmiş təsisatın ləğvi.

Baş nazir N.Paşinyan sülh sazişi mətninin razılaşdırılmasından sonra onu imzalamağa hazır olduğunu bildirdi və dərhal bu mövqeyinin beynəlxalq miqyasda reklamına girişdi, özünü sülhpərvər göstərməyə çalışdı. Ölkəmizin rəhbərliyi isə diqqətə çatdırdığımız iki şərtin gündəmdə olduğunu vurğuladı.

Şübhəsiz, Ermənistan rəhbərliyinin tələskənliyi manipulyativdir. Belə yanaşma sülh müqaviləsinin erməni avantürizmi seqmentindən yan keçməklə imzalanması üçündür. Məqsəd gələcəkdə həmin avantürizmin nümayişinə zəmin saxlamaqdır. Azərbaycana gəldikdə, ölkəmiz sülhə fundamental yanaşır, Cənubi Qafqazın sabitliyini və təhlükəsizliyini əsas götürür, riskləri heçə endirməyə çalışır. Ümumən, ölkəmiz regionda ambisiyalara rəvac verə biləcək bütün mənfi tendensiyaların aradan qalxmasında israrlıdır.

**

Bəli, Ermənistanın atəşkəsi pozacağını gözləmək olardı. İstər N.Paşinyanın, istərsə də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın ötən həftə dilə gətirdikləri bunu söyləməyə əsas vermişdi. Birinci demişdi ki, Ermənistan konstitusiyasının dəyişdirilməsi ölkənin daxili işidir. Onun sözlərindən belə çıxmışdı ki, dəyişikliyə ümumən ehtiyac duyulmur. Nikolun fikrincə, ehtiyac həm də o səbəbdən yoxdur ki, guya, erməni ana qanununda Azərbaycana qarşı ərazi iddiası istisnadır.

Zəruri haşiyə çıxaq ki, sülh müqaviləsinin mətni üzrə razılaşdırılmış son iki bənddən birində regionda üçüncü qüvvələrin olmaması məsələsi yer alır. Hazırda üçüncü qüvvə qismində Avropa İttifaqının Azərbaycan – Ermənistan şərti sərhədinin Hayastan tərəfində keşik çəkən mülki müşahidə missiyası var. Erməni XİN rəhbəri A.Mirzoyan ötən həftə bildirdi ki, həmin missiya fəaliyyətinə yalnız sülh müqaviləsi imzalandıqdan sonra son qoyacaq. Sözümüz ondadır ki, rəsmi İrəvanın sırf sülh müqaviləsi ilə bağlı da təzadlı manipulyasiyası var.

**

Yeri gəlmişkən, N.Paşinyan bir müddət əvvəl Aİ müşahidəçilərinin sərhədin delimitasiya olunmuş hissəsində fəaliyyət göstərməyəcəklərini açıqlamışdı. Təxminən belə, həmin zonalarda hər şey yaxşıdır, quruma ehtiyac yoxdur. Göründüyü kimi, baş nazirin dediyi ilə Mirzoyanın missiya təmsilçilərinin regiondan çıxacaqlarının barış sazişinin imzalanmasından sonraya saxlanılması məntiqi arasında ziddiyyət var. Ziddiyyəti təsdiqləyən, habelə Aİ-nin başqa gündəminin mövcudluğunu göstərən daha bir məqam da var.

Qeyd edək ki, Aİ-nin müşahidə missiyasının rəhbəri Markus Ritter erməni mediasına müsahibəsində Nikolun bildirdiklərinin əleyhinə çıxmışdı. O, missiya üzvlərinin heç yerə getməyəcəyini, Azərbaycanla sərhədin delimitasiyası aparılmış hissələrinə yaxın bölgələrdə yaşayan əhali ilə söhbətlər aparacaqlarını, məktəblərdə, icmalarda təmaslar quracaqlarını vurğulamış, bir sözlə, müşahidəçiləri, obrazlı desək, "sülh qaranquş"u kimi dəyərləndirmişdi.

Ritter, eyni zamanda, son dərəcə absurd tərzdə bildirmişdi ki, Aİ müşahidəçiləri fəaliyyətlərini Azərbaycanın və Ermənistanın quruma ehtiyacın duyulmadığına dair birgə müraciətindən sonra dayandıracaqlar. Məlumdur ki, ölkəmiz Aİ missiyasını regiona nəinki dəvət etməyib, əksinə, onun mövcudluğuna həmişə kəskin yanaşıb. Görəsən, Ritter hansı birgə müraciətdən dəm vurur? Suala cavab vermək çətindir, amma Paşinyan hakimiyyətinin Aİ müşahidəçilərini bölgədə tutmaq üçün dəridən-qabıqdan çıxması onu deməyə əsas verir ki, rəsmi İrəvan Qərbin sərsəm gündəliyinin icrasından geri durmaq niyyətində deyil. Nikol sülh müqaviləsini həmin gündəmin, bir növ, inhisarında görür.

*

Azərbaycan sülh danışıqlarının mətninin razılaşdırılması ilə barış şərtlərini ayrı tutur. Ermənistan silahlı qüvvələri isə atəşkəsi ölkəmiz sülhün iki şərtinin gündəmdə qaldığını yenidən vurğuladıqdan sonra pozdu. Yəni rəsmi İrəvan Bakının prinsipial mövqeyini qəbul etmək istəmədiyini atəş səsləri ilə sübuta yetirdi. Hər şey aydındır. Ancaq durumun başqa təfərrüatlarına nəzər salmaq zəruridir. Çünki Ermənistan rəhbərliyinin güllə səslərinin eşidilməsinə münasibəti ilə bağlı bəzi məqamlar var.

Deməli, martın 16-da atəşkəs üç dəfə pozulub. Ermənistanın Müdafiə Nazirliyi bu halın hər üçünə reaksiya verib. Qurumun birinci açıqlamasında bildirilib ki, Azərbaycan Müdafiə Nazirliyinin yaydığı informasiya yalandır. İkinci açıqlamada Azərbaycan MN-nin, guya, yenidən dezinformasiya yaydığı, üçüncüdə isə ölkəmizin baş hərbi idarəsinin "dezinformasiya yaymağa davam etdiyi" vurğulanıb. Hər üç açıqlamada təkrarlanması diqqət çəkən bir nüans var: "Xatırladaq ki, Ermənistan baş nazirinin aparatı atəşkəs rejiminin pozulması və bununla əlaqədar informasiyaların yayılması hallarının araşdırılması üçün Ermənistan və Azərbaycan arasında müştərək mexanizm yaratmağı təklif edib, ancaq Azərbaycan hələ də buna reaksiya verməyib".

Ermənistan davamlı olaraq Azərbaycanla birgə mexanizm yaratmaqdan danışır. Nəzərə alaq ki, ölkə atəşkəs rejiminin pozulmasına nəzarət mexaniminin formalaşdırılmasını əvvəllər də irəli sürüb. Rəsmi İrəvanın, bütövlükdə, silahlanmaya birgə nəzarətlə bağlı mexanizm yaratmaq təklifinin olduğunu da bilirik. Hesab edirik ki, bütün bunlar Paşinyan administrasiyasının öz sərsəm baxışlarını qəbul etdirmək, əsl mahiyyətdən uzaqlaşmaq cəhdlərindən başqa bir şey deyil. Guya, mexanizm olanda nə dəyişir? Heç nə və bunun sübutu var.

Məsələn, ötən il Azərbaycan tərəfi atəşin Ermənistana məxsus konkret hansı ərazidən açıldığının video-görüntülərini təqdim etmişdi. Rəsmi İrəvan buna qarşı heç bir tədbir görmədi, ölçü götürmədi Əvəzində bildirdi ki, guya, atəş açan erməni ordu birləşmələrinin təmsilçisi yox, hansısa könüllü imiş. Görəsən, könüllünün səngərdə nə işi olub? Gülməli deyilmi? Daha gülməli olan Paşinyan administrasiyasının keşmişin "təcrübəsini" yenidən tətbiq etmək istəməsindədir.

Yada salaq ki, 1991-1993-cü illərdə Azərbaycan və Ermənistan dəfələrlə atəşkəs razılığına gəlsələr də, üzərindən bir gün keçməmiş hər şey alt-üst olurdu. Erməni tərəfi iddia edirdi ki, məsələ onlarlıq deyil və guya Qarabağ könüllüləri durumla barışmırlar. Bu "barışmazlığın" nəticəsində isə torpaqlarımız işğal edildi, bir milyon vətəndaşımız qaçqın və məcburi köçkün həyatı yaşamaq məcburiyyətində qaldı. Üstəlik, erməni tərəfin İkinci Qarabağ müharibəsi günlərində də əldə edilmiş atəşkəs razılaşmalarını pozma faktları var.

Sözümüz ondadır ki, Ermənistan rəhbərliyi məsuliyyətsiz mövqe tutursa, özünün hansısa sərsəm ritorikasının diktəsi üçün plasdarm axtarırsa, nə üçün Azərbaycan mücərrəd müştərək mexanizm təklifi ilə razılaşmalıdır.

Digər tərəfdən, Ermənistan MN açıqlamasında ölkəmizin Müdafiə Nazirliyinin, guya, yalan informasiya yaydığını iddia etməklə kifayətlənir. Görəsən, qurumdakılar nə demək istəyirlər? Bəlkə bildirmək istəyirlər ki, güllə səsləri eşidilməyib? Olmazdımı ki, məsələyə ətraflı münasibət bildirəydilər, detalları diqqətə çatdıra, hansısa yeni şərt irəli sürürlərmiş kimi davranmayaydılar?..

Azərbaycan atəşkəsin qarşı tərəfdən pozulduğunu sübutlu şəkildə bəyan edir, konkret saat açıqlayır. Rəsmi İrəvan məsələyə həssas yanaşmır və daha bir nəticəyə gəlirik ki, atəş səsləri ölkəmizin sözügedən mexanizm təklifini qəbul etmədiyinə görə eşidilir. Bəlkə, erməni ordusu Azərbaycana nə isə qəbul elətdirəcəyinə inanır? Sualımız ritorik təsir bağışlasa da, qarşı tərəf atəşkəsi pozması xüsusunda açıqladıqlarının nəticələrini, hansı assosiasiya doğurduğunu düşünməli, el dilində desək, ayağını yorğanına görə uzatmalıdır. Sırf nəticə barədə isə sonda söz açacağıq. Hələlik isə...

*

Qeyd edək ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi mətninin razılaşdırılmasına dair danışıqların yekunlaşdırılması ilə əlaqədar xəbər yayılmazdan əvvəl ölkəmizin "Caliber.az" saytı bir məlumat yaymışdı. Məlumatda Ermənistanın Azərbaycanla aprel ayında müharibəyə başlayacağı bildirilirdi. Erməni mediasında açıqlanan bəzi bilgilər də həmin bunu təsdiqləyirdi. Məsələn, "Hraparak" nəşri bildirmişdi ki, baş nazir N.Paşinyan komandasının üzvləri ilə görüşdə Azərbaycanı razı salmağın qeyri-mümkünlüyünü açıqlayıb və savaş ehtimalının böyüklüyündən söz açıb, tapşırıqlar verib.

Görünür, Ermənistan tərəfi hər şeyi planlı edir. Yəni Azərbaycanın iki şərtini qəbul etmir, ardınca sülh müqaviləsinin mətni üzrə pozitiv ovqat yaradaraq, real durumun təhrifinə girişir. Elə fon yaradır ki, guya, barış sazişinin imzalanması yolunda heç bir problem qalmayıb. "Tərtibatın" məqsədi yarana biləcək gərginlikdə və hərbi toqquşmada Azərbaycanı günahlandırmaqdır.

Ardınca atəşkəs pozulur və Ermənistan MN anlaşılmaz reaksiya verərək, ölkəmizin baş hərbi idarəsini dezinformasiya yaymaqda günahlandırır. Daha sonra erməni ekspert və politoloq cameəsi "hərəkətə keçir" və rəsmi İrəvanın Azərbaycanı təcavüzkar kimi göstərmək xəttinin təbliğatını gücləndirir. Bu yaramaz xəttin tərkibində isə saxta tezislər, beynəlxalq ictimaiyyətin diqqətini əsl həqiqətlərdən yayındırmaq üçün istifadə olunan ənənəvi qondarma iddialar yer alır.

Sən demə, Azərbaycan rəhbərliyinə sülhün yaranmaması, müvafiq olaraq, müharibə ölkə daxildəki vəziyyəti cilovlamaq, "müxalifətə qarşı mübarizəni gücləndirmək üçün" lazım imiş.

Tutalım, ölkəmizin rəhbərliyi daxildəki vəziyyəti cilovlamaq üçün müharibəyə üstünlük verir. Bu fikirdən belə çıxdı ki, Azərbaycanda iqtidarın vəziyyəti, guya, həddən artıq çıxılmazdır, müxalifət meydan sulayır və sair. Əgər belə bir qeyri-sabit durum varsa, Azərbaycan rəhbərliyinin və cəmiyyətinin Qərbi Azərbaycan konsepsiyası necə meydana çıxır? Hay başbilənlər bir yandan haqqında söz açdığımız daxili gərginlik ritorikasına baş vurur, digər tərəfdən dinc məqsədli Qərbi Azərbaycan konsepsiyasının Ermənistanın işğalına yönələn cəhd kimi qiymətləndirirlər. Pis durumda olan ölkə başqa məqsədlərə köklənərmi? Əlbəttə ki, yox! Yəqin, təzadın fərqinə vardınız.

*

Rəsmi İrəvan həmişə sülh müqaviləsini natamam şəkildə ərsəyə gəlməsi naminə çalışıb. Hazırda saziş mətnindəki natamamlıqların aradan qalxdığı, ancaq erməni avantürasına – gəcələcəkdə işğalçılıq niyyətinə əsas verən məqamların qaldığı, sözügedən məqamların da sıradan çıxarılmasının vacibliyinin rəsmi Bakının iki şərti şəklində vurğulandığı şəraitdə Ermənistan atəşkəsi pozur və hay başbilənlər şivən qoparırlar ki, Azərbaycan rəhbərliyi sülh müqaviləsini imzalamaqdan boyun qaçırır. Onların bildirdiyinə görə, guya, ölkəmiz erməni tərəfin barış mühitinə sadiq olmadığına dair informasiya fonu yaratmaq istəyir.

Diqqət yetirək, istər Prezident İlham Əliyev, istərsə də digər rəsmilərimiz iki şərtimizin qəbul olunmayacağı təqdirdə, sülh müqaviləsinin imzalanmayacağını dəfələrlə diqqətə çatdırıblar. Durumla barışmaq istəməyən isə Ermənistan və onun Cənubi Qafqazda yeni geosiyasi gündəm formalaşdırmağa çalışan havadarları, başqa sözlə desək, regionda erməni avantürizminin davamını istəyənlərdir. Paşinyan iqtidarı həm də onların maraqlarından çıxış edərək, Bakının iki şərtini qəbul etmir. Bu səbəbdən dövlətimizin başçısı Azərbaycanın sülh sazişi olmadan da keçinə biləcəyini vurğulayıb. Elə isə ölkəmizə erməni tərəfin barış mühitinə sadiq olmadığına dair informasiya fonu yaratmaq lazımdırmı? Təbii ki, yox! Ölkəmizin şərtini qəbul etməyən də Ermənistandır, sərhəddə təxribat törədib bunu ölkəmizin üstünə atmaq istəyən də. Rəsmi İrəvan cığal uşaqlartək son dərəcə məntiqsiz davranır. Əslində, məntiqsizlik avantürizmdən irəli gəlir.

*

Sonda onu da deyək ki, Azərbaycan sülh tərəfdarıdır və 44 günlük müharibədən sonra məğlub Ermənistana barış əlini uzadıb, böyüklüyünü göstərib. Halbuki, bunu etməyə də bilərdi. Amma bildirdiyimiz kimi, ölkəmiz üçün sülhün fundamentallıq kasuzu son dərəcə önəmlidir. Mövcud kazus Azərbaycanın regional lider obrazını göstərməlidir və bu, ölkəmizin haqqıdır.

Sülh müqaviləsinin olmaması o deməkdir ki, Ermənistan otuz ildən artıq müddətdəkitək, yenə dalanda qalacaq. Ölkənin havadarlarını, rəsmi İrəvan üzərinə siyasi sərmayə yatıraraq Cənubi Qafqazda qlobal oyunlar qurmaq istəyənləri də narahat edən məhz budur. Axı onlar 2018-ci ildə inqilab edib Paşinyanın hakimiyyətə "böyük məqsədlərin" icrası naminə gətiriblər və indi iddialarından geri dura bilmirlər.

Azərbaycana qarşı barışmazlıq xəttinin, xarici qüvvələrin alətinə çevrilmənin, qeyri-səmimi yanaşmanın Ermənistana və Paşinyan administrasiyasına hansı aqibəti yaşadacağına gəldikdə, bunu zaman göstərəcək. Nəzərə alaq ki, hazırda Ermənistana münasibətdə olmayan etimadımız özü mahiyyətcə böyük anlayışdır və etimadın sıfır nöqtəsindən açılan atəş, heç bir halda, hədəfə dəyə bilməz.

*Əvəz CAHANGİROĞLU*
***XQ***

# Fələstin səfirinin diplomatik fəaliyyəti başa çatıb



**Martın 17-də xarici işlər naziri Ceyhun Bayramov Fələstin Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nasir Əbdülkərim Əbdürrəhmanla ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşüb.**

Nazir Ceyhun Bayramov ölkəmizdə səmərəli diplomatik fəaliyyətinə, Azərbaycan–Fələstin münasibətlərinə verdiyi töhfəyə görə səfir Nasir Əbdülkərimə təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Nazir səfirin ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Prezident İlham Əliyev tərəfindən "Dostluq" ordeni ilə təltif olunması münasibətilə təbriklərini çatdırıb və ordeni ona təqdim edib.

Görüşdə Azərbaycan ilə Fələstin arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran mövzular, habelə regional vəziyyət müzakirə olunub. Azərbaycanın Fələstin məsələsinin beynəlxalq hüququn normaları, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən "iki dövlət həlli"nin tərəfdarı olduğunu hər zaman dəstəklədiyi, bu istiqamətdə əməli addımlar atdığı diqqətə çatdırılıb.

Səfir Nasir Əbdülkərim 14 ilə yaxın müddətdə Fələstinin dost Azərbaycanda səfiri kimi fəaliyyətini hər zaman qürurla xatırlayacağını vurğulayaraq, Prezident tərəfindən ali ordenlə təltif olunmasına və ona fəaliyyətində göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

***XQ***

# Mövqelərimiz hədəfə alınıb



**Ermənistan silahlı qüvvələri mövqelərimizi bir neçə dəfə atəşə tutub. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, martın 17-si saat 17:25-dən 21:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Saybalı, Çənbərək rayonunun Vaqan və Basarkeçər rayonunun İstisu yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

***XQ***

# Milli ideya XXI əsrin yeni geosiyasi çağırışları fonunda

*I məqalə*

## Yaradıcı liderlik: "cogito ergo sum"

**Azərbaycan Prezidenti İlham Əliyevin regional miqyasda şəxsi liderliklə dövləti liderliyi uğurla sintez etməsi yalnız praktiki fenomen deyildir. XXI əsrin geosiyasi, sosial-mədəni, ideoloji, texnoloji şərtləri elədir ki, siyasi liderlikdə nəzəri-konseptual aspektlər praktiki-tətbiqi tərəfin ahəngdarlığı olmadan davamlı uğurlu liderlik imkansızdır. İndi filosoflar və politoloqlar bu şərtlər daxilində uğurlu liderliyin həm nümunəsini, həm də onu təmin edən baza kriteriyalarını (keyfiyyətləri, prinsipləri, münasibətləri və s.) axtarırlar. Burada üç yanaşma özünü göstərir.**

Yəni indi XXI əsrin geosiyasi çağırışlarını əsas olaraq daha da həssaslaşmış qlobal miqyasda baş verənlərin regional miqyasa və onun daxilində milli dövlətə mümkün təsirləri fonunda qiymətləndirirlər. Bu iearxik riskli və həssas təsirlər pilləvari təhdidlər sistemi yaradır. O halda uğurlu milli lider bir neçə səviyyəyə malik həssas situasiyada milli maraqlara cavab verən fəaliyyət göstərməli, adekvat rasional qərarlar qəbul etməlidir. Bu, liderin düşüncəsi, duruşu və iradi keyfiyyəti ilə "cogito erqo sum" (yəni, "düşünürəm, varam") deməsini tələb edir! Daha aydın terminlə milli lider yaradıcı (kreativ) olması liderliyin baza parametrlərindən biri halına gəlmişdir!

Bütün bunlar bizə XXI əsrdə uğurlu milli siyasi liderliyin kriteriyalarını müəyyən etməyə yol göstərir.

## Baza amillər

Hər şeydən öncə, aydın olur ki, uğurlu liderliyin şərtləri XXI əsrin sürətlə dəyişən si-nəzəri aspektlərdə vacib bir məqam önə çıxır – XXI əsrin bu gözlənilməz, sürətlə yeniləşən və risklərlə dolu çağırışları sülh, barış, əməkdaşlıq və təhlükəsizlik naminə fürsətə çevirmək üçün Cənubi Qafqazın lider dövləti hansı faktora söykənə bilər? Onun motivasiyası və müəyyənedici funksiyası ilə şəxsi liderliklə dövləti regional liderliyin ahəngdarlığını davamlı, dayanıqlı və perspektivli proses halına gətirə bilər?

## Milli ideyanın yeni məzmun və funksiyası

Öncə aydınlaşdırmaq lazımdır ki, nəyə görə konkret Cənubi Qafqazın lider dövlətinin özü və başçısı  üçün milli ideya yeni şərtlərdə baza faktoru rolunu oynamalıdır. Cavab axtarışları "milli ideya" anlayışının dərk edilməsinin bir sıra məqamlarına yenidən baxmağı tələb edir.

Məsələ milli ideyanın məzmunu, təyinatı və reallaşma mexanizmlərinin özəllikləri ilə bağlıdır. Milli ideya bütövlükdə,



Birincisi, uğurlu liderliyin baza parametri kimi yalnız bir kriteriyanı  müəyyən etmək.

İkincisi, uğurlu liderliyin XXI əsrin şərtləri kontekstində çoxsaylı kriteriyalarını müəyyən etmək. Bu yanaşmada liderlik, ümumiyyətlə, daim yeniləşən, açıq xarakterli, lakin qeyri-xətti mahiyyətə malik dinamik proses kimi qəbul edilir.

Üçüncüsü, bir sıra politoloji dairələrdə liderliyin kriteriyalarını müəyyən etməyə ehtiyacın olmadığı fikri irəli sürülür. Onun əsasında isə liderin qeyri-standart üsulla, məsələn, "təsadüfi seçim", müəyyən qrup fəal insanlar arasından "zər atmağa" oxşar üsulla kimisə lider seçmək yanaşmaları dayanır.

Daha ciddi lideroloqlar (məsələn, Barbara Kellerman) liderliyə ənənəvidən fərqli olan başqa yöndən yanaşır. O hesab edir ki, XXI əsrdə uğurlu lider "kütlənin arxasınca gedən"dir. Yəni lider "xidmətçidir"("xalqın xidmətçisi"), sosiumun sifarişlərini yerinə yetirəndir və deməli, başlıca olaraq cəmiyyətdən gələn sifarişləri yerinə yetirən uğurlu liderdir.

Biz bu yanaşmalardan fərqli olan mövqeni müasir tələblərə daha uyğun hesab edirik. XXI əsrin sürətlə dəyişən qlobal geosiyasi çağırışlarını nəzərə almadan dünyanın heç bir ölkəsində lider davamlı olaraq uğur qazana bilməz. Çünki indi milli, regional, regionlararası və qlobal miqyaslar o dərəcədə bir-biri ilə qarşılıqlı əlaqədədirlər ki, onların hansının "daxili", hansının "xarici" təsir rolunu oynadığını elmi olaraq müəyyən etmək mümkün deyildir.

Burada sinergetikada işlənən bir termin daha uyğun gəlir – "plektiks". Yəni proseslərin, faktorların, hadisələrin, fəaliyyət sferalarının, təsir mexanizmlərinin "sarmaşıq" kimi münasibətdə olması. Ənənəvi fəlsəfi, elmi və politoloji təfəkkürdə "daxili" sayılan və ya "xarici" hesab edilən parametrlər indi özündə hər iki aspektin əsas məqamlarını vəhdət halında daşıyır. Daxilidə həm də xairicilik vardır və əksinə...

Bundan başqa, XXI əsrə xas olan bir mühüm özəllik meydana gəlmişdir. Həmin özəllik hər bir milli dövlət üçün ümumi səviyyədə "ətraf mühit" və ya "xarici mühit" sayılan qlobal geosiyasi mənzərənin daim yeniləşməsi ilə bağlıdır.

Nümunə üçün: Cəmi bir neçə ay öncə kimsə yeni çağırışlar kimi, D.Trampın nələri irəli sürəcəyini dəqiq bilmirdi. D.Tramp isə sürətlə Avropanı, Rusiyanı, Ukraynanı, Yaxın Şərqi, Çini "bir-birinə qatan" tezislər söylədi. Vergilər tətbiq etdi. Daxildə Amerika dövlətçiliyi ilə uzlaşmayan qalmaqallı addımlar atdı. Və bu proses davam edir.

Geosiyasi və tarixi baxımdan çox qısa müddətdə dünya siyasi mənzərəsndə köklü dəyişiklərə səbəb ola biləcək siyasi, diplomatik, ticari, vergi, iqtisadi, hərbi, təhlükəsizlik və s. proseslər özünü göstərdi. Burada risk faktorunun daha da artdığını mütəxəssislər vurğulayırlar.

şərtləri fonunda universal ola bilməz. Çünki XXI əsrin çağırışları elədir ki, sabit "ətraf mühit" heç bir regionda mövcud deyildir. İerarxik olaraq regionlar, regionlararası miqyaslar daim gözlənilməyən yeni risklərlə üz-üzə qala bilər. Əgər sabit xarakterə malik fəaliyyət mühiti mövcud deyilsə, orada aparıcı şəxsin dəyişməz kriteriyalara görə fəaliyyəti daim milli ilə regional, regionlararası və qlobal miqyaslar arasında ziddiyyət yaradacaqdır. Buna görə də yeni uğurlu lider milli, regional, regionlararası və qlobal miqyaslarda özünü göstərən proseslərin dərindən dərki əsasında başçılıq etdiyi dövlətin maraqlarına uyğun olan liderlik nümunəsini müəyyən etməlidir. Bu, liderliyə kreativ yanaşmanın əsas şərtidir.

İkinci şərt bundan az əhəmiyyətli deyildir. Lider daim öz üzərində zehni və iradi aspektlərdə işləməlidir. Yəni uğurlu lider, sözün həqiqi mənasında, zəhmətkeş olmalıdır.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyevin böyük aktivlik və təşəbbüskarlıq potensialına malik olduğu haqqında çox müxtəlif səviyyələrdə fikirlər söylənmişdir. Azərbaycan liderinin xüsusilə, kəskin böhranlı situasiyalarda çox fəal, qətiyyətli və çalışqan davrandığı artıq faktdır! Onu 44 günlük Vətən müharibəsində hər kəs gördü. İlham Əliyev titanik fəallığı ilə həm dövləti idarə etdi, həm hərb meydanında qalib oldu. Bununla yanaşı, informasiya müharibəsində çoxsaylı qərəzli cəhdlərin qarşısını yorulmadan aldı! Bunlar Azərbaycan liderinin zəhmətkeşliyinin bariz nümunələridir.

Nəhayət, üçüncü şərt. Özünün şəxsi liderliyi ilə dövlətin regional liderliyini maksimum uyğunlaşdırmaq keyfiyyəti çox önəm daşıyır. Burada nisbətin pozulması avtomatik olaraq, dövlətin və regionun müsbət geosiyasi dinamikasını poza bilər. Bu tezisi Azərbaycan Prezidenti İlham Əliyev martın 13-də Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumundakı nitqi zamanı çox gözəl və yığcam ifadə etmişdir. Azərbaycan Prezidenti Cənubi Qafqazı nəzərdə tutaraq demişdir ki, bura bizim regiondur, onun məsuliyyətini biz daşıyırıq və bu regionu da biz qurmalıyıq. Həmin quruculuqda indi önə çıxan məqamı da İlham Əliyev dəqiq göstərmişdir ki, bölgədə biz sülhün bərqərar olunması üçün hələ də çalışırıq.

Əhəmiyyətlidir ki, Azərbaycan lideri bu məqsədini "Cənubi Qafqaz bölgəsinin geosiyasi əhəmiyyəti"nin artması əsasında müəyyənləşdirdiyini hiss etdirmişdir. Bunun təməlində isə qlobal miqyasda özünü göstərən "son geosiyasi dəyişikliklərdən" irəli gələn dinamika dayanır. Deməli, Azərbycanın dövlət başçısı şəxsi liderliyi ilə ölkənin regional liderliyi şərtlərini optimal əlaqələndirərək, artıq konkret addımlarını atır.

Burada həm fəlsəfi, həm də siya-

toplumun dünyaduyumu, özünü və ətraf mühiti identifikasiya etməsini, milli özşüurun tarixi xüsusiyyətlərini, kollektiv birgəyaşamın praktiki və ideoloji cəhətlərini ehtiva edir. Milli ideya toplumun özünə və dünyaya münasibətinin yığcam və strateji xarakterli ifadəsidir. Buna görə də milli ideya nəzəri məqsədləri optimal reallaşdırmaq imkanı fonunda dinamik yeniləşdirmək potensialına malik olmalıdır. Bu zaman başlıca strateji hədəfdən yayınma olmamalıdır.

Buradan məntiqi olaraq belə bir fəlsəfi qənaət əldə edə bilərik: XXI əsr sürətlə dəyişən çağırışlarla xarakterizə olunursa və əsas məsələ bu cür dinamik şəraitdə milli dövlətin aparıcılığını davamlı etməkdən ibarətdirsə, onda elə kurs götürülməlidir ki, dövlət üçün "fon" rolunu oynayan regionda hansı sürət və risklə situasiyaların dəyişməsindən asılı olmayaraq, kəsintisiz milli maraqlarla regional maraqları uyğunlaşdıran xətt üzrə fəaliyyəti təmin etmək mümkün olsun. Bu isə özlüyündə həmin xəttin davamlı olmasını təmin edə biləck baza faktoru seçməyi tələb edir. Həmin rolu milli ideya oynaya bilər.

"İdeya" mahiyyətcə insanı motivə edən, onun ideal səviyyədə davranışlarının sərhədlərini müəyyənləşdirən mənəvi, məntiqi, mədəni, iradi rasional fenomendir. İnsan ideyalı olmasa, cəmiyyət miqyasında identikliyini dəqiq müəyyən edə bilməz. Öz identikliyini aydın görməyən vətəndaş isə nə vətənpərvər, nə də bəşəri ola bilər.

Deməli, milli ideya fərd və kollektiv səviyyələrində insanların, cəmiyyətin kimliyini müəyyən edən əsas amildir. Burada dövlətçilik mütləq nəzərə alınır, çünki milli ideya milli dövlətin mövcud olduğu yerdə konkret məzmun ala bilir.

Belə çıxır ki, milli ideya hər bir tarixi mərhələdə fərdi və kollektiv miqyaslarda sosial, psixoloji, mədəni, mənəvi, emosional və digər aspektlərdə identikliyin dövlət identikliyi ilə münasibətlərini tənzimləyən əsas amildir. Onda XXI əsrin yeni çağırışları bütövlükdə yeni şərtləri meydana çıxarırsa, onda milli ideyada həmin məqamlar nəzərə alınmalıdır. Ancaq burada iki məhdudlaşdırıcı şərt ödənməlidir.

Birincisi, ən yeni və riskli çağırışlar belə milli ideyanı yeni tarixi mərhələ kontekstindən kənara çıxara bilməz. Bu anlamda XXI əsrin indi müşahidə edilən çağırışlarının mili ideyaya mümkün korrektələri taktiki xarakter daşımalıdır.

Milli ideyada cəmiyyətlə liderin yeni səviyyədə birliyi üzərində düşünülməlidir. Bir tərəfdən, cəmiyyətin daxili birliyi və millilik duyğusunun daha da gücləndirilməsi, digər tərəfdən liderin yeni mürəkkəb şəraitdə atdığı addımların cəmiyyət tərəfindən inklüziv qəbul edilməsi təmin olunmalıdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycan ən təhlükəsiz ölkələr sırasına yüksəldi

**(əvvəli 1-ci səhifədə)**




Ümumiyyətlə, GTI reytinq sıralanması indeksləri terror hadisələri, ölümlər, ağır nəticələr, girovlar, terrorçuluqla mübarizə, terrorçuluğun araşdırılması effektivliyi və digər çoxsaylı göstəricilər üzrə hesablamalara əsaslanır. Beynəlxalq akademik institutlar, Birləşmiş Millətlər Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Dünya Bankı və digər beynəlxalq təşkilatlar üçün istinad mənbəyi kimi çıxış edən GTI-nin hesabatları İqtisadiyyat və Sülh İnstitutu (Institute for Economics and Peace - İEP) tərəfindən dövri olaraq açıqlanır.

GTI-nin son hesabatına əsasən, Sahel bölgəsi dünyada terrorizmlə əlaqəli ölümlərin yarısından çoxunu təşkil edən terrorizmin episentri olaraq qalır. "İslam Dövləti" isə ən təhlükəli təşkilat kimi qiymətləndirilir. Hesabata əsasən, ərazisində terrorçuluq fəaliyyəti və terror təhlükəsi ən yüksək olan ölkələr arasında ilk yerləri Burkina Faso (8.581), Pakistan (8.374) və Suriya (8.00) tutur. Qeyd olunan sıralamada İsrail (7.463) 8-ci, Rusiya (6.267) 16-cı, İran (6.056) 18-ci, Türkiyə (3.968) 32-ci, ABŞ (3.517) 34-cü, Fransa (2.712) 40-cı, Niderland (1.402) 60-cı, Norveç (1.198) 66-cı, Finlandiya və Yaponiya (0,949) 72-ci, Danimarka və Ermənistan (0.72) 79-cu, Avstriya və Cənubi Koreya (0.582) 82-ci, Latviya və Litva (0.423) 86-cı yerdədir.

Azərbaycan terror təhlükəsi üzrə qeyd olunan sıralamada "0.233" indekslə 2024-cü illə müqayisədə (89) bir reytinq də yüksələrək 2025-ci ildə 90-cı yerdə qərarlaşmaqla, 1-dən 100-dək artan mümkün reytinq həddində dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi yüksək reytinqə malikdir. Ölkədə belə təhlükəsizlik səviyyəsinə destruktiv qüvvələrin dini, etnik və digər zəminlərdə pozucu planlarından meşələrdə sığınacaqlar yaradılması cəhdlərinədək hər cür terror-təxribat həmlələrinin olduğu bir şəraitdə nail olunmuşdur. Beynəlxalq təşkilatların hesabatlarından göründüyü kimi, kifayət qədər həssas və mürəkkəb geosiyasi məkanda olsa da, uğurlu dövlət siyasəti nəticəsində bərqərar olmuş inkişaf, əmin-amanlıq, o cümlədən terrorçuluğa qarşı mübarizə sahəsində təhlükəsizlik orqanları tərəfindən görülən effektiv işlər sayəsində Azərbaycan son illər dünyada yüksək daxili təhlükəsizlik reytinqinə sahiblənmişdir.

Əlbəttə, bütün bunlar ölkədə ciddi hüquq-mühafizə sisteminin mövcud olmasının və ictimai təhlükəsizliyin təmin olunmasına xüsusi diqqət yetirilməsinin nəticəsidir. Azərbaycanın cinayət statistikasına görə, xüsusilə qətl, silahlı basqın və ağır cinayətlər kimi kateqoriyalar üzrə göstəricilər bir çox ölkələrlə müqayisədə çox aşağıdır. Eyni zamanda, Azərbaycanda ictimai asayişin qorunması dövlət siyasətinin əsas istiqamətlərindən biridir və bu sahədə müxtəlif hüquqi, inzibati və əməli tədbirlər həyata keçirilir. Dövlətin hüquq-mühafizə orqanları və vətəndaş cəmiyyəti birlikdə ictimai təhlükəsizliyi təmin etmək üçün davamlı iş aparırlar.

Azərbaycan terrorizmlə mübarizə sahəsində də ardıcıl və hərtərəfli siyasət aparır. Bu fəaliyyət qanunvericilik, hüquq-mühafizə, hərbi və beynəlxalq aspektləri əhatə edir. Azərbaycanın xüsusi xidmət orqanları əməliyyat şəraitinə uyğun olaraq antiterror əməliyyatları həyata keçirir. Bundan əlavə, Azərbaycan banklar, QHT-lər və digər strukturlar vasitəsilə çirkli pulların yuyulmasına və terrorçu qrupların maliyyələşdirilməsinə qarşı fəal mübarizə aparır. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan öz milli qanunlarını terrorizmlə mübarizə üzrə beynəlxalq konvensiyalara uyğunlaşdırmışdır. "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanun (1999) terrorizmlə mübarizə fəaliyyətinin hüquqi əsasını təmin edir.

Azərbaycan terrorizmə qarşı mübarizədə beynəlxalq təşkilatlar və ölkələrlə sıx əməkdaşlıq edir. BMT – Təhlükəsizlik Şurasının terrorizmlə mübarizəyə dair qətnamələrini dəstəkləyir. Eyni zamanda, "İnterpol"un terrorçular haqqında beynəlxalq məlumat mübadiləsində iştirak edir. Habelə "Europol" – beynəlxalq terrorizmlə mübarizədə Avropa İttifaqı ilə əməkdaşlıq edir. Ölkəmiz Müstəqil Dövlətlər Birliyi çərçivəsində də antiterror təşəbbüslərinə qatılır. Türk Şurası – Türkiyə, Qazaxıstan, Özbəkistan və digər türkdilli ölkələrlə təhlükəsizlik məsələlərində qarşılıqlı fəaliyyət göstərir. Bu sahədə yürüdülən siyasət Azərbaycanın milli və regional təhlükəsizliyin qorunmasına sadiqliyini əks etdirir.

Bir sözlə, Azərbaycan həm qabaqlayıcı, həm də cavab tədbirlərinə xüsusi diqqət yetirməklə terrorizmlə mübarizəyə kompleks yanaşma həyata keçirir. Həm ölkə daxilində, həm də beynəlxalq aləmdə terrora qarşı fəal mübarizə aparılır. Hökumət strukturları, müasir texnologiyalar və beynəlxalq əməkdaşlıq terror təhlükələrini minimuma endirməyə və vətəndaşların təhlükəsizliyini təmin etməyə kömək edir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Rustavidə iftar mərasimi

**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə Gürcüstanın Rustavi şəhərində iftar mərasimi təşkil edilib.**



Mərasimdə Azərbaycan və Gürcüstanın müvafiq qurumlarının nümayəndələri, Gürcüstan parlamentinin deputatları, yerli icra orqanlarının rəhbərləri, Bütün Gürcüstan Müsəlmanları İdarəsinin və Gürcüstan Patriarxlığının təmsilçiləri, din xadimləri və icma üzvləri iştirak ediblər.

Ölkəmizin Gürcüstandakı Fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən xaricdə yaşayan soydaşlarımızla bağlı belə bir tədbirin keçirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov vurğulayıb ki, biz eyni regionda əsrlər boyu yaşamış xalqlar kimi ümumi mədəni dəyərləri bölüşürük. Azərbaycan və Gürcüstan Cənubi Qafqazda çoxmillətli və çoxkonfesiyalı ölkələr kimi tanınırlar. Bu mənada, multikulturalizm və tolerantlıq iki xalqı birləşdirən ortaq dəyərlərdir.

Milli Məclisin deputatı Arzu Nağıyev, Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin Departament rəhbəri Davit Davitaşvili, Rustavi şəhərinin meri Nino Latsabidze, Gürcüstan Parlamentinin deputatı İrakli Satakişvili, Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan üzrə müftisi Etibar Eminov və Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstandakı nümayəndəsi Məhəmməd Şamilov ölkələrimizin  əməkdaşlığının iqtisadi, sosial və siyasi baxımdan nümunəvi xarakter daşıdığını, bu cür yüksək mənəvi dəyəri olan tədbirlərin mütəmadi keçirilməsinin zəruriliyini qeyd ediblər.

*XQ*

# TANAP Azərbaycan qazının Avropaya etibarlı körpüsüdür

## *Əsası 10 il əvvəl qoyulmuş bu boru kəməri ilə indiyədək 75 milyard kubmetr "mavi yanacaq" nəql edilib*

**Avropanın enerji xəritəsini zənginləşdirən Cənub Qaz Dəhlizinin ərsəyə gəlməsi Azərbaycanın XXI əsrdə qazandığı mühüm nailiyyətlərdən biridir. Bu irimiqyaslı layihənin həyata keçirilməsi həm Azərbaycan, həm də layihədə təmsil olunan şirkətlər, o cümlədən Cənub Qaz Dəhlizinin əsas resurs mənbəyi hesab edilən "Şahdəniz" yatağının işlənməsinə operatorluq edən BP şirkəti üçün əlamətdar hadisə idi. Çünki bütün maraqlı tərəflərin səyləri nəticəsində əfsanədən reallığa çevrilən Cənub Qaz Dəhlizi bundan sonra neçə onilliklər belə ətraf mühitə ziyan vurmadan, səmərəli və təhlükəsiz şəkildə işlənilməsi nəticəsində təkcə regionda deyil, həm də keçdiyi ölkələr boyunca yeni iqtisadi imkanlar yarada bilən bir layihədir.**




Üç müxtəlif magistral qaz kəmərinin birləşməsindən ibarət olan Cənub Qaz Dəhlizi başlanğıcını Xəzər dənizinin sahilindəki Səngəçal terminalından götürür və İtaliyanın cənubuna doğru Adriatik dənizinin dibindən keçməklə 3500 kilometr məsafə qət edir. Bu layihənin məqsədi Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının ikinci işlənmə mərhələsi çərçivəsində hasil edilən təbii qazın Türkiyə və Avropa bazarlarına çatdırılmasını təmin etməkdən ibarətdir.

Bu nəhəng enerji dəhlizinin ilk hissəsi Cənubi Qafqaz Boru Kəmərindən başlayır və Xəzər sahilindən Gürcüstan–Türkiyə sərhədinə qədər olan hissəni birləşdirir. Cənub Qaz Dəhlizinin Türkiyə–Gürcüstan sərhədindən başlayaraq Türkiyənin şərqindən qərbinə doğru uzun bir məsafə qət edərək bu ölkənin Yunanıstanla sərhədinə qədər olan hissəsi Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) adlanır. Türkiyə–Yunanıstan sərhədindən başlayaraq Albaniyadan keçərək İtaliyanın cənubundakı məntəqəsinə qədər olan hissədə inşa edilən magistral qaz kəməri isə Trans-Adriatik Boru Kəməridir (TAP).

Cənub Qaz Dəhlizinin ən uzun hissəsi TANAP kəməridir. Regionda qarşılıqlı əməkdaşlığın növbəti təzahürü olan TANAP layihəsi iki qardaş, dost ölkə olan Azərbaycan və Türkiyənin birgə səyi və gücü ilə reallaşdırılan nəhəng enerji layihəsidir. Azərbaycan qazını Türkiyə vasitəsilə dünya bazarına çıxaran Trans Anadolu boru kəməri ötən müddətdə hər iki ölkənin iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılmasına, bu sahədə tərəfdaşlıq münasibətlərinin bir qədər də möhkəmləndirilməsinə səbəb olub. Təsadüfi deyil ki, bu il martın 5-də Prezident İlham Əliyev İğdır–Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimindəki çıxışı zamanı deyib: "Bu gün Türkiyə və Azərbaycan – iki qardaş ölkə nəhəng layihələr reallaşdırır. Bakı – Tbilisi – Ceyhan, Bakı –Tbilisi –Ərzurum, TANAP kimi neft-qaz boru xətləri layihələri nəinki ölkələrimizi birləşdirdi, eyni zamanda, Avrasiyanın enerji xəritəsini dəyişdirdi. Bu gün Azərbaycandan Türkiyə ərazisindən gedən qaz bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Keçən il Azərbaycanın qaz ixracatı 25 milyard kubmetrə çatmışdır. Onun, təxminən, yarısı Türkiyəyə olan ixracatdır və Türkiyədən başqa da 11 ölkə, onlardan 10 Avropa ölkəsi Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini gücləndirir".

TANAP layihəsi uzun müzakirələr, bu sahədə imzalanmış hüquqi-normativ sənədlər nəticəsində həyata vəsiqə qazanıb. Xatırladaq ki, 2011-ci il oktyabr ayının 25-də Türkiyənin İzmir şəhərində "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" saziş imzalanıb.

Həmin il dekabrın 26-da "Türkiyə ərazisində magistral qaz kəmərinin tikintisi üzrə konsorsiumun yaradılması haqqında" Azərbaycan və Türkiyə hökumətləri arasında Anlaşma Memorandumuna imza atılıb. Növbəti ildə isə qaz kəmərinin tikintisi üzrə daha ciddi addımlar atılıb. Belə ki, 2012-ci il iyunun 26-da "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) sisteminə dair" Saziş imzalanıb. Noyabrın 20-də isə Azərbaycan Respublikası Milli Məclisinin iclasında hər iki saziş müzakirəyə çıxarılaraq təsdiqlənib.

Dövlətimizin başçısı İlham Əliyevin "Azərbaycan və Türkiyə hökumətləri arasında təbii qazın Türkiyəyə satışı və Azərbaycandan gələn təbii qazın Türkiyə ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" sazişin təsdiq edilməsi haqqında" Qanunu imzalaması ilə Azərbaycanı Avropa ölkələrinin qaz bazarlarına birləşdirən Trans-Anadolu ixrac boru kəmərinə dair hüquqi bazanın formalaşdırılması başa çatdırılıb.

Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından çıxarılan təbii qazı ölkənin hüdudlarından kənara nəql edən Trans-Anadolu Qaz Boru Kəməri ilə bağlı tikinti işlərinə isə 10 il əvvəl start verilib. Məlum olduğu kimi, TANAP-ın təməli 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda qoyulub. Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən TANAP layihəsi üzrə tikinti işlərinə, təqribən, beş il vaxt sərf olunub.

Azərbaycanı Avropa üçün əhəmiyyətli qaz ixracatçısına çevirən bu layihə üzrə tikinti işlərinə isə 7 milyard ABŞ dollarına yaxın vəsait xərclənib. Dörd mərhələdə həyata keçirilən layihənin ilk mərhələsi 2018-ci ildə başa çatdırılıb. Həmin il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində boru kəmərinin birinci hissəsinin açılışına həsr olunmuş təntənəli mərasim keçirilib. Ayın 30-da isə Türkiyəyə ilk qaz həcmlərinin nəqlinə başlanıb.

TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası isə 2019-cu il noyabrın 30-da istifadəyə verilib. Həmin gün Türkiyənin Yunanıstanla sərhədində yerləşən İpsala bölgəsində tənətənəli açılış mərasimi keçirilib. Bununla da, Azərbaycan–Türkiyə iqtisadi əməkdaşlığının tarixində yeni səhifə açılıb. TANAP Azərbaycanın Türkiyə, Gürcüstan və bir sıra Avropa ölkələri ilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə, dünyada qaz ixracı marşrutlarının şaxələndirilməsinə, qaz bazarlarına daha çox "maye yanacağ"ın çıxarılmasına və üçüncü minillikdə dünyada enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdədir.

TANAP kəməri Türkiyənin şərqindən qərbinə qədər 1793 kilometr məsafə qət edir. Bunun da 1339 kilometri Gürcüstan–Türkiyə sərhədindən Əskişəhərədək, 454 kilometri isə Türkiyə–Yunanıstan sərhədinədək olan hissəni əhatə edir. Türkiyənin 20 vilayətindən keçən boru kəmərinin diametri quruda 56 və 48, dənizdə isə 36 düymdür. Maksimum hündürlüyü dəniz səviyyəsindən 2700 metr olan TANAP-dan Türkiyənin qazpaylama sisteminə iki qol ayrılıb. İllik maksimum ötürücülük qabiliyyəti 30,7 milyard kubmetrə hesablanmış kəmər ilkin mərhələdə ildə 16,2 milyard kubmetr qaz nəql etmək imkanına malikdir. Kəmər boyunca 12 təmizləyici tərtibatın buraxılma kamerası, eyni sayda təmizləyici tərtibatın qəbulu kamerası, 49 bağlayıcı armatur stansiyası, eləcə də 4 qaz sərfini ölçmə stansiyası quraşdırılıb.

Məlum olduğu kimi, TANAP Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində hasil edilən qazı Gürcüstan – Türkiyə sərhədindən Türkiyənin qərb sərhədinə qədər nəql edir. Boru kəmərinin ilkin ötürmə gücü ildə 16 milyard kubmetr qaz təşkil edir. Gələcəkdə isə bu həcmin 31 milyard kubmetrə qədər artırılması mümkündür. TANAP-la nəql edilən qazın, təqribən, 6 milyard kubmetri Türkiyəyə satılır, qalan hissə isə Avropaya göndərilir.

Bütövlükdə isə hazırda TANAP kəməri ilə ötürülən "mavi yanacaq" Avropanın 10 ölkəsinə – Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiyaya ixrac olunur. Cənub Qaz Dəhlizinin ən uzun hissəsi olan TANAP-la qazın kommersiya məqsədli nəqlinə başlanmasından bəri 75 milyard kubmetrdən artıq "mavi yanacaq" daşınıb. Bu barədə boru kəmərinin operatoru açıqlama yayıb. 2025-ci ilin ilk 2 ayında isə bu kəmərlə Türkiyəyə 0,9 milyard kubmetr qaz nəql olunub.

Bununla yanaşı, hesabat dövründə Avropaya ixrac edilən 1,9 milyard kubmetr Azərbaycan qazı da Trans-Adriatik Boru kəmərinə məhz TANAP vasitəsilə ötürülüb. Cari ilin yanvar–fevral aylarında, ümumilikdə, Azərbaycandan xaricə 4,2 milyard kubmetr təbii qaz ixrac edilib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, ölkəmiz hesabat dövründə təbii qaz ixracından 1,55 milyard dollar gəlir əldə edib. Qaz ixracı ötən ilin eyni dövrü ilə müqayisədə həcm ifadəsi ilə 234 milyon kubmetr və ya 5,9 faiz, dəyər ifadəsi ilə isə 91 milyon dollar, yaxud da 6,2 faiz artıb.

Qeyd etdiyimiz kimi, uzunluğuna və diametrinə görə Yaxın Şərqdə inşa edilmiş ən böyük magistral qaz ixracı infrastrukturu olan TANAP Gürcüstan – Türkiyə sərhədindən başlayaraq Cənubi Qafqaz Boru Kəməri sisteminə inteqrə edilərək Türkiyə ərazisindən keçməklə bu ölkənin Yunanıstan sərhədində başa çatır. Buradan isə təbii qazın Avropaya çatdırılması üçün TAP boru kəmərinə birləşdirilir. Yeri gəlmişkən, Trans-Adriatik Qaz Boru Kəmərinin operatoru olan TAP AG konsorsiumunun məlumatına görə, istismarına başlanıldığı 2020-ci il dekabrın 31-dən indiyədək kəmərlə, ümumilikdə, 44,40 milyard kubmetr həcmində qaz nəql olunub. Bunun da 4,2 milyard kubmetri Yunanıstana, 2,74 milyard kubmetri Bolqarıstana və 37,05 milyard kubmetri isə İtaliyaya daşınıb.

Bir məqamı da diqqətə çatdıraq ki, TAP mövcud və potensial interkonnektorlar vasitəsilə Cənub-Şərqi Avropa ölkələrinin qazla təchizatında mühüm rol oynayır. Boru kəməri 2022-ci ilin oktyabr ayından istismara verilmiş Yunanıstan – Bolqarıstan interkonnektoruna (birləşdirici kəmər) da bağlıdır və onun vasitəsilə Xəzər qazı Bolqarıstana tədarük olunur. TAP-ın Yunanıstan və Albaniyaya, eləcə də İtaliyanın cənub sahillərinə çıxışı Azərbaycan qazının Avropa bazarlarına daha böyük həcmdə nəqlinə əlavə imkanlar yaradır.

Bütövlükdə isə Cənub Qaz Dəhlizinin reallaşması müstəqil Azərbaycanın qarşısına qoyduğu bir uğur hədəfi idi. Bu hədəf insanlarda gələcəyə inam yaratdı. Müqavilənin reallaşması müxtəlif millətlərdən və ölkələrdən olan insanları bir araya gətirdi. Onlar terminallar tikdilər, boru kəməri çəkdilər, platformalar inşa etdilər, Xəzərin dərin qatlarındakı təbii ehtiyatları çıxarmaq üçün müasir texnologiyalar gətirdilər, təbii qaz çıxardılar. Nəhayət, Xəzər kimi qapalı bir hövzəni dünyanın böyük bazarları ilə birləşdirə bildilər. Bu təkcə enerjinin zəfəri deyildi, ölkənin qarşıdakı böyük uğurlarının başlanğıcı və ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu Azərbaycanın neft-qaz strategiyasının təntənəsi idi.

Xəzərin sahilindən Avropanın dərinlərinədək uzanan nəhəng enerji dəhlizi Azərbaycanı əvvəlcə regionda xüsusi seçilən bir ölkəyə çevirdi, daha sonra isə uzaq dövlətlərlə münasibətlərin formalaşdırılmasına yol açdı. Cənubi Qafqaz Boru Kəmərindən başlayan yol sonradan "Cənub Qaz Dəhlizi" kimi nəhəng bir magistrala çevrildi. Sözügedən layihə, həmçinin Trans-Xəzər qaz kəmərinin gerçəkləşməsi üçün də yeni imkanlar yaradır. Belə ki, gələcəkdə Qazaxıstan və Türkmənistanın bu layihəyə qoşulması ilə Azərbaycan, həm də qaz nəqlində tranzit ölkəyə çevrilmək imkanı əldə edəcək.

# Abşeron dairəvi dəmir yolunda xidmət yüksəldilir

## *Sərnişinlər Bakıdan Sumqayıtadək ünvanlara daha tez gedəcəklər*

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (ADY) sərnişin sıxlığının qismən tənzimlənməsi məqsədilə 2025-ci il aprelin 1-dən Abşeron dairəvi dəmiryol marşrutu üzrə qatarların qrafikini optimallaşdırır. Sözügedən marşrut üzrə həftənin iş, şənbə və bazar günləri, ümumilikdə, 61 reys əlavə olunur. Bu barədə XQ-yə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən məlumat verilib.**




Bildirilib ki, şəhərətrafı istiqamət olan Bakı–Xırdalan–Sumqayıt–Bakı marşrutu üzrə ilk dəfə olaraq birmərtəbəli FLIRT qatarı istifadəyə veriləcək. Bununla əlaqədar olaraq Biləcəri stansiyasında 1 yeni turniket zalı və 1 yeni 550 mmlik platforma sərnişinlərin istifadəsinə verilib. Xırdalan stansiyasında isə istifadədə olan turniket zalı genişləndirilib və mövcud platforma 550 mm-lik ölçüyə uyğunlaşdırılıb.

Qurumdan verilən məlumata görə, yeni hərəkət cədvəlinə əsasən, Bakı–Pirşağı–Sumqayıt və Bakı–Xırdalan–Sumqayıt marşrutları üzrə reyslərin sayı artırılır, xüsusən də günorta saatlarında qatarlararası interval azaldılır. Həmçinin sürət qatarlarının iş günləri, şənbə və bazar günləri üçün ayrı-ayrılıqda üç hərəkət cədvəli tərtib edilib. Belə ki, iş günlərində Bakı–Xırdalan–Sumqayıt–Bakı marşrutu üzrə reyslərin sayı 24-dən 36-ya, Bakı–Pirşağı–Sumqayıt –Bakı marşrutu üzrə 42-dən 56-ya çatdırılacaq.

Bununla yanaşı, sərnişinlərin çoxsaylı müraciətləri nəzərə alınaraq Bakı–Xırdalan–Sumqayıt istiqamətində saat 20:20 reysi əlavə olunur (əvvəlki qrafiklə sonuncu qatarın vaxtı 19:35-də idi). Bu isə işdən evə qayıdan sərnişinlər üçün daha çox seçim imkanı yaradır, sərnişin sıxlığının azaldılması, səyahət müddətinin qısaldılması və hərəkət intensivliyinin tənzimlənməsini mümkün edir.

Eyni zamanda, Bakı–Xırdalan–Sumqayıt istiqamətində səhər reysləri də optimallaşdırılıb. Belə ki, indiyədək saat 07:20-dən Sumqayıtdan çıxan qatar Bakıya saat 08:01-də çatırdısa, yeni qrafiklə saat 06:15-də yola düşən qatar saat 06:56-da paytaxtda olacaq. Bundan əlavə, Xırdalandan Bakıya birbaşa hərəkət edəcək yeni FLİRT qatarı Bakıya saat 07:15-də çatacaq. Bu da iş vaxtı saat 8-də başlayanlar üçün əlavə imkanlar yaradacaq. Bu istiqamətdə səhər saatlarında hərəkət edən ekspres tipli qatara Biləcəri və Xırdalan stansiyalarında dayanacaq veriləcək. Şənbə günlərində Bakı–Xırdalan–Sumqayıt–Bakı marşrutu üzrə reyslərin sayı 10-dan 16-ya, Bakı–Pirşağı–Sumqayıt–Bakı xətti üzrə reyslərin sayı isə 20-dən 36-ya çatdırılacaq.

Optimallaşdırma çərçivəsində həftənin bazar günləri üçün də xüsusi qrafik tərtib olunub. Belə ki, yeni cədvələ əsasən, bazar günləri Bakı–Xırdalan–Sumqayıt–Bakı marşrutu üzrə reyslərin sayı 10-dan 15-ə, Bakı–Pirşağı–Sumqayıt–Bakı xətti üzrə reyslərin sayı isə 20-dən 28-ə çatdırılacaq.

Yeri gəlmişkən, sərnişin daşımalarında etibarlı daşıyıcı olan ADY davamlı olaraq dəmiryol infrastrukturunu sağlamlaşdırır və hərəkətin təhlükəsizliyinə ciddi önəm verir. Yeni reyslərin optimallaşdırılması xüsusilə pik saatlarda sərnişinlərin rahat və vaxtında mənzil başına çatmasını təmin etmək məqsədi daşıyır.

Qeyd edək ki, qurum Abşeron dairəvi dəmiryol xəttində infrastrukturun sağlamlaşdırılması və hərəkətin təhlükəsizliyinin davamlı təmin edilməsi məqsədilə ötən ilin aprel ayından Sumqayıt–Pirşağı sahəsində təmir işləri həyata keçirir. Xidmət sahələrində davamlı olaraq aparılan yenidənqurma və təmir işləri sərnişinlərin mənzil başına təhlükəsiz və rahat çatdırılmasına xidmət edir. Həyata keçirilən bütün bu dəyişikliklər Abşeron dairəvi dəmiryol marşrutunda günlük sərnişindaşıma sayını hazırkı 37-38 min nəfərdən 48-50 min nəfərə qədər artırmağa imkana verəcək.

# Media və istehlakçı hüquqları



**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən kütləvi informasiya vasitələrinin nümayəndələri üçün "İstehlakçı hüquqları" mövzusunda maarifləndirici təlim keçirilib. 15 Mart Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Gününə həsr edilmiş təlimə 30-a yaxın media nümayəndəsi qatılıb.**

Təlim zamanı agentliyin ictimaiyyətlə əlaqələr və maarifləndirmə sektorunun müdiri Gülnar Hüseyn təqdimatla çıxış edərək istehlakçılar üçün bələdçi rolunu oynayan, onların öz hüquqları barəsində məlumatlılığının artırılmasına xidmət edən sosial layihə – "İstehlakchi.az" platforması haqqında məlumat verib. Qeyd edilib ki, platformanın yaradılmasında əsas məqsəd istehlakçıları və sahibkarlıq subyektlərini istehlakçıların qanunvericiliklə təminat verilmiş hüquqları barədə maarifləndirmək, bununla da istehlakçı hüquqlarının pozulmasının qarşısını almaqdır.

Maarifləndirici tədbir çərçivəsində qurumun şöbə müdirləri Elşən Cəfərov və Yusif Tapdıqlı "Malların dəyişdirilməsi və qaytarılması", "Elektron ticarət", "Qiymət intizamı" və "İstehlakçıların malın ölçüsünə, çəkisinə və hesabına dair aldadılması" mövzularında təqdimatlarla çıxış ediblər.

Təqdimat zamanı lazımi keyfiyyətli qeyri-qida malı dəyişdirilərkən istehlakçıların sahib olduqları hüquqlar, qüsurlu mal əldə etdikdə atılmalı addımlar, elektron ticarət zamanı istehlakçıların diqqət etməli olduğu əsas məqamlar, eləcə də istehlak bazarına nəzarət sahəsində fəaliyyətin təşkili mövzularına toxunulub. Qeyd edilən istiqamətlərdə Agentlik tərəfindən görülən işlər diqqətə çatdırılıb.

Sonda mövzularla bağlı KİV nümayəndələrini maraqlandıran suallar cavablandırılıb, təlim iştirakçılarına sertifikatlar təqdim edilib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Ölümsaçan yağlar süfrələrimizə necə ayaq açır?

## *İşbazların bu cinayəti ölkəmizdə ani ölümlərin artmasına səbəb olub*

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) bu günlərdə yaydığı məlumatda bildirilir ki, qurumun həyata keçirdiyi nəzarət tədbirləri çərçivəsində fiziki şəxs Elman Sahib oğlu İmanverdiyevin istehsal etdiyi kərə yağından götürülən nümunələrin sınaq nəticələrinə əsasən, satılan bu məhsullarda bitki sterini – "Kampesterin" (bitki yağı) ilə yanaşı, yağ turşuları üzrə də uyğunsuzluq (Linolen, Palmitin, Olein yağ turşuları) aşkar olunub. Bundan sonra məhsul partiyalarının dövriyyədən çıxarılması və ticarət şəbəkələrindən yığışdırılması ilə bağlı məhdudlaşdırıcı qərar qəbul edilib. Sahibkar barəsində inzibati tədbir görülüb, aşkarlanan nöqsanların aradan qaldırılması ilə bağlı isə icrası məcburi göstərişlər verilib.**




Qeyd edək ki, aşkar olunan uyğunsuzluqlar qida məhsulunun təhlükəsizlik göstəriciləri ilə bağlı olmasa da, bu, istehsalçının qanunvericiliyə zidd şəkildə istehlakçıları aldatması və hüquqlarını pozması hesab olunur. Belə ki, kərə yağı məhsullarının üzərində təbii inək südündən alınan, pasterizə edilən qaymaqdan istifadə bəyan edilsə də, yoxlama zamanı məhsulun faktiki tərkibinə bitki yağının qatılması halı aşkarlanıb. Uyğunsuzluğun "Natural", "Tac" və "Selskoe" əmtəə nişanlı duzsuz kərə yağları partiyalarında olması bildirilib. Yeri gəlmişkən, yağ turşuları üzrə uyğunsuzluq AQTA əməkdaşları tərəfindən bir müddət bundan əvvəl həyata keçirilən monitorinqlər zamanı "Azza-Aqro" QSC-nin istehsalı olan "Fermazza" əmtəə nişanlı kərə yağından götürülən nümunədə də üzə çıxarılıb.

Bəs ekspertlər bu barədə nə deyirlər? Onlar yağ alınarkən nələrə diqqət yetirilməsini məsləhət bilirlər? Əlbəttə, bu suallara mediada vaxtaşırı cavablar eşidilir, münasibətlər bildirilir. Həmin məqamlar – keyfiyyətli və keyfiyyətsiz yağları bir-birindən ayırmağın yolları isə belə müəyyənləşdirilir:

**– ilk növbədə, məhsulun xarici görünüşünün onun keyfiyyət göstəricilərinə cavab verməsi ilə bağlı məsələyə xüsusi diqqət yetirilməlidir. Başqa sözlə, unudulmamalıdır ki, gözəgəlimli qablaşdırma heç də hər zaman məhsulun keyfiyyəti prinsipinə əsaslanmır, bu, bir çox hallarda aldadıcı olur;**

**– yağ alarkən, süd və yağın mövcud qiymətlərinə diqqət yetirmək, qiymətin ucuz olmasına şübhəli hal kimi yanaşmaq zəruridir. Yeri gəlmişkən, mütəxəssislərin fikrincə, yağ mövsümə görə, təxminən, 20-25 litr süddən əldə olunur;**

**– ticarət müəssisəsində yağın markası diqqətlə nəzərdən keçirilməli, eyni zamanda, istehsal müəssisəsinin mövcudluğu barədə aydın təsəvvür olmalıdır, onların tanınmışlar sırasında yerləşməsinə daha çox önəm verilməlidir. Başqa sözlə, məhsulun üzərində etiket məlumatlarının, istehsalçı müəssisənin adının, ünvanının, tərkibində, həqiqətən, süddən istifadə olunması ilə bağlı məlumatın yerləşdirilməsinə diqqət yetirilməlidir;**

**– yağ alarkən onun rənginə baxılmalıdır. Məhsul kəskin sarıdırsa, deməli, tərkibində boyalardan istifadə olunub, açıq sarıdırsa, o zaman bu rəng heyvanların yaz-yay mövsümündə təzə otla qidalanması ilə bağlıdır. Əgər kəskin şəkildə sarıdırsa, deməli, tərkibində boyalardan istifadə olunub.**

Mütəxəssislərin fikrincə, yağın keyfiyyətini ev şəraitində də öyrənmək mümkündür. Belə ki, yağ isti suda tez əriyirsə, deməli, məhsul keyfiyyətlidir. Ancaq belə bir proses zamanı hissələrə bölünərək topa şəklində qalıb gec əriyirsə, bu, onun keyfiyyətsizliyindən xəbər verir. Eyni zamanda, keyfiyyətli kərə yağı insanın bədən temperaturunda da dərhal əriyir, ağızda xoşa gələn dad yaranır. Trans yağlar isə gec əriməklə bərabər, ağızda acılığa səbəb olur. Ekspertlər, həmçinin deyirlər ki, kərə yağı tavada isidilərkən köpüklənirsə və ağ rəngə çalırsa, bu da məhsulun keyfiyyət göstəricisi sayılır. Bundan başqa, keyfiyyətli yağ otaq temperaturunda formasını saxlayır və yumşalır. Keyfiyyətsiz məhsullar isə əriməyə başlayanda ətrafa su şəklində yayılır.

Yeri gəlmişkən, biz yuxarıda ekspertlərin fikirlərinə əsaslanaraq, kərə yağı alarkən süd və yağın mövcud qiymətlərinə diqqət yetirməyin zəruriliyinə də toxunduq. Çünki məhsulun qiymətinin ucuz olması onun keyfiyyətsizliyinə şübhə ilə yanaşmağa əsas verir. Sosioloq Elçin Bayramlının sözlərinə görə, ilin əvvəlindən bazarlarda 11-12 manatdan başlayan qiymətə kərə yağı satılır. Amma real istehsalçılar iddia edirlər ki, kərə yağı 20 manatdan ucuz başa gələ bilməz. Bu, praktik baxımdan da mümkün deyil. Belə bir halda yerli istehsalçılar üzərinə rus dilində sözlər yazmaqla zirzəmidə hazırlanan məhsulu kərə yağı adı ilə 11-12 manata satırlar. Başqa sözlə, onlar palma yağı və marqarindən istifadə etməklə, kərə yağına dadvericilər vurmaqla "kərə yağı" hazırlayıb ticarət müəssisələrinə göndərirlər.

Sosioloq daha sonra deyir: "İşbazlar gizli sexlərdə hazırladıqları naməlum mənşəli yağların üzərinə Rusiya, Belarus markalarının adlarını yazıb, Kremlin, Minskin şəkillərini yapışdırıb şəhərin diqqət çəkməyən ərazilərində yerləşən ticarət obyektlərinə yerləşdirirlər. Bu mağazalarda isə satılsın deyə ucuz qiymətə – 14-15 manata Belarus və ya Rusiya kərə yağı adı ilə satılır. Halbuki Belarus yağının kiloqramı Bakıdakı öz rəsmi dükanlarında 25 manatdır.

Ekspertlər bildirirlər ki, belə təhlükəli yağlar əsasən aralıq marketlərdə, bazarlarda satılır. Ən pisləri "kənd yağı" adı altında satılan məhsullardır. Bunlar daha çox marqarin qarışığı olanlardır və ucuz olduğuna görə də vətəndaşlar onlara üstünlük verirlər. Lakin həmin məhsullar böyük supermarketlərə, necə deyərlər, yol tapa bilmirlər. Ədalət naminə AQTA da bu məsələdə istehlakçı mənafeyini müdafiə edir. Ümumiyyətlə, adıçəkilən agentlik belə narahatedici məqamları diqqətdə saxlayır, saxta, keyfiyyətsiz kərə yağlarının ticarət müəssisələrindən yığışdırılmasına ciddi səy göstərir və görülən işlər, həyata keçirilən tədbirlər barədə mediada vaxtaşırı məlumatlar yayır.

Yeri gəlmişkən, bazarda yerli istehsalçılar və fərdi satıcılar tərəfindən təklif olunan təbii nehrə yağları da mövcuddur. Onların qiymətləri keyfiyyətə və satıcıya görə dəyişə bilər. Amma mütəxəssislərə görə nehrə yağı adı altında satılan bu yağlar da əsil deyil, işbazlar buna da əl ataraq, insanları aldadırlar.

İqtisadçı ekspert Xalid Kərimli mediaya kərə yağının bahalaşmasını Avropada heyvandarlıqda məhsuldarlığın azalması və dünya bazarında süd məhsullarının qiymətinin artması ilə əlaqələndirir. Onun sözlərinə görə, respublikada bir çox istehsalçılar xammalı xaricdən idxal etdikləri üçün qlobal qiymət dəyişiklikləri yerli bazara da təsir edir. Bundan əlavə, ölkədə südlük istiqamətli heyvanların sayının tələbatı tam ödəməməsi və iqlim dəyişiklikləri kimi amillər də qiymət artımına səbəb olan digər amillərdir.

Ekspertə görə, keçən il uzun müddət dünyada yağ və ağartı məhsullarının qiymətlərində bahalaşma müşahidə edilib. Yağ məhsulları ölkəmizə əsasən 3 istiqamətdən idxal olunur. Birinci istiqamət Okeaniya bölgəsidir – Yeni Zelandiya və Avstraliyadan gətirilir. Orada heyvandarlıq yaxşı inkişaf edib. İkinci istiqamət isə MDB məkanıdır – Rusiya və Belarus. Üçüncü istiqamət isə Qərbi Avropa ölkələridir –Fransa, Niderlanddır. Yəni hər 3 istiqamətdə dünyada yağ qiymətlərinin bahalaşması müşahidə olundu və təbii ki, bu, bizim bazarlara da təsir göstərdi. Dünyada qiymətlər niyə bahalaşdı? Çünki tələbat çox idi. Hazırda isə sabitləşmə var. Amma bu bahalaşma uzun müddət, noyabrdan etibarən bir ildən çox davam etdi və qlobal səviyyədə təsirini göstərdi. Buna görə də bizim bazara da təsir etdi.

Ekspertə görə, 2024-cü ilin sentyabr ayında idxal olunan kərə yağının 1 kiloqramının orta gömrük dəyəri 5,6 dollar (təxminən, 9,5 manat) olsa da, pərakəndə satış şəbəkələrində bu məhsulun qiyməti 20,9 manata qədər yüksəlib. Bu, idxal qiymətləri ilə satış qiymətləri arasında əhəmiyyətli fərqin olduğunu göstərir.

Noyabr ayında isə kərə yağının qiymətində əlavə artım qeydə alınıb. Belə ki, oktyabrın sonlarında bir kiloqramı 21,99 manata satılan "Belarus" kərə yağı, dekabr ayında 23,95 manata qədər bahalaşıb. Bu, bir ay ərzində, təxminən, 10 faiz qiymət artımı deməkdir. Ümumiyyətlə, kərə yağı qiymətlərinin artması həm qlobal bazarlardakı dəyişikliklər, həm də yerli istehsal və idxal xərclərinin yüksəlməsi ilə əlaqədardır.

***"XQ"nin analitik qrupu***

### Ekspert rəyi

**Leyla ZÜLFÜQARLI,**
**həkim-dietoloq**



Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin daxili bazarda satılan saxta kərə yağı ilə bağlı bu yaxınlarda yaydığı açıqlama ciddi narahatlıq doğurur. Fikrimcə, belə hallar heç də az olmadığından daxili bazarda vaxtaşırı olaraq ciddi araşdırmalar aparılmalı, saxta yağlarla həqiqi, keyfiyyətli yağlar seçilməlidir. Hazırda daxili bazarda kərə yağı adı ilə satılan məhsullardan hansının təmiz, keyfiyyətli olması hamını maraqlandıran, hər kəsi düşündürən ciddi məsələdir. Çünki mən özüm də bir qida mütəxəssisi, dieotoloq olaraq təmiz kərə yağı lazım gəldikdə onu axtarmaq məcburiyyətində qalıram. Almaq istədiyim məhsulun keyfiyyətinə əmin olmaq üçün, ilk növbədə, qablaşdırılmış məhsulun üzərindəki etiketi nəzərdən keçirirəm. Əgər orada yağlılıq 82,5 faiz göstərilibsə, düşünürəm ki, bu yağ təmiz ola bilər. Çünki əsl kərə yağının keyfiyyət göstəricisi məhz bu qədər olmalıdır.

Əsl təmiz kərə yağı keyfiyyətli süddən alınmalıdır. Elə istehlakçılara da tövsiyə edirəm ki, onlar süd məhsullarını aldıqları zaman qiyməti nisbətən ucuzdur, deyə yağlılıq göstəricisi aşağı olanlara çox da güvənməsinlər. Yağlılığı daha çox olan süd məhsullarına üstünlük versinlər. Çünki tərkibində kalorisi çox olan məhsullar təhlükəli deyil. Əsl kərə yağının yağlılıq göstəricisi minimum 82,5 faiz təşkil etməlidir. Bununla belə, axtarışlarım, müşahidələrim nəticəsində ticarət şəbəkələrində 82,5 faizlik kərə yağlarının çox az olması qənaətinə gəlmişəm. Belə yağlara nadir hallarda rast gəlmək mümkündür. Tapılanda belə, onun həqiqiliyinə şübhə yaranır. Bir dəfə rastlaşdığım və adını çəkmək istəmədiyim bir yağ markasının üzərində yağlılıq göstəricisinin 82,5 faiz yazıldığı diqqətimi çəkdi. Yeri gəlmişkən, qida mütəxəssisi kimi yağın nə dərəcədə təmiz, keyfiyyətli olduğunu yoxlaya bilirəm. Həmin yağın tərkibini araşdırdığım zaman aydın oldu ki, etiketin üzərində yazılanlar heç də həqiqəti əks etdirmir. Çünki həmin məhsulun yağlılıq göstərici 80 faizdən belə aşağı idi.

Belə hallara yol vermiş istehsalçılar etiketin üzərində saxta məlumatları yazmaqla birmənalı olaraq istehlakçıları aldadırlar. Buna görə də belə məsələlər ciddi şəkildə laborator yoxlamaların aparılmasını zəruri edir. Süd məhsullarının keyfiyyəti aşağı olmaqla yanaşı, bir çox hallarda istehsal prosesində palma yağı, palmalit turşusundan istifadə olunur. Belə məhsulların tərkibində doymamış yağların və ya doymuş yağların faizi aşağı olur.

Yəni istehsal prosesində insan orqanizmi üçün son dərəcə zərərli olan qatqılardan istifadə edilir. Buna misal olaraq spred tərkibli və yaxud bitki tərkibli zülalı göstərmək olar. Kərə yağının tərkibinə nəzər saldıqda orada palma yağı, bitki tərkibli yağ, bitki zülalı qətiyyən olmamalıdır. Varsa, bu, onu göstərir ki, belə yağların tərkibində qatqılar çoxdur, həmin məhsullar bitki yağlarının qarışığından alınmışdır. Bu, heç bir halda kərə yağı sayıla bilməz. Kərə yağı təmiz süddən alınmış heyvan mənşəli yağdır, yağ turşularının toplanmasından əldə olunur.

İndi əhalini bir məsələ daha çox düşündürür: hansı yağlara güvənmək olar? Bu suala isə birmənalı cavab vermək çətindir. Çünki daxili bazarda yağlar həddindən artıq çoxdur. Həmin məhsulların əksəriyyətinin isə mənşəyi və tərkibi qeyri-müəyyəndir. Biz də bir qida mütəxəssisi olaraq bəzən onlara hansı yağ markasını təklif etməkdə aciz qalırıq. Çünki etiketin üzərindəki məlumatlar çox vaxt həqiqəti əks etdirmir.

Alıcı isə heç bir halda məhsulu alarkən onun tərkibini yoxlamaq iqtidarında deyil. Odur ki, bəzi işbazlar bundan məharətlə istifadə edərək istehlakçıları aldatmağa nail olurlar. Ona görə də qida sektorunda nəzarət tədbirləri müntəzəm olaraq aparılmalı, keyfiyyətsiz mallar, xüsusən də saxta, insan orqanizmi üçün təhlükəli sayılan yağlar ticarət şəbəkələrindən yığışdırılmalıdır. Satışda yalnız keyfiyyətli yağlar saxlanılmalıdır ki, insanlarımız seçim edərkən çətin vəziyyətdə qalmasınlar, evlərinə keyfiyyətli məhsul alıb apara bilsinlər.

Bəs, bu cür yağların ziyanı nədir? Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, yağ keyfiyyətsiz olduqda onu qəbul edərkən orqanizmə çoxlu miqdarda doymuş və doymamış yağ turşuları daxil olur. Trans yağlar və spred yağlar müəyyən biokimyəvi proseslər nəticəsində yarımparçalanmaya məruz qalır. Bu zaman onların tərkibində orqanizm üçün yad maddələr formalaşır. Bunlar da qatqı maddəsi olaraq toksin kimi orqanizmdə qalır.

Son illər ölkəmizdə ürək, qan-damar xəstəlikləri və ürək tutmalarının, bu səbəbdən ani ölümlərin artması müşahidə olunur. Bu zaman şuntlamalar edilir, stend qoyulur. Bunun da əsas səbəbi damarların mənfəzinin daralması və tıxanıqlığın yaranmasıdır. Bütün bunlar keyfiyyətsiz yağların törətdiyi fəsadlardır. Keyfiyyətsiz yağlar təkcə ürək-damar xəstəliklərinə, kardioloji aspektdən ürəyin zədələnməsinə səbəb olmur, eyni zamanda, şəkərli diabetin yaranmasına, piylənmənin yüksək dərəcəyə gəlib çatmasına, təzyiqin yüksək olmasına, eləcə də aşağı ətraflarda hərəkət məhdudiyyətinə gətirib çıxarır. Hərəkət məhdudiyyəti ilə əlaqədar insan oturaq həyata keçir ki, bu da bir sıra xroniki xəstəliklərə yol açır.

O ki qaldı istehsal prosesi zamanı etiketin üzərində həqiqəti əks etdirməyən məlumatların göstərilməsinə, buna isə dələduzluqdan, istehlakçıların aldadılmasından başqa ad vermək mümkün deyil. Düşünürəm ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi bu sahədə nəzarət tədbirlərini daha da gücləndirməlidir. Daxili bazarda digər ərzaq malları kimi yağın da qiymətinin getdikcə artdığı bir şəraitdə istehlakçıları aldadaraq keyfiyyətsiz, insan orqanizmi üçün zərərli məhsulların satılması hallarının qarşısı qətiyyətlə alınmalı, buna yol verənlər ən sərt şəkildə cəzalandırılmalıdır.

### Ekspert rəyi

**Ağa SALAMOV,**
**qida mütəxəssisi**



Kərə yağlarına laboratoriya şəraiti olmadan diaqnoz qoymaq mümkün deyil. Bəzən işbazlar bitki spreylərindən istifadə edirlər. Bu da qatqı hesab olunur. Belə halları Qida Təhlükəsizliyi Agentliyi aşkarlayır. Amma kərə yağının keyfiyyətini müəyyən etmək üçün xüsusi ipucuları da var. Məsələn, otaq temperaturunda olan kərə yağı yumşaq halda olur. Həmçinin kərə yağı əriyəndə tərkibindəki süd üzə çıxır və köpüklənir. Bundan əlavə, onların xüsusi spesifik qoxusu və dadı olur. Bəzən yağ ağızda xoş dad buraxmır. Bu zaman artıq məhsuldan şübhələnməyə dəyər.

Bəzi kərə yağı adı altında satılan qarışıq yağlar var ki, onlar insan orqanizmində ciddi fəsadlara yol açır. Belə saxta məhsullar insanlarda ürək-damar, mədəaltı vəz, qaraciyər xəstəliklərinə səbəb olur.

Nehrə yağı var və onun tərkibi çox faydalı yağ turşuları, vitamin və minerallarla zəngindir. Bəzən deyirlər ki, bu, bitki tərkibli kərə yağıdır. Amma nə bitkisi olduğu bilinmir. Kərə yağı heyvan mənşəli yağdır və süddən əldə olunur. Onun bitki tərkibli olması mümkün deyil. Əgər kərə yağında bitki yağı varsa, onu qatılaşdırmaq üçün istifadə ediblər. Həmin yağlar hidrogen püskürtməklə müəyyən bir istiliyə, məsələn, 250 dərəcəyə çatdırılır. Bunu edirlər ki, bitkinin qoxusunu dəyişsinlər. Nəticədə, qatı bir maddə əldə edilir və ona rəng, dadlandırıcılar vurub kərə yağı adı ilə satırlar.

Bəs kərə yağının təbii, keyfiyyətli olmasını necə müəyyət etmək olar? Bunun üçün məhsulu seçərkən ilkin olaraq onun tərkibindəki inqridientləri nəzərdən keçirmək önəmlidir. Qeyd edək ki, təbii kərə yağının tərkibini göstərən etiketdə marqarində olduğu kimi, müxtəlif bitki yağlarının adları sadalanmır. Əsl kərə yağının tərkibi yalnız tam yağlı süd və qaymaqdan ibarət olur. Əgər paketin üzərində "yağ" sözü yazılıbsa, bu elə özü həmin məhsulun marqarin də ola biləcəyi haqqında düşünmək üçün əsas verir.

İnək südündən hazırlanmış təbii kərə yağını qiymətinə əsasən də müəyyənləşdirmək olar. Əgər məhsulun içini açıb baxmağa imkan varsa (məsələn, yağ çəki ilə satıldıqda), onun rənginə diqqət yetirilməlidir. Belə ki, o, nə kəskin sarı, nə də kəskin ağ olmalıdır. Digər önəmli məqamlardan biri də təbii kərə yağının toxunduqda möhkəm olmasıdır. Onu da unutmayaq ki, paketi açılan yağ nə paketə, nə də ki kəsdikdə bıçağa bulaşmamalıdır.

Yemək hazırlayarkən də yağın saxta olub-olmadığını ayırd etmək olar. Əgər təbiidirsə o, bərabər şəkildə əriyəcək, yox əgər səthində damcılar əmələ gəlirsə, deməli, marqarindir. Bundan əlavə, təbii kərə yağı soyuqdan isti mühitə düşdükdə tezliklə əriməyə başlayan (tərkibindəki bitki yağlarına görə) marqarin kimi yumşaq olmur. Keyfiyyətli qaymaqdan hazırlanan yağ möhkəm və əllə toxunduqda hamar olmalıdır. Kəsildikdə isə təbəqələrə bölünməməli və parlaq görünməlidir. Nəhayət, kərə yağı soyuducudan çıxarılan kimi parçalanmamalıdır.



# Hərbi cinayətlər törətməkdə təqsirləndirilən şəxslərin məhkəməsi davam edir

## *Mnatsakanyandan etiraf: Minalar Ermənistanda istehsal olunub Qarabağa gətirilirdi*

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası martın 17-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmənin baxış iclasında təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Budəfəki məhkəmə prosesində təqsirləndirilən şəxs Levon Mnatsakanyana dövlət ittihamını müdafiə edən prokurorlar, zərərçəkmiş şəxslərin nümayəndələri və müdafiəçiləri tərəfindən suallar verilib.

Təqsirləndirilən şəxs ona cinayətkar birliyin tərkibində funksiya və vəzifələr, Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal edilmiş suveren ərazilərində hakimiyyətin zorla ələ keçirilməsi, o cümlədən Ermənistanın rəhbərliyi və nəzarəti altında fəaliyyət göstərmiş qondarma rejimdə hərbi birləşmələr və "ordu"nun fəaliyyəti, hərbi xidmətkeçmə qaydaları, işğal altındakı ərazilərə silahların daşınması və yerləşdirilməsi, qondarma rejimin "ordusu"nda "rütbələr"in verilməsi, "vəzifələr"ə təyinatların aparılması və "vəzifə"dən çıxarma, "ştat vahidləri"nin təsdiqi, maliyyənin ayrılması, Qarabağdakı hərbi qulluqçulara "əməkhaqqı"nın ödənilməsi, hərbi təlimlərin və toplanışların keçirilməsi, hərbi qulluqçuların məsuliyyət məsələlərinin həlli, həmin proseslərdə Ermənistan dövlətinin, onun dövlət qurumlarının, silahlı qüvvələrinin, yüksəkvəzifəli şəxslərinin rolu və iştirakına dair suallar ünvanlanıb.

Təqsirləndirilən şəxs Levon Mnatsakanyan Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavab verərkən Qarabağda hərbi xidmətə 1992-ci ildə başladığını və həmin il oktyabrın 2-də döyüşlərdə yaralandığını, 1993-cü ildən 2012-ci ilədək qondarma qurumun "ordusu"nda hərbi xidmətini müxtəlif vəzifələrdə davam etdirdiyini, sonra isə Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisinin müavini təyin olunduğunu bildirib. 2015-ci ildə həmin vəzifədə çalışan təqsirləndirilən şəxs vaxtilə işğal edilmiş ərazilərdə mövcud olmuş qondarma rejimin "müdafiə naziri" – "ordu komandanı" "vəzifəsi"nə təyin olunduğunu deyib. Bildirib ki, sonradan Ermənistanın müdafiə naziri təyin olunan Seyran Ohanyan da əvvəlcə qondarma rejimdə müxtəlif "vəzifələr" tutub. "Qarabağdakı "vəzifələr"dən əvvəl isə o, 366-cı alayda tabor komandiri olub", – deyə Levon Mnatsakanyan əlavə edib.

O etiraf edib ki, qondarma rejimin "ordusu"nda yüksək vəzifələrə təyinatlarla bağlı qərarlar Ermənistanda verilib. Polkovnik-leytenant və daha yuxarı rütbələr üzrə vəzifələrin təyinatını Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi, müdafiə naziri və prezidenti edib. "Mən isə "ordu"nun "komandiri" kimi mayor daxil olmaqla, ondan aşağı vəzifələrə təyin edə, mayora qədər rütbə verə bilərdim", – deyə o, bildirib.

Təqsirləndirilən şəxs əlavə edib ki, qondarma rejimin "ordusu"nun maliyyə məsələləri Ermənistanın Müdafiə Nazirliyi, silah-sursat isə tam olaraq Ermənistan silahlı qüvvələri tərəfindən təmin edilirdi. O, daha sonra deyib: "Bizdə təchizat xidməti var idi. Təchizat xidməti qəbul edirdi, sonra hər bölməyə təqdim olunurdu. Yəni, silah-sursat təminatı Ermənistanın Müdafiə Nazirliyi tərəfindən həyata keçirilirdi".

Levon Mnatsakanyan Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında bildirib ki, 2015-ci ilin iyun ayında onu qondarma rejimin "müdafiə naziri" – "ordu"nun "komandanı" vəzifəsinə Ermənistanın ovaxtkı prezidenti Serj Sarkisyan təyin edib.

Təqsirləndirilən şəxs bildirib ki, əvvəlcə Ermənistanın müdafiə naziri Seyran Ohanyan onun bu "vəzifə"yə "təyin olunması" barədə təqdimat verib, S.Sarkisyan isə onu təsdiqləyib.

Mnatsakanyanın sözlərinə görə, S.Sarkisyan təyinatla bağlı onu qəbul edib. "Görüş zamanı mənə dedi ki, bu, çox önəmli vəzifədir", – deyə təqsirləndirilən şəxs əlavə edib.

Xatırladaq ki, 2015-ci ildə qondarma rejimin yaydığı "rəsmi məlumat"a görə, Levon Mnatsakanyanı "müdafiə naziri" "vəzifəsi"nə guya ovaxtkı "prezident" Bako Sahakyan təyin edib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandırarkən təqsirləndirilən şəxs Levon Mnatsakanyan bildirib ki, işğal olunmuş ərazilərdə hərbi xidmət etmiş erməni sakinlər və Ermənistan Respublikasının vətəndaşlarının törətdikləri hərbi cinayətlərin təhqiqatını Ermənistanın Hərbi Polisi, ibtidai istintaqını isə Ermənistanın Hərbi Prokurorluğu aparıb.

O, işğal edilmiş ərazilərdə "Ermənistan Respublikasının Xankəndi hərbi polis bölməsi" adlı qurumun fəaliyyət göstərməsinə isə "Eyni ordunun bölməsi olduğuna görə belə bir qurum var idi" cavabını verib.

Mnatsakanyan daha sonra cinayət işlərinə Ermənistan ərazisində yerləşən Sünik hərbi məhkəməsində baxıldığını deyib.

Dövlət ittihamçısı Fuad Musayevin də suallarını cavablandıran təqsirləndirilən şəxs vurğulayıb ki, hərbi struktur eyni olduğundan hərbi qulluqçular tərəfindən xidmət etdikləri müddət ərzində törətdikləri



hərbi cinayətlər işğal altındakı ərazilərdə erməni sakin, yaxud Ermənistan vətəndaşı olmasından asılı olmayaraq, Ermənistandakı analoji cinayətlər kimi eyni statusla araşdırılıb və qərar verilib.

Levon Mnatsakanyan bildirib ki, hər il Ermənistandan 7-8 min hərbi çağırışçı Azərbaycanın işğal olunmuş ərazilərində müddətli hərbi xidmətə göndərilib.

O, ildə iki dəfə hərbi çağırış olduğunu, hər çağırış zamanı 3500-4000 Ermənistan vətəndaşının işğal edilmiş ərazilərə gətirildiyini deyib.

Onun sözlərinə görə, qondarma rejimin "ordusu"nda xidmət edənlərin təxminən 70 faizi Ermənistan vətəndaşları, digər 30 faizi isə işğal edilmiş ərazilərdə yaşayan erməni sakinlər olub.

Təqsirləndirilən şəxs daha sonra qeyd edib: "Xidmət zamanı onların arasında fərq qoyulmurdu, onlar eyni komandanlığa tabe olurdular və hərbi geyimləri də eyni idi".

O, işğal edilmiş ərazilərdəki və Ermənistandakı Ermənistan hərbçilərin eyni nizamnamə ilə işlədiklərini də bildirib.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandırarkən Levon Mnatsakanyan bir dəfə onlara xaricdən binokl gətirilməsindən də danışıb: "2015-ci il, yaxud ondan əvvəl idi, dəqiq bilmirəm, Ermənistana Amerikadan və ya haradansa binokllar və digər ləvazimatlar gətirmişdilər. Onu da sonradan birbaşa gətirməyi qadağan etdilər. Həmin yardımlar gəlib Ermənistan Müdafiə Nazirliyinin bazasına yığılırdı, ondan sonra paylanırdı".

Levon Mnatsakanyan deyib ki, Azərbaycanın işğal edilmiş ərazilərində "İskəndər M", "Toçka U" və "Smerç" silahları olmayıb.

Bundan başqa, dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavab verən Mnatsakanyan qondarma rejimin "müdafiə naziri" olduğu vaxt, ondan əvvəl və sonra işğal altındakı ərazilərdə bu silahları görmədiyini bildirib.

O, Gəncə, Bərdə və digər ərazilərdə dinc əhalinin raket atəşinə tutulması barədə əmrin kim tərəfindən verilməsi barədə də prokurorların suallarını cavablandırıb və deyib ki, bu cür atəşlərin açılması üçün əmri Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi verə bilərdi. "Baş qərargah rəisi əgər əmr verə bilirsə, əmri verməzdən əvvəl ölkə rəhbərliyində kiminlə razılaşdırmalı idi?" sualına isə L.Mnatsakanyan "Müharibə zamanı baş qərargah rəisi bir nəfərə tabe olur, ölkənin rəhbərinə".

"Ölkənin rəhbəri deyəndə Ermənistanda kim nəzərdə tutulur?" sualına isə təqsirləndirilən şəxs "Ermənistanda Baş nazirdir. Həmin vaxt baş qərargah rəisi Onik Qadparyan, baş nazir isə Nikol Paşinyan idi" cavabını verib.

O, həmin raketlərin hədəfdən yayınma ehtimalının, təxminən, 5–10 metr olduğunu deyib. Prokurorun "Sizcə, 44 günlük müharibə zamanı Gəncə, Bərdə və digər ərazilərdə mülki insanların öldürülməsi raketlərin hədəfdən yayınması nəticəsində olub, yoxsa hədəflər qəsdən seçilib?" sualına isə belə cavab verib: "Bir neçə dəfə olubsa, aydın məsələdir ki, nədir. Bir dəfədirsə, təsadüfdür, bir neçə dəfədirsə, təsadüf deyil... Bilmirəm".

L.Mnatsakanyan deyib ki, qondarma rejimdə "müdafiə naziri" "vəzifəsi"ndə olduğu müddətdə hansısa dəyişiklik, islahat, hadisə barədə rejimin "prezident"inə məruzə etməyib. "Ümumi təmaslar ola bilərdi, başqa heç nə. Mən Ermənistan silahlı qüvvələrinin baş qərargahına məruzə edirdim", – deyə o, bildirib.

Təqsirləndirilən şəxs 2016-cı ildə baş vermiş Aprel döyüşləri zamanı da Ermənistan silahlı qüvvələrinin baş qərargahına məruzə etdiyini, Qarabağdakı qondarma rejimin "rəhbərliyi"nə isə heç bir məlumat vermədiyini bildirib.

L.Mnatsakanyan qeyd edib ki, qondarma rejimdə "ordu"nun inkişaf planını və digər sənədlərini Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi təqdim edir, Ermənistan rəhbəri isə təsdiqləyirdi, qondarma rejimin "prezident"inin bu məsələ ilə bağlı heç bir səlahiyyəti olmayıb.

Təqsirləndirilən şəxs ifadəsində 2020-ci ildə 44 günlük müharibə zamanı Arayik Harutyunyanın tapşırığı ilə Talış kəndi və cənub istiqamətində döyüş bölgəsində artilleriya bölməsində olduğunu da etiraf edib. "Gəlib dedim ki, orada qanunsuzluq hökm sürür, bardakdır", – deyə o, əlavə edib.

O, Qarabağa minaların Ermənistandan gətirildiyini də etiraf edib və bildirib: "Ermənistanda piyadaəleyhinə mina istehsal olunurdu".

Daha sonra Levon Mnatsakanyana aid sənədlər tədqiq olunub. Dövlət ittihamçısı bildirib ki, erməni dilində sənədlərin tədqiqi ilə Levon Mnatsakanyanın məhkəmədə verdiyi ifadə təsdiqlənib.

O, suallara cavabında Ruben Vardanyanı təxminən, 2005–2008-ci illərdən tanıdığını da bildirib.

Məhkəmə prosesi aprelin 3-də davam etdiriləcək. Növbəti prosesdə təqsirləndirilən şəxslərə suallar veriləcək.

***XQ***

# Naxçıvan xəbərləri

## Şəhid övladlarının bayram şənliyi

**Dünən Naxçıvan Muxtar Respublikasında yaşayan şəhid övladları üçün Novruz bayramına həsr olunmuş "Yurdumuza bahar gəlir!" adlı şənlik keçirilib.**



Toplantıda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhid ailələrini Novruz bayramı münasibətilə təbrik edib. O, Novruzun xalqımızın milli dəyərlərini və ənənələrini yaşadan, yeni başlanğıc, birlik və dirçəliş rəmzi olan mühüm bayramlardan biri olduğunu bildirib.

Səlahiyyətli nümayəndə Prezident İlham Əliyevin şəhid ailələrinə hər zaman göstərdiyi yüksək diqqət və qayğıdan danışıb, dövlətimizin Vətən uğrunda canını fəda edən qəhrəmanlarımızın ailələrinə arxa-dayaq olduğunu, onların ehtiyaclarına daim dəstək göstərdiyini qeyd edib.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri, şəhid baş leytenant Amin Gülməmmədovun atası Mayis Gülməmmədov göstərilən diqqət və qayğıya görə razılığını bildirib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan şəhər İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının, APF şirkətlər qrupunun və "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən mərasimdə şəhid övladlarına hədiyyələr təqdim olunub. Şənlik əyləncəli oyunlar və səhnəciklərlə davam edib.

## Nazirlər Kabinetində müşavirə



**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində dövlət orqanlarının (qurumlarının) informasiya resurs bazalarının ölkənin analoji informasiya sistemləri və ehtiyatlarına inteqrasiyasının mövcud vəziyyətinin ilə bağlı videoformatda müşavirə keçirilib.**

Baş nazir Ceyhun Cəlilov bildirib ki, ölkə başçısı İlham Əliyevin 2022-ci ilin sonundan etibarən Naxçıvan Muxtar Respublikasında idarəçiliyin təkmilləşdirilməsi ilə bağlı verdiyi tapşırıqların təməlində dayanan əsas məsələ ölkənin müvafiq mərkəzi icra orqanlarının proseslərə inteqrasiyasıdır. Bu istiqamətdə ötən 2 il ərzində xeyli işlər görülüb. Artıq Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin göstərdiyi xidmətlər üzrə "Asan indeksi"in nəticələri müsbət dinamikada davam edir. Bütün qurumlar göstərdiyi dövlət xidmətlərini və proseslərini elektronlaşdırmalı, avtomatlaşdırmalı, ölkənin müvafiq informasiya resurslarına inteqrasiyasını daha da sürətləndirməlidir. Bir sıra istiqamətlərdə bəzi pilot layihələri muxtar respublikada həyata keçirilib ölkəyə tətbiq etməyə hazırdır.

Müşavirədə Naxçıvan MR daxili işlər naziri Süleyman Nemətov, iqtisadiyyat nazirinin müavini Abbas İsmayılov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Fərid Bağırzadə müzakirə edilən məsələ ilə bağlı çıxış ediblər.

Növbəti dövrdə qeyd olunan istiqamət üzrə işlərin davam etdirilməsinin zəruruiliyi vurğulanıb, Nazirlər Kabinetinin inteqrasiyanın davamlı aparılması üçün zəruri resursları cəlb edəcəyi bildirilib.

## NDU-nun təhsil uğurları

**Naxçıvan Dövlət Universitetində 2024-cü ilin yekunları və 2025-ci il üzrə prioritetləri ilə bağlı brifinq keçirilib.**



Rektor Elbrus İsayev NDU-da elmi fəaliyyətin və tədrisin təşkili, tələbəyönümlü təhsil proqramları, beynəlxalq elm mühitinə inteqrasiya imkanları, ötən dövr ərzində müvafiq dövlət proqramının icrası istiqamətində reallaşdırılmış layihələr və görüləcək işlər, tədris prosesinin elektronlaşması, əsas strateji inkişaf prioritetləri, universtetin beynəlxalq reytinqlərdə mövqeyi və təhsilin digər aktual mövzuları barədə media təmsilçilərinə ətraflı məlumat verib.

Ali məktəb rəhbəri vurğulayıb ki, Naxçıvan Dövlət Universiteti ölkədə yeganə kampuslu universitet olaraq, 10 fakültə, 45 kafedra, Magistratura və doktorantura mərkəzi, Əcnəbi tələbələrlə iş və hazırlıq mərkəzi, 3 kollec (Naxçıvan Musiqi Kolleci, Naxçıvan Texniki Kolleci və Naxçıvan Tibb Kolleci), 1 beynəlxalq məktəb (NDU Beynəlxalq Kembric Məktəbi) və 1 gimnaziyası (İngilis dili Təmayüllü Gimnaziya) olan müasir tipli və çoxprofilli təhsil sisteminə malik ali təhsil müəssisəsidir.

Naxçıvan Dövlət Universitetinin beşillik strateji inkişaf planından bəhs edən rektor 2023-2027-ci illəri əhatə edən əsas strateji inkişaf prioritetləri kimi təhsil, tədqiqat, beynəlmiləlləşmə və resurslar müəyyənləşdirildiyini, ümumilikdə ali təhsil ocağının tədqiqat universitetinə çevrilməyi hədəflədiyini vurğulayıb. Universitetin son 5 illik fəaliyyət dövründə əldə olunan nailiyyətlərdən söz açıb, xüsusilə 2024-cü ildə bütün istiqamətlərdə irəliləyişlər olduğunu, yüksək göstəricilər qeydə alındığını diqqətə çatdırıb.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***



Cahangir Şahın məqbərəsi

# Böyük Moğol İmperatorluğu

## *Sultan Cahangir və xanımı Nur Cahan bəyim*

II

Azərbaycan və dünya tarixində şahların, sultanların anaları, xanımları və qızlarının dövlətin idarə olunmasında hökmdarlara ağıllı, ədalətli və xeyirxah məsləhətlər verməsi faktı kifayət qədərdir.

Ağqoyunlular Dövlətinin hökmdarı Uzun Həsənin anası Sara xatun olduqca ağıllı, tədbirli qadın idi və Ağqoyunlu dövlətinin idarə olunmasında, möhkəmlənməsində, xarici ölkələrlə diplomatik münasibətlər yaradılmasında yaxından iştirak edib. Bu tarixi faktdır ki, Uzun Həsən bütün məsələlərdə anası ilə məsləhətləşib və uğur qazanıb.

1206-cı ildən 1526-cı ilədək Hindistanda hakimiyyətdə olan Dehli Türk Dövlətinin üçüncü hökmdarı Şəmsəddin Eltutmuş qızı şahzadə Raziyə bəyimi müavin təyin etmişdi, özü kənarda olduğu günlərdə bütün məsələlərin həlli ona həvalə olunurdu. Sonralar Şəmsəddin Eltutmuş qızını vəliəhd elan edib, dünyasını dəyişdikdən sonra dövlətin beşinci sultanı olan Raziyə bəyimin adı Dehli Türk Dövlətini idarə edən ən güclü hökmdarların sırasına düşüb.

Böyük Moğol İmperiyasının (Baburilər Dövlətinin) dördüncü imperatoru Sultan Cahangirin xanımı, siyasətçi və şair Mehrinisə bəyim (Sultan Cahangirlə evləndikdən sonra Nur Cahan bəyim) də məhz belə qüdrətli qadınlardan olub.



Nur Cahan, əlində Cahangir Şahın portreti, 1627

Mehrinisə bəyim 1577-ci il mayın 31-də Qəndəharda Səfəvilər Dövlətindən Əfqanıstana gələn aristokrat Mirzə Qiyas bəyin ailəsində dünyaya gəlib. Ailənin dördüncü övladı, ikinci qızına Mehrinisə bəyim adı qoyulur ki, bu da "Qadınlar arasında Günəş" mənasını verir. Mehrinisə bəyimin valideynlərinin hər ikisi məşhur ailələrin nəslindən idi. Əsmət bəyimin ata tərəfdən babası Xoca Məhəmməd Şərif əvvəlcə Xorasan valisi Tatar Sultanın vəziri, sonra isə İsfahanda I Şah Təhmasibin vəziri olub. Ailəsinin rifahını yaxşılaşdırmaq ümidi ilə Mirzə Qiyas bəy Hindistana köçmək qərarına gəlir və bu işdə ona tacir Malik Məsud kömək edir. Mirzə Qiyas bəy Böyük Moğol imperatoru Əkbər şahın sarayında mənsəb sahibi olur, Kabil vilayəti üzrə xəzinədar təyin olunur. İşgüzarlığı sayəsində, o, qısa bir vaxtda yüksək rütbələrə çatır, hətta bacarığına və işgüzarlığına görə imperator tərəfindən İtimad-ud-Daula və ya "Dövlətin sütunu" tituluna layiq görülür.

Mirzə Qiyas bəy qızı Mehrinisə bəyimə yaxşı təhsil verir, o, ərəb və fars dillərini, incəsənəti, ədəbiyyatı öyrənir, musiqi və rəqs sənətindən dərs alır.

1594-cü ildə Mirzə Qiyas bəy on yeddi yaşlı Mehrinisə Bəyimi Səfəvilər Dövlətindən Hindistana gələn dəliqanlı bir türk oğlu Əliqulu Ustaclı ilə evləndirir. Əliqulu Ustaclı təşəbbüskar bir gənc idi, II Şah İsmayılın ölümündən sonra Səfəvilər Dövlətini tərk etməyə məcbur olur, Hindistanda Moğol imperatoru Əkbər şahın xidmətinə qəbul edilir. Sədaqətli xidmətinə görə Əkbər şah Mehrinisə bəyimlə Əliqulu Ustaclının evlənməsinə yardımçı olur. Bir il sonra cütlüyün Lədli bəyim adında qızları dünyaya gəlir. Əkbərin böyük oğlu və varisi Şahzadə Səlimin Mevara qarşı hərbi yürüşündə iştirak edərkən Əliqulu Ustaclı "Şir Əfqan" ləqəbi alır ki, bu da "pələnglərin qatili" deməkdir.

Şahzadə Səlim atası Əkbər şaha qarşı üsyan edəndə Əliqulu Ustaclı Əkbər şahın tərəfini tutur. 1605-ci ildə Əkbər şahın ölümündən sonra Şahzadə Səlim İmperator Cahangir şah adını alır və Böyük Moğol İmperiyasının taxtına çıxır, üsyan zamanı atasını dəstəkləyənlərin hamısı ilə birlikdə Əliqulu Ustaclını da bağışlayır və o, Qərbi Benqaldakı Bardhaman bölgəsinin idarəçisi təyin olunur.1607-ci ilin mayında Şir Əfqan Benqal qubernatoru Qutbuddin Xan Kokinin əmrlərinə tabe olmaqdan imtina edir, sonra mübahisə zəminində onu öldürür, qubernatorun mühafizəçiləri də Şir Əfqanı qətlə yetirir. Bu arada söhbət gəzir ki, Sultan Cahangir Mehrinisə bəyimi sevdiyindən Şir Əfqanın qətlini təşkil edib. Bu söz-söhbətin doğruluğu təsdiqlənməyib.



Cahangir Şah və Nur Cahanın adına kəsilmiş gümüş pul

### Sultan Cahangir Mehrinisə bəyimlə evlənir

Sultan Cahangir Mehrinisə Bəyimi imperator sarayında gördükdən dörd il sonra 1611-ci il mayın 25-də evlənib. Bu zaman Mehrinisə Bəyimin 34 yaşı olub. Mehrinisə Bəyim Sultan Cahangirin iyirminci-sonuncu xanımı olub və onların iki övladı olduğu bildirilir.

Cahangir şah toydan sonra Mehrinisə Bəyimə "Nur Mahal" ("Saray işığı"), beş il sonra isə 1616-cı ildə "Nur Cahan" ("Dünyanın işığı") titulu verib.

Sultan Cahangir Nur Cahanla ailə qurduqdan sonra yeni xanımını mütləq səlahiyyət sahibinə çevirib, Nur Cahana dövlət işlərini etibar edib. Sultan Cahangir tiryək və spirtli içkilərə maraq göstərdiyindən Nur Cahan bütün işlərdə vəzirlərlə məsləhətləşib, uzun illər imperiyanı ədalətlə idarə edib.



Nur Cahanın türbəsi, Şahdərə bağı. Lahor, Pakistan

Nur Cahan dövlət malını mənimsəmək üstündə vəzifədən çıxarılan atası Mirzə Qiyas bəyi yenidən vəzir vəzifəsinə qaytarıb. Nur Cahan imperiyada öz mövqeyini və qüdrətini möhkəmləndirmək üçün ailəsinin bütün üzvlərini məhkəmə və inzibati qurumlarda yüksək vəzifələrə təyin etdirib.

### Nur Cahanın sarayda nüfuzu artır

Bundan əlavə Nur Cahan imperator sarayında nüfuzunu daha da yüksəltmək üçün yeganə qızı Lədli bəyimi Cahangirin oğlu Şahzadə Şəhriyarla evləndirməyə nail olur. Nur Cahan qardaşı qızı Ərcümənd Banu bəyimi (sonralar Mümtaz Mahal, bu haqda növbəti yazıda söhbət açacağıq) Şahzadə Xürrəmə (Cahangirin üçüncü oğlu və gələcək imperator Şah Cahan) ərə verir. Bu iki toy Nur Cahanın saraydakı nüfuzunu daha da möhkəmlədirir.

Şah Cahanın ikinci xanımı Mümtaz Mahal uşaq üstündə dünyasını dəyişdikdən sonra Nur Cahan onun 1616-cı ildə doğulan ikinci oğlu Şahzadə Şah Şücanı övladlığa götürür. Bu, Nur Cahanın sarayda siyasi nüfuzunu daha da artırır.

Hind yazıçısı Vidya Dhar Mahacan öz əsərlərində Nur Cahanı prinsipial, ağıllı və sağlam düşüncə sahibi kimi təqdim edir.

Nur Cahan bəyim fiziki cəhətdən də güclü və cəsarətli xanım kimi tarixə düşüb. O, əri Cahangir şahla tez-tez ova gedir, vəhşi pələngləri ovlayan zaman dəqiqliyi və cəsarəti ilə tanınırdı. Onun bir ov zamanı altı güllə ilə dörd pələngi öldürdüyü bildirilir. Nur Cahan ağıllı siyasətçi, gözəl şeirlər yazan şair, Sultan Cahangirə ağıllı məsləhətlər verən imperatriça kimi də tarixə düşüb.

### Şahzadə Xürrəmin xəyanəti

1622-ci ildə Şahzadə Xürrəm ordu toplayıb atası Cahangir və ögey anası Nur Cahana qarşı yürüş edir. Üsyan Cahangirin qüvvələri tərəfindən yatırılır və şahzadə Xürrəm qeyd-şərtsiz təslim olur. 1626-cı ildə Şahzadə Xürrəmin səhvləri bağışlansa da, Nur Cahan ilə ögey oğlu arasında gərginlik davam edir.

1626-cı ildə İmperator Cahangir Kəşmirə gedərkən üsyançılar onu əsir götürürlər. Nur Cahan döyüş filinə minərək ərini azad etməyə gedir, vəzirlərə və əyanlara da imperatoru xilas etmək üçün düşmənə qarşı hücum etmək əmrini verir. Üsyançıların lideri Məhabət xan Nur Cahanı da əsir götürür. Sonra Cahangirin ordusu güc toplayıb Sultan Cahangiri və Nur Cahanı azad edir.

Sultan Cahangir 1627-ci il oktyabrın 28-də Lahor şəhərinə gedərkən varisinin adını çəkmədən yolda dünyasını dəyişir. Sultan Cahangir Ravi çayı yaxınlığında Şah Dəra adlı yerdə dəfn olunur, sonra məzarın üstündə böyük bir türbə tikilir.

Onsuz da dövləti Nur Cahan idarə edirdi və Sultan Cahangir rəhmətə getdikdən sonra qeyri-rəsmi də olsa hakimiyyət Nur Cahanın əlinə keçir. Nur Cahan cəsarəti və idarəçilik bacarığı nəticəsində dövlətin sərhədlərini qoruyur və saray işlərini məharətlə idarə edir, üsyanları yatırdır. O, sarayda yaranan varislik mübahisələrində də qalib çıxır. Beləliklə, Cahangirin üçüncü oğlu Şahzadə Xürrəmlə (gələcəkdə Şah Cahan) qardaşları və ögey anası Nur Cahan arasında gərginlik pik həddə çatır. Nur Cahanın atası Mirzə Qiyas bəyi dəstəkləməsi, onu yenidən yüksək vəzifəyə təyin etdirməsi Şahzadə Xürrəmin ürəyincə deyildi.

Uzun sürən çəkişmələrdən sonra Şahzadə Xürrəm-Şah Cahan 1628-ci ildə yeni Moğol imperatoru olur.

Şah Cahan hakimiyyətə gəldikdən sonra Nur Cahan həyatının qalan hissəsini qızı Lədli Bəyimlə birlikdə Lahordakı rahat malikanədə qapalı vəziyyətdə yaşayıb. Nur Cahan oğulluğu, İmperator Şah Cahandan ildə 2000 rupi təqaüd alıb. 1622-ci ildə tikintisinə özünün başladığı, atası Mirzə Qiyas bəyin Aqrada dəfn olunduğu İtimad-ud-Daulah türbəsinin tamamlanmasına nəzarət edib. Nur Cahan 1645-ci il dekabrın 17-də 68 yaşında vəfat edib və Lahorda özünün tikdirdiyi Şahdərə Bağ türbəsində dəfn edilib.

### Sultan Cahangir və Nur Cahan sənətdə

Böyük Moğol İmperatoru Cahangirin və xanımı Nur Cahanın həyatı hind yazıçıları və şairlərinin, ssenaristlərinin diqqətini cəlb edib və bu haqda çoxlu bədii əsər və film çəkilib.

*Yazıçı İndu Sundaresan Nur Cahanın həyatına dair üç kitab yazıb: "İyirminci xanım" (2002), "Qızılgül festivalı" (2003) və "Şahzadənin kölgəsi" (2010).

*Nur Cahanın həyatı ilə bağlı Harold Lambın "Nur Mahal" tarixi romanı (1935).

Tanushree Poddarın "Nur Cahanın qızı" (2005) tarixi romanı yazılıb.

*Nur Cahan Ruhir Quptanın "Taxtın xanımı" tarixi romanının əsas qəhrəmanıdır. (2014).

*Nur Cahan Eric Flint və Griffin Barber tərəfindən 1636-cı ildə yazılan "Moğolların missiyası" əsərində əsas personajdır.

Nur Cahanın həyatı haqqında çoxlu şeir yazılıb.

*Kino və televiziya

*1931-ci ildə çəkilən səssiz "Noor Jahan" filmində Nur Cahan obrazını Jillo Bainin canlandırıb.

*Söhrab Modinin "Pukar" (1939) filmində Nur Cahan obrazını Nazim Banu canlandırıb.

Nandlal Jasvantlalın "Anarkali" (1953) filmində imperatriça Nur Cahan obrazını aktrisa Noor Jehan canlandırıb. Fikir verdinizmi, Hindistanda qadınlara Nur Cahan adı da qoyulur.

*M. Sadiqin "Tac Mahal" (1963) filmində Mehrinisə-Nur Cahan obrazını aktrisa Veena canlandırılıb.

*Şeyx Muxtarın layihəsi, M.Sadiqin rejissorluğu ilə çəkilən "Noor Cahan" (1967) filmində Nur Cahan-Mehrinisə obrazını Mina Kumari canlandırıb.

*2005-ci ildə Bollivudda çəkilən "Taj Mahal: an Eternal Love story"" ("Tac Mahal: əbədi sevgi hekayəsi") tarixi filmində imperatriça Nur Cahan obrazını Pooja Batra canlandırıb.

*2000-2001-ci illərdə Hindistanın "Doordarshan" televiziya kanalında yayımlanan "Noor Jahan" serialında Nur Cahan rolunu Qauri Pradhan oynayıb.

*Hindistanın EPIC kanalında yayımlanan "Siyasat" (2015) tarixi filmində Nur Cahan və Cahangirin sevgi hekayəsi təsvir edilir. Sundaretsanın "İyirminci xanım" romanı əsasında çəkilən filmdə Mehrinisə-Nur Cahan obrazını Cənnət Zubair Rəhmani və Çaru Şankar canlandırıblar.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***

**Daşkənd**




Nur Cahan qulluqçuları ilə

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 71** **Bakı şəhəri, 12 mart 2025-ci il**

## "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik və bəzi qərarlarının ləğv edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 197 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 328, № 9, maddə 1090; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 fevral tarixli 19 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə"nin 1.3-cü bəndində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci abzasın dördüncü cümləsi aşağıdakı redaksiyada verilsin və həmin abzasa aşağıdakı məzmunda beşinci və altıncı cümlələr əlavə edilsin:

"Xüsusi hazırlığın təşkili və keçirilməsi Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə həmin Nazirliyin yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təmin edilir. Xüsusi hazırlığın nəticələrinə dair daşıyıcılarla və ya sürücülərlə bağlanılmış müqavilə əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən 7 (yeddi) il müddətində etibarlı olan, forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş sənəd verilir. Qiymətləndirmənin aparılmasına görə haqqın məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.";

1.2. ikinci abzasın ikinci cümləsi aşağıdakı redaksiyada verilsin və həmin abzasa aşağıdakı məzmunda üçüncü və dördüncü cümlələr əlavə edilsin:

"Hazırlıq Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təşkil edilir və həyata keçirilir. Tədrisin nəticələrinə dair operatorla və ya sürücülərlə (məsul şəxslərlə) bağlanılmış müqavilə əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən operatorun məsul şəxsinə və ya sürücüyə 7 (yeddi) il müddətində etibarlı olan, forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş sənəd verilir. Hazırlığın keçirilməsi və qiymətləndirmənin aparılması qaydası, habelə qiymətləndirmənin aparılmasına görə haqqın məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.".

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 145 (Cild I); 2024, № 1, maddə 111, 5 (II kitab), maddə 612; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 yanvar tarixli 16 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"nin 2.1-ci bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Əhalisinin sayı üç yüz min nəfərədək olan yaşayış məntəqələrində bir, əhalisinin sayı üç yüz min nəfərdən çox olan yaşayış məntəqələrində iki və ya daha çox avtovağzal (avtostansiya) təşkil oluna bilər.".

**3** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 270 (Cild I); 2024, № 1, maddə 111) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Bu Qaydanın 1.2-2-ci bəndində qeyd edilən hal istisna olmaqla Azərbaycan Respublikasının ərazisində şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə müntəzəm sərnişin daşımalarının (bundan sonra - müntəzəm sərnişin daşımaları) dövlət sifarişçisi qismində müsabiqə təşkilatçısı Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyidir.";

3.2. 1.2-1-ci bənddə "sürücüsü (sürücüləri)" sözləri "operatorun sürücüləri" sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda 1.2-2-ci bənd əlavə edilsin:

"1.2-2. Şuşa şəhərinin inzibati ərazisində şəhərdaxili müntəzəm sərnişin daşımalarının dövlət sifarişçisi qismində müsabiqə təşkilatçısı Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsidir.";

3.4. 1.8-ci bənddə "müvafiq müqavilə yalnız onun müsabiqə tələblərinə uyğun olduğu təqdirdə" sözləri "müqavilə "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin;

3.5. aşağıdakı məzmunda 1.10-cu və 1.11-ci bəndlər əlavə edilsin:

"1.10. Müsabiqədə iştiraka görə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə ödəniş edilir.

1.11. Müsabiqədə iştirak etmək istəyən şəxslər Qanunun 15.5-ci maddəsində və bu Qaydada qeyd olunan tələblərə cavab verməlidirlər.";

3.6. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.2. Müsabiqədə iştirak etmək üçün mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, istənilən hüquqi şəxs və fərdi sahibkar müraciət edə bilər.";

3.7. 2.3-cü bəndə "ərizə ilə" sözlərindən sonra "(Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 14.3-cü maddəsi ilə müəyyən edilmiş sənədləri əlavə etməklə)" sözləri əlavə edilsin;

3.8. aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. Qanunun 14.5-ci maddəsinə uyğun olaraq Qanunun 14.3-cü maddəsində qeyd olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar müraciət edən şəxsdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edən şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən şəxs tərəfindən təmin edilir.";

3.9. 2.4.5-ci yarımbənddən "üzrə" sözündən sonra "sərnişindaşıma xidmətlərinin göstərilməsinə dair" sözləri çıxarılsın;

3.10. 4.6-cı bəndin dördüncü cümləsində "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin" sözləri "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin, Şuşa şəhəri ərazisində isə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin" sözləri ilə əvəz edilsin;

3.11. həmin Qaydaya 1 nömrəli əlavədə "Sifarişçi" sözündən sonra "(Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti)" sözləri "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Şuşa şəhəri ərazisində isə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" sözləri ilə əvəz edilsin;

3.12. həmin Qaydaya 2 nömrəli əlavəyə "ərizə" sözündən sonra "(Qanunun 14.3-cü maddəsi ilə müəyyən edilmiş sənədləri əlavə etməklə)" sözləri əlavə edilsin;

3.13. həmin Qaydaya 7 nömrəli əlavə üzrə:

3.13.1. adında "Avtomobil nəqliyyatı ilə marşrut üzrə sərnişindaşıma xidmətlərinin göstərilməsi haqqında müqavilə" sözləri "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrut üzrə sərnişin daşınması (sərnişin daşınmasının təşkili) haqqında müqavilə" sözləri ilə əvəz edilsin;

3.13.2. "adlandırılacaq" sözündən sonra "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə müvafiq olaraq Bakı Nəqliyyat Agentliyi, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi və Gəncə Şəhər İcra Hakimiyyəti yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi, Azərbaycan Respublikasının digər ərazilərində isə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin səlahiyyətli qurumu" sözləri "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Şuşa şəhəri ərazisində isə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" sözləri ilə əvəz edilsin;

3.13.3. 2.5-1-ci bənddən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 745 (Cild I); 2024, № 1, maddə 111, № 5 (II kitab), maddə 574) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bəndə "Qanununa" sözündən sonra "(bundan sonra - Qanun)" sözləri əlavə edilsin;

4.2. 1.2.7-1-ci yarımbənddə "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən uçota alınan" sözləri "müvafiq icazəsi olan" sözləri ilə əvəz edilsin;

4.3. 1.2.11-ci, 3.5.5-ci, 3.5.6-cı yarımbəndlər və 2.4-cü, 2.7-ci, 2.14-cü və 2.15-ci bəndlər ləğv edilsin;

4.4. 1.2.22-ci və 1.2.26-cı yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"1.2.22. taksometr – taksi minik avtomobilinin qət etdiyi məsafənin və boşdayanmanın müddətinin uçotunun aparılmasını, gediş haqqının məbləğinin hesablanmasını və bu barədə sərnişinin məlumatlandırılmasını təmin edən, taksi minik avtomobili üçün nəzərdə tutulmuş fiskal yaddaşlı xüsusi ölçü cihazı və ya proqram təminatı;";

"1.2.26. analoq taxoqraf – Qanunun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla avtonəqliyyat vasitəsinin hərəkətinə, o cümlədən qət edilmiş məsafəyə, hərəkətin sürətinə, habelə sürücülərin iş və istirahət dövrlərinə dair bütün məlumatları fasiləsiz olaraq qeydə almaq məqsədilə həmin avtonəqliyyat vasitəsində quraşdırılan elektromexaniki nəzarət cihazı;";

4.5. aşağıdakı məzmunda 1.2.27–1.2.31-ci yarımbəndlər əlavə edilsin:

"1.2.27. rəqəmsal taxoqraf – Qanunun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla avtomatik rejimdə avtonəqliyyat vasitəsinin hərəkətinə, o cümlədən qət edilmiş məsafəyə, hərəkətin sürətinə, habelə sürücülərin iş və istirahət dövrlərinə dair bütün məlumatları fasiləsiz olaraq qeydə almaq məqsədilə həmin avtonəqliyyat vasitəsində quraşdırılan elektron nəzarət cihazı;

1.2.28. formulyar – qeyri-müntəzəm sərnişin daşımalarında sərnişinlər barədə məlumatı əks etdirən Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (bundan sonra - Agentlik) informasiya sistemində elektron qaydada doldurulan sənəd;

1.2.29. bilet-uçot vərəqi – şəhərlərarası (rayonlararası) müntəzəm sərnişin daşımalarında satılmış biletlərin uçotunun aparıldığı Agentliyin informasiya sistemində elektron qaydada doldurulan sənəd;

1.2.30. buraxılış vəsiqəsi – Qanunun 13-cü maddəsinə uyğun olaraq hüquqi şəxslərin və ya fərdi sahibkarların sərnişin daşımaları sahəsində fəaliyyət göstərməsi üçün verilən icazə;

1.2.31. buraxılış kartı – buraxılış vəsiqəsi olan hüquqi şəxslər və ya fərdi sahibkarların mülkiyyət, icarə və ya istifadə hüququ ilə malik olduğu nəqliyyat vasitələrinə verilən, icazənin əlavəsi olan kart.";

4.6. 1.3.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.3.6-cı yarımbənd əlavə edilsin:

"1.3.6. ölkədaxili sifarişli daşımalar – taksi minik avtomobili ilə sərnişin daşımaları istisna olmaqla qeyri-müntəzəm sərnişin daşımaları.";

4.7. 2.2-ci, 2.3-1-ci, 3.3-1-ci, 8.4-cü, 9.1-ci və 14.8-1-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.2. Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatı Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi tələblərə uyğun olmalıdır. Həmin tələblərə cavab verməyən avtonəqliyyat vasitəsinə buraxılış kartının verilməsindən imtina olunur, verilmiş buraxılış kartının isə hüquqi qüvvəsi dayandırılır və ya ləğv edilir.";

"2.3-1. Operatorlar beynəlxalq daşımaları həyata keçirən avtonəqliyyat vasitələrini taxoqrafla təchiz etməlidirlər.";

"3.3-1. Operatorun məsul şəxsləri, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülər Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən peşəkarlıq səriştəsinə dair təsdiq olunmuş proqram üzrə hazırlıq və yenidən hazırlıq keçməlidirlər. Hazırlıq Agentlik, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təşkil edilir və həyata keçirilir. Tədrisin nəticələrinə dair operatorla və ya sürücülərlə (məsul şəxslərlə) bağlanılmış müqavilə əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən operatorun məsul şəxsinə və ya sürücüyə 7 (yeddi) il müddətində etibarlı olan, forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş sənəd verilir. Hazırlığın keçirilməsi və qiymətləndirmənin aparılması qaydası, habelə qiymətləndirmənin aparılmasına görə haqqın məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.";

"8.4. Qeyri-müntəzəm sərnişin daşınması (taksi minik avtomobilləri ilə sərnişin daşınması istisna olmaqla) formulyar vasitəsilə rəsmiləşdirilir. Formulyarın formasını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir. Formulyarı doldurmadan qeyri-müntəzəm sərnişin daşınmasının həyata keçirilməsinə yol verilmir.";

"9.1. Taksi minik avtomobilləri ilə sərnişin daşımaları taksometrin göstəriciləri və ya taksi sifarişi xidmətinə qoşulduqda, taksometr funksiyalarını yerinə yetirən proqram təminatı vasitəsilə müəyyən olunan qiymət üzrə ödəniş əsasında, müvafiq buraxılış vəsiqəsi və buraxılış kartı olan daşıyıcılar tərəfindən yerinə yetirilir. Taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsi olmadan və ya digər şəxslərə məxsus buraxılış vəsiqəsi əsasında taksi minik avtomobilləri ilə sərnişin daşımalarının yerinə yetirilməsi, habelə buraxılış kartı olmayan nəqliyyat vasitələrinin sərnişindaşımada istismar edilməsi, həmçinin taksometrin göstəriciləri və ya taksometr funksiyalarını yerinə yetirən proqram təminatı vasitəsilə müəyyən olunan qiymətdən əlavə ödənişin tələb edilməsi qadağandır.";

"14.8-1. Operatorlar və beynəlxalq sərnişin daşımaları yerinə yetirən sürücülər tərəfindən müvafiq daşımaların taxoqraf olmadan, habelə taxoqrafın yoxlanması haqqında şəhadətnamə və ya müvafiq möhür olmadan, yaxud yoxlanma müddəti bitmiş və ya plomblanması pozulmuş, tamamilə və ya hər hansı funksiyası işləməyən taxoqrafla, taxoqrafın qeydiyyata aldığı məlumatlar saxtalaşdırılmaqla yerinə yetirilməsinə yol verilmir.";

4.8. 3.3-cü bəndin dördüncü cümləsi aşağıdakı redaksiyada verilsin və aşağıdakı məzmunda beşinci və altıncı cümlələr əlavə edilsin:

"Xüsusi hazırlığın təşkili və keçirilməsi Agentlik, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə həmin Nazirliyin yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təmin edilir. Xüsusi hazırlığın nəticələrinə dair daşıyıcılarla və ya sürücülərlə bağlanılmış müqavilə əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən 7 (yeddi) il müddətində etibarlı olan, forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş sənəd verilir. Qiymətləndirmənin aparılmasına görə haqqın məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.";

4.9. 3.4-cü bəndə "yol vərəqəsində" sözlərindən əvvəl "elektron" sözü əlavə edilsin;

4.10. 3.5.2-1-ci yarımbənddən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

4.11. 3.6.4-cü yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 3.6.5-ci yarımbənd ləğv edilsin;

4.12. 4.1-ci, 4.19-cu, 4.21-ci və 6.7-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.1. Avtomobil nəqliyyatı ilə sərnişin daşımaları Qanunun 13-cü maddəsinə uyğun olaraq müvafiq icazəyə malik hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən yerinə yetirilə bilər.";

"4.19. Taksi minik avtomobilləri ilə sərnişin daşımaları buraxılış kartında müəyyən edilmiş ərazi hüdudları daxilində hər hansı şəxsin sifarişi əsasında qeyri-müntəzəm marşrut üzrə yerinə yetirilir.";

"4.21. Beynəlxalq müntəzəm marşrutların Azərbaycan Respublikasının ərazisində yerləşən, şəhərlərarası (rayonlararası) müntəzəm marşrutların isə şəhərlərin (rayon mərkəzlərinin) və ya qəsəbələrin ərazisində yerləşən başlanğıc, aralıq və son təyinat məntəqəsi yalnız avtovağzal (avtostansiya) olmalıdır.";

"6.7. Şəhərlərarası (rayonlararası) müntəzəm sərnişin daşımalarında bilet-uçot vərəqi Agentliyin informasiya sistemi üzərindən elektron qaydada doldurulur.";

4.13. 4.2-ci, 4.22-ci, 6.14-cü, 7.2-ci, 8.5-ci, 8.13-cü və 8.14-cü bəndlər ləğv edilsin;

4.14. 4.6-cı bəndin ikinci cümləsində "daşıyıcı ilə müvafiq müqavilə bağlayır" sözləri "daşıyıcıya müvafiq icazəni verir," sözləri ilə əvəz edilsin, "və" sözü çıxarılsın, "pasportunu" sözündən sonra "və müntəzəm sərnişin daşımalarında istifadə olunması nəzərdə tutulan avtonəqliyyat vasitələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 183 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"ə cavab verdikdə buraxılış kartını" sözləri əlavə edilsin;

4.15. 7.6-cı bəndin ikinci cümləsi çıxarılsın;

4.16. 9.1-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 183 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"ə cavab verməlidir.";

4.17. 9.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"9.4. Taksi minik avtomobilləri gediş haqqının qiymətini müəyyən etməyə imkan verən taksometr və ya taksometr funksiyalarını yerinə yetirən proqram təminatı olan mobil cihaz ilə təchiz edilməlidir. Taksi minik avtomobilinin sifarişçiyə təqdim edilməsinə görə gediş haqqının qiyməti sərnişin daşınmasını yerinə yetirən daşıyıcı və ya taksi sifarişi operatoru tərəfindən elan edilir.";

4.18. 9.10.13-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 9.10.14-cü, 9.10.15-ci yarımbəndlər əlavə edilsin:

"9.10.14. Qanunun 13-cü maddəsinə uyğun olaraq taksi minik avtomobilləri ilə sərnişin daşımalarına icazə verən buraxılış vəsiqəsinə malik olmaq;

9.10.15. buraxılış vəsiqəsinə malik olduqdan sonra mülkiyyət, icarə və ya istifadə hüququ ilə malik olduğu nəqliyyat vasitələrinə verilən, icazənin əlavəsi olan buraxılış kartını əldə etmək.";

4.19. 11.3.2-ci yarımbənddən "yol vərəqəsi," sözləri çıxarılsın;

4.20. 13.2-ci bənd ləğv edilsin;

4.21. 16.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"16.9. İcazə olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşınmasına, eləcə də icazə şərtlərinin pozulmasına görə daşıyıcılar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.".

**5** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 746 (Cild I); 2024, № 1, maddələr 81, 111, 112) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.1-ci bəndə "Qanununa" sözündən sonra "(bundan sonra - Qanun)" sözləri əlavə edilsin;

5.2. 1.8-ci bənddə "Azərbaycan Respublikasının "Avtomobil nəqliyyatı haqqında" Qanununun" sözləri "Qanunun" sözü ilə əvəz edilsin;

5.3. 2.1.3-1-ci yarımbənddə "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən uçota alınan" sözləri "müvafiq icazəsi olan" sözləri ilə əvəz edilsin;

5.4. 2.1.4-cü, 42.1.14-cü yarımbəndlər və 47.17-1-ci bənd ləğv edilsin;

5.5. 2.1.19-cu yarımbənd və 35.2-ci, 35.3-cü, 35.5-ci, 48.3-1-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1.19. analoq taxoqraf – Qanunun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla avtonəqliyyat vasitəsinin hərəkətinə, o cümlədən qət edilmiş məsafəyə, hərəkətin sürətinə, habelə sürücülərin iş və istirahət dövrlərinə dair bütün məlumatları fasiləsiz olaraq qeydə almaq məqsədilə həmin avtonəqliyyat vasitəsində quraşdırılan elektromexaniki nəzarət cihazı;";

"35.2. İcazə sistemi tətbiq edən xarici dövlətlərə yerinə yetirilən beynəlxalq yük daşımaları Qanunun 50-ci maddəsinə uyğun olaraq verilən "İcazə" blankları (jurnalları) əsasında yerinə yetirilir.

35.3. Xarici dövlət qeydiyyat nişanlı avtomobil nəqliyyatı vasitəsi ilə ölkədaxili yük daşımalarının həyata keçirilməsi qadağandır.";

"35.5. Operatorun məsul şəxsləri, habelə beynəlxalq yük daşımalarını həyata keçirən sürücülər Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən peşəkarlıq səriştəsinə dair təsdiq olunmuş proqram üzrə hazırlıq və yenidən hazırlıq keçməlidirlər. Hazırlıq Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təşkil edilir və həyata keçirilir. Tədrisin nəticələrinə dair operatorla və ya sürücülərlə (məsul şəxslərlə) bağlanılmış müqavilə əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən operatorun məsul şəxsinə və ya sürücüyə 7 (yeddi) il müddətində etibarlı olan, forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş sənəd verilir. Hazırlığın keçirilməsi və qiymətləndirmənin aparılması qaydası, habelə qiymətləndirmənin aparılmasına görə haqqın məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.";

"48.3-1. Operatorlar və beynəlxalq yük daşımaları yerinə yetirən sürücülər tərəfindən müvafiq daşımaların taxoqraf olmadan, habelə taxoqrafın yoxlanması haqqında şəhadətnamə və ya müvafiq möhür olmadan, yaxud yoxlanma müddəti bitmiş və ya plomblanması pozulmuş, tamamilə və ya hər hansı funksiyası işləməyən taxoqrafla, taxoqrafın qeydiyyata aldığı məlumatlar saxtalaşdırılmaqla yerinə yetirilməsinə yol verilmir.";

5.6. aşağıdakı məzmunda 2.1.20-ci yarımbənd əlavə edilsin:

"2.1.20. rəqəmsal taxoqraf – Qanunun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla avtomatik rejimdə avtonəqliyyat vasitəsinin hərəkətinə, o cümlədən qət edilmiş məsafəyə, hərəkətin sürətinə, habelə sürücülərin iş və istirahət dövrlərinə dair bütün məlumatları fasiləsiz olaraq qeydə almaq məqsədilə həmin avtonəqliyyat vasitəsində quraşdırılan elektron nəzarət cihazı.";

5.7. 48.3-cü bənddə "həmin icazədən düzgün istifadəyə, onun lazımi vəziyyətdə saxlanılmasına və vaxtında təhvil verilməsinə görə məsuliyyət daşıyırlar" sözləri "həmin "İcazə blankını (jurnalını) düzgün istifadə etməli, lazımi vəziyyətdə saxlamalı və vaxtında təhvil verməlidirlər" sözləri ilə əvəz edilsin.

**6** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 157 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 751 (Cild I); 2024, № 1, maddələr 80, 111) ilə təsdiq edilmiş "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"da aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3-cü, 11-ci və 12-ci hissələr aşağıdakı redaksiyada verilsin:

"3. Hazırlığın təşkili və keçirilməsi bu Proqramın 3 və 4 nömrəli əlavələri olan tədris proqramları əsasında Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin müəyyən etdiyi peşə təhsili müəssisələrində, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təmin edilir.";

"11. Proqrama əsasən hazırlıq üzrə məşğələlərdə iştirak etmiş sürücülərin hazırlıq səviyyəsi hazırlığın yekununda daşıyıcılarla və ya sürücülərlə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra - Mərkəz) arasında bağlanılmış müqavilə əsasında test üsulu ilə qiymətləndirilir.

12. Hazırlıq keçmiş şəxslər barədə aşağıdakı məlumatlar Proqramın 3-cü hissəsində qeyd olunan qurumlar tərəfindən hazırlığın başa çatmasından sonra 2 (iki) iş günü müddətində Mərkəzə təqdim edilir:

12.1. soyadı, adı, atasının adı və şəxsiyyət vəsiqəsinin FİN kodu;

12.2. hazırlıq keçdiyi proqram və hazırlıq materialları;

12.3. sürücülük vəsiqəsinin nömrəsi, etibarlılıq müddəti və kateqoriyası.";

6.2. aşağıdakı məzmunda 12-1–12-14-cü hissələr əlavə edilsin:

"12-1. Proqramın 12-ci hissəsində nəzərdə tutulmuş məlumatlar təqdim edildikdən sonra Mərkəz tərəfindən Proqramın 12-3.4-cü bəndinə uyğun olaraq sənəd qəbuluna dair elan verilir. Qiymətləndirmə təqvim ili ərzində 4 (dörd) dəfədən çox olmamaqla keçirilir.

12-2. Qiymətləndirmədə iştirak etmək üçün hazırlıq keçmiş şəxs sənəd qəbulunun həyata keçirildiyi müddət ərzində Mərkəzin rəsmi internet saytı (bundan sonra - sayt) vasitəsilə onlayn qeydiyyatdan keçir, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə ödəniş edir və ona qeydiyyatdan keçdiyini təsdiq edən elektron bildiriş və qiymətləndirmə qaydaları barədə məlumatların əks olunduğu yaddaş kitabçası göndərilir.

12-3. Qiymətləndirmənin təşkili ilə əlaqədar Mərkəz:

12-3.1. qiymətləndirmənin keçiriləcəyi tarixi, yeri və aparılma texnologiyasını müəyyən edir;

12-3.2. test tapşırıqlarına dair düzgün cavabların siyahısını tərtib edir və konfidensiallığın gözlənilməsi şərtilə həmin siyahının xüsusi ayrılmış məlumat bazasında saxlanılmasını təmin edir;

12-3.3. qiymətləndirmədə iştirak edəcək nəzarətçiləri müəyyən edir;

12-3.4. qiymətləndirmənin keçirilmə tarixindən ən azı 1 (bir) ay əvvəl sənəd qəbuluna dair elan verir;

12-3.5. qiymətləndirmənin qrafikini saytı vasitəsilə yayır;

12-3.6. qiymətləndirmənin keçirilməsinə 7 (yeddi) iş günü qalmış hazırlıq keçmiş şəxslərin qiymətləndirməyə buraxılış vərəqəsini sayta yerləşdirir;

12-3.7. qiymətləndirmədə iştirak edəcək hər bir hazırlıq keçmiş şəxsə eyniləşdirmə kodu verir;

12-3.8. qiymətləndirmənin təşkili, keçirilməsi və nəticələri ilə əlaqədar ərizə, şikayətlərə, təkliflərə baxır və həll edir;

12-3.9. qiymətləndirmənin nəticəsi haqqında məlumatları sayta yerləşdirir;

12-3.10. qiymətləndirmənin nəticəsinin elan edildiyi gündən 15 (on beş) iş günü müddətində Proqramın 12-14-cü hissəsi ilə müəyyən edilmiş sənədi (şəhadətnaməni) verir.

12-4. Qiymətləndirmə qanunçuluq, obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirilir.

12-5. Hazırlıq keçmiş şəxslər şəxsiyyətini təsdiq edən sənədi və buraxılış vərəqəsini təqdim etməklə qiymətləndirmədə iştirak edirlər.

12-6. Qiymətləndirmə zamanı hazırlıq keçmiş şəxslərin aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:

*(ardı 12-ci səhifədə)*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**(əvvəli 11-ci səhifədə)**

12-6.1. saxta və ya başqasına aid sənəd təqdim etmək, qiymətləndirməyə öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;

12-6.2. qiymətləndirməyə mobil telefon və digər rabitə vasitələri, kalkulyator, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

12-6.3. qiymətləndirmənin keçirildiyi binaya yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu qəbildən olan əşyalarla daxil olmaq, özü ilə tütün məmulatı gətirmək;

12-6.4. səbəbindən asılı olmayaraq qiymətləndirmə başlandığı andan yerini dəyişmək, gəzişmək, yerindən durmaq və qiymətləndirmənin gedişinə mane olmaq;

12-6.5. başqasının qiymətləndirmə nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına (vərəqinə), sual kitabçasına baxmaq və ya öz cavab kartına (vərəqinə), sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;

12-6.6. nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;

12-6.7. cavab kartını (vərəqini) və sual kitabçasını nəzarətçiyə təhvil vermədən qiymətləndirmənin keçirildiyi zalı tərk etmək.

12-7. Mərkəz tərəfindən hazırlıq keçmiş şəxs Proqramın 12-6-cı hissəsində qeyd olunan hərəkətlərə yol verməsi halları aşkar edildikdə onun qiymətləndirmə nəticələri ləğv edilir.

12-8. Texniki səbəblərdən qiymətləndirmənin aparılması mümkün olmadıqda Mərkəzin qərarı əsasında qiymətləndirmə davam etdirilir və ya yenidən aparılır.

12-9. Qiymətləndirmə zamanı hazırlığı bitirmiş şəxslərə proqram üzrə 20 (iyirmi) test tapşırığı təqdim edilir. Qiymətləndirmə müddəti 60 (altmış) dəqiqədir.

12-10. Qiymətləndirmədə təqdim edilən test tapşırıqlarının 50 faizini və daha çox hissəsini doğru cavablandıran şəxslər hazırlığı müvəffəqiyyətlə bitirmiş hesab edilirlər.

12-11. Qiymətləndirmənin nəticələri qiymətləndirmə başa çatdıqdan sonra ən geci 5 (beş) iş günü müddətində elan edilir. İmtahanın nəticələri haqqında məlumat saytda yerləşdirilir.

12-12. Qiymətləndirmənin nəticəsindən narazı qalan hazırlıq keçmiş şəxs bu barədə nəticənin ona elan olunduğu tarixdən 3 (üç) iş günü müddətində Mərkəz tərəfindən yaradılmış apellyasiya komissiyasına müraciət edə bilər.

12-13. Müraciətə 14 (on dörd) iş günü müddətində aidiyyəti mütəxəssislər tərəfindən baxılır və hazırlıq keçmiş şəxsə Mərkəz tərəfindən əsaslandırılmış cavab verilir. Hazırlıq keçmiş şəxslərin qiymətləndirmə nəticələrinin düzgün hesablanmadığı aşkar edildikdə, yenidən hesablama aparılır və onların nəticələri yenilənir.

12-14. Hazırlığı müvəffəqiyyətlə bitirmiş şəxslərə Mərkəz tərəfindən etibarlılıq müddəti 7 (yeddi) il olan və forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş sənəd (şəhadətnamə) təqdim edilir.";

6.3. 15-ci hissə ləğv edilsin;

6.4. 16-cı hissədə "Şəhadətnamə" sözü "Sənəd (şəhadətnamə)" sözləri ilə əvəz edilsin və həmin hissəyə "hallarda" sözündən sonra "şəxsin müraciəti əsasında 5 (beş) iş günü müddətində Mərkəz tərəfindən eyni hüquqi qüvvəyə malik sənəd (şəhadətnamə) verilməklə," sözləri əlavə edilsin;

6.5. 16.2-ci bənddə "şəhadətnamədə" sözü "sənəddə (şəhadətnamədə)" sözləri ilə əvəz edilsin;

6.6. 16.3-cü bənddə "şəhadətnamə" sözü "sənəd (şəhadətnamə)" sözləri ilə əvəz edilsin;

6.7. 17-ci hissə aşağıdakı redaksiyada verilsin:

"17. Verilmiş sənəd (şəhadətnamə) itirildikdə Mərkəz tərəfindən müraciətin daxil olduğu tarixdən 5 (beş) iş günü müddətində onun etibarlılıq müddəti göstərilməklə dublikatı verilir.";

6.8. 19-cu hissənin birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "şəhadətnamələr" sözü ismin müvafiq hallarında "sənədlər (şəhadətnamələr)" sözləri ilə əvəz edilsin;

6.9. Xüsusi Proqrama 3 nömrəli əlavə - "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Tədris Proqramı"nın 8-ci hissəsindən "taxoqraflar vasitəsilə ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə nəzarət" sözləri çıxarılsın;

6.10. Xüsusi Proqrama 4 nömrəli əlavə - "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Tədris Proqramı" üzrə:

6.10.1. 6-cı hissədən "yük daşımalarını həyata keçirən sürücülərə taxoqraf vasitəsilə nəzarət" sözləri çıxarılsın;

6.10.2. 10-cu hissədən "taxoqraflar vasitəsilə ölkədaxili (şəhərlərarası və rayonlararası) daşımaları yerinə yetirən sürücülərin iş və istirahət rejiminə nəzarət" sözləri çıxarılsın.

**7** "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 73 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 507 (Cild I); 2024, № 11, maddə 1246) aşağıdakı dəyişikliklər edilsin:

7.1. adında və ikinci abzasda "avtobuslara və taksi minik avtomobillərinə, onların" sözləri "avtobusların və taksi minik avtomobillərinin" sözləri ilə əvəz edilsin;

7.2. həmin Qərarla təsdiq edilmiş "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər" üzrə:

7.2.1. adında, 1.1-ci və 1.2-ci bəndlərdə "avtobuslara və taksi minik avtomobillərinə, onların" sözləri "avtobusların və taksi minik avtomobillərinin" sözləri ilə əvəz edilsin;

7.2.2. 2-ci, 3-cü, 8-ci hissələr və 6.12-ci bənd ləğv edilsin;

7.2.3. 6.1-ci və 6.14-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"6.1. Avtomobil nəqliyyatı ilə sərnişin daşımaları "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə uyğun olaraq müvafiq icazəyə malik hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən yerinə yetirilə bilərlər.";

"6.14. Daşıyıcı sürücü qismində işə qəbul etdiyi hər bir şəxsin Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə isə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin müəyyən etdiyi peşə təhsili müəssisələri, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla xüsusi hazırlıq keçməsini təmin etməli və belə xüsusi hazırlığın nəticələrinə dair daşıyıcılarla və ya sürücülərlə bağlanılmış müqavilə əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən 7 (yeddi) il müddətində etibarlı olan, forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş sənədi əldə etməyən sürücünü avtobusun və taksinin idarə olunmasına buraxmamalıdır.";

7.2.4. 6.8-ci bənddən "rübdə bir dəfə texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğunun yoxlanılmasını (taksi minik avtomobilləri istisna olmaqla)," sözləri çıxarılsın;

7.2.5. 6.10-cu bənddən "(müvafiq proqram təminatı ilə)" sözləri çıxarılsın;

7.2.6. 7.3-cü bənddə "Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə isə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin müəyyən etdiyi peşə təhsili müəssisələri tərəfindən" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə isə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin müəyyən etdiyi peşə təhsili müəssisələri, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla" sözləri ilə əvəz edilsin;

7.2.7. Tələblərə 1-8 nömrəli əlavələr ləğv edilsin;

7.2.8. Tələblərə 9–20 nömrəli əlavələrin yuxarı sağ küncündə "avtobuslara və taksi minik avtomobillərinə, onların" sözləri "avtobusların və taksi minik avtomobillərinin" sözləri ilə əvəz edilsin.

**8** "Beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər üçün iş və istirahət rejimi, nəqliyyat vasitələrinin taxoqraflarla təchiz edilməsi, onlardan istifadə, onlara xidmət və fəaliyyətinə nəzarət Qaydası"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarının həyata keçirilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2010-cu il 24 dekabr tarixli 244 nömrəli və "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə, iş şəraitinin xüsusiyyətlərinə dair Qaydalar"ın təsdiq edilməsi barədə" 2016-cı il 10 mart tarixli 118 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 may tarixli 249 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 982 (Cild I); 2024, № 1, maddə 111, № 5 (II kitab), maddə 611) aşağıdakı dəyişikliklər edilsin:

8.1. adından və birinci hissədən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2. həmin Qərarla təsdiq edilmiş "Beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər üçün iş və istirahət rejimi, nəqliyyat vasitələrinin taxoqraflarla təchiz edilməsi, onlardan istifadə, onlara xidmət və fəaliyyətinə nəzarət Qaydası" üzrə:

8.2.1. 1.2-ci bənddə "sərnişin və yük daşımalarını təşkil edən hüquqi və fiziki şəxslərin (bundan sonra – daşıyıcı), yerinə yetirən" sözləri "beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun (bundan sonra - operator)," sözləri ilə, "daşıyıcılara" sözü "operatorlara" sözü ilə əvəz edilsin və həmin bənddən (hər iki halda) "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.2. 1.3-cü bəndə "Nəqliyyat" sözündən sonra "Nazirliyi" sözü əlavə edilsin;

8.2.3. 1.5-ci və 1.6-cı bəndlər, 1.10.22-ci yarımbənd və 3-cü hissə ləğv edilsin;

8.2.4. 1.7-ci və 1.8-ci bəndlər, 1.10.21-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.7. Operatorlar beynəlxalq daşımaları həyata keçirən avtonəqliyyat vasitələrini taxoqrafla təchiz etməlidirlər.

1.8. Sürücü, operator, emalatxana və ya nəzarətçi taxoqraf kartlarının verilməsi və ya yenilənməsi müvafiq olaraq sürücünün, operatorun, emalatxananın və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (bundan sonra - DİN) vəsaiti hesabına Nazirliyin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (bundan sonra - Agentlik), habelə bu sahədə fəaliyyət göstərən digər fiziki və ya hüquqi şəxslərlə bağlanılmış müqavilə əsasında həyata keçirilir.";

"1.10.21. operator – avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən, işgüzar nüfuz, maliyyə vəziyyəti və peşəkarlıq səriştəsi ilə bağlı meyarlara, habelə sürücüsü (sürücüləri) hazırlıq səviyyəsinə dair tələblərə cavab verən, müvafiq icazəsi olan hüquqi və ya fiziki şəxs;";

8.2.5. aşağıdakı məzmunda 1.8-1-ci bənd əlavə edilsin:

"1.8-1. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 57-1-ci maddəsinə uyğun olaraq operatorlar, emalatxanaların texniki heyət üzvləri, operatorların məsul şəxsləri və sürücüləri, o cümlədən DİN əməkdaşı taxoqrafdan istifadə, ona xidmət və ya rəqəmsal taxoqraf kartından istifadə ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi xüsusi proqram üzrə hazırlıq (bundan sonra - hazırlıq) keçməlidirlər. Hazırlıq Agentlik, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq təhsil müəssisələri tərəfindən müqavilə əsasında həyata keçirilir.";

8.2.6. 1.9-cu bənddə "daşıyıcılar" sözü "operatorlar" sözü ilə, "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (bundan sonra – DİN)" sözləri "DİN" akronimi ilə əvəz edilsin;

8.2.7. 1.10.5-ci, 6.17.13-cü, 6.18.4-cü yarımbəndlərdə, 4-cü hissənin adında, 5.5-ci, 6.12-ci, 6.19-cu, 9.10-cu, 9.16-cı bəndlərdə ismin müvafiq hallarında "daşıyıcı" sözü ismin müvafiq hallarında "operator" sözü ilə əvəz edilsin;

8.2.8. 1.10.23-cü yarımbənddən "(elektromexaniki)" sözü, "ölçmək və ya" sözləri çıxarılsın və həmin yarımbəndə "avtonəqliyyat vasitəsinin" sözlərindən əvvəl "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin;

8.2.9. 1.10.24-cü, 5.7.1-ci, 6.18.2-ci, 6.18.4-cü, 6.18.5-ci, 6.19.2-ci yarımbəndlərdən və 5.12-ci, 6.10-cu, 6.11-ci (hər üç halda) bəndlərdən "(elektromexaniki)" sözü çıxarılsın;

8.2.10. 1.10.25-ci yarımbəndə "avtomatik rejimdə" sözlərindən əvvəl "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin və həmin yarımbənddən "ölçmək və ya" sözləri çıxarılsın;

8.2.11. 1.10.27-ci yarımbənddə "sürücü kartı" sözləri "sürücünün taxoqraf kartı (bundan sonra - sürücü kartı)" sözləri ilə əvəz edilsin və həmin yarımbəndə "istifadə edilən" sözlərindən sonra "rəqəmsal" sözü əlavə edilsin;

8.2.12. 1.10.28-ci yarımbənddə "daşıyıcı kartı" sözləri "operatorun taxoqraf kartı (bundan sonra - operator kartı)" sözləri ilə, "daşıyıcıya məxsus" sözləri "operatora məxsus rəqəmsal" sözləri ilə əvəz edilsin;

8.2.13. 1.10.29-cu yarımbənddə "emalatxana kartı" sözləri "emalatxana taxoqraf kartı (bundan sonra - emalatxana kartı)" sözləri ilə əvəz edilsin və həmin yarımbəndə "istifadə edilən" sözlərindən sonra "rəqəmsal" sözü əlavə edilsin;

8.2.14. 1.10.30-cu yarımbənddə "nəzarətçi kartı" sözləri "nəzarətçi taxoqraf kartı (bundan sonra - nəzarətçi kartı)" sözləri ilə, "nəzarət edən dövlət orqanlarının səlahiyyətli işçilərinə" sözləri "DİN-in əməkdaşlarına" sözləri ilə əvəz edilsin və həmin yarımbəndə "məxsus" sözündən sonra "rəqəmsal" sözü əlavə edilsin;

8.2.15. 4.1-ci və 4.2-ci bəndlərdə "Daşıyıcı" sözü "Operator" sözü ilə əvəz edilsin;

8.2.16. 4.4-cü, 5.1-ci və 5.5-ci bəndlərdə "daşıyıcılar" sözü "operatorlar" sözü ilə əvəz edilsin;

8.2.17. 5-ci hissənin adından, 5.1-ci, 5.13-cü, 5.14-cü, 8.4-cü, 9.14-cü bəndlərdən, 8.1.1-ci və 9.3.3-cü yarımbəndlərdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.18. 5.10-cu bənddə "Daşıyıcının" sözü "Operatorun" sözü ilə, "daşıyıcının kartı" sözləri "operatorun kartı" sözləri ilə əvəz edilsin;

8.2.19. 6.2-ci bənddə "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyində (bundan sonra - Agentlik)" sözləri "Agentlikdə" sözü ilə əvəz edilsin;

8.2.20. 6.8-ci bənddən "(elektromexaniki)" sözü çıxarılsın;

8.2.21. 8.2-ci bənddə "Rəqəmsal taxoqrafın daşıyıcı kartı mülkiyyət növündən asılı olmayaraq, avtonəqliyyat vasitələri ilə beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarını yerinə yetirən, Azərbaycan Respublikasının ərazisində vergi uçotuna alınmış fiziki şəxslərə (fərdi sahibkarlara) və ya hüquqi şəxslərə (onların sərəncamında xüsusi təlim keçmiş mütəxəssislər olduğu halda)" sözləri "Operator kartı" sözləri ilə əvəz edilsin;

8.2.22. 8.3-cü və 9.13-cü bəndlərdə "Rəqəmsal taxoqrafın servis emalatxanasının" sözləri "Emalatxana" sözü ilə əvəz edilsin;

8.2.23. 8.4-cü bənddə "Rəqəmsal taxoqrafın nəzarətçi" sözləri "Nəzarətçi" sözü ilə, "xüsusi təlim" sözləri "hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.24. 9-cu hissənin adında "ilk dəfə verilməsi və təzələnməsi" sözləri "verilməsi və yenilənməsi" sözləri ilə əvəz edilsin;

8.2.25. 9.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.1. Rəqəmsal taxoqraf kartını almaq üçün ərizəçi Agentliyə "AYNA" informasiya sistemi (bundan sonra - informasiya sistemi) vasitəsilə elektron qaydada müraciət edir.";

8.2.26. 9.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.2. Ərizəçi rəqəmsal taxoqraf kartlarını almaq üçün informasiya sistemi vasitəsilə elektron qaydada ərizənin və həmin ərizədə göstərilən digər aidiyyəti sənədlərin skan olunmuş nüsxələrini əlavə edərək Agentliyə göndərir.";

8.2.27. 9.4-cü bənd ləğv edilsin;

8.2.28. 9.5-ci bənddə "təqdim etdiyi ərizə xüsusi kitabda qeydiyyata alınır və ərizədəki" sözləri "informasiya sistemi üzərindən elektron qaydada müraciətinə əlavə edilən" sözləri ilə, "Agentlikdə" sözü "Agentlik tərəfindən" sözləri ilə əvəz edilsin;

8.2.29. 9.7-ci bəndin birinci cümləsinə "ərizəçiyə" sözündən sonra "Agentliklə bağlanılmış müqavilə əsasında" sözləri əlavə edilsin;

8.2.30. 9.8-ci bənddə "ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə ona" sözləri "ərizəçinin informasiya sistemində yaradılmış elektron kabinetinə" sözləri ilə əvəz edilsin;

8.2.31. 9.9-cu bəndin üçüncü cümləsinə "qəbul edir və" sözlərindən sonra "ərizəçiyə bu barədə məlumat" sözləri əlavə edilsin və "ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə ona göndərir" sözləri "bu Qaydanın 9.8-ci bəndində qeyd edilən qaydada verilir" sözləri ilə əvəz edilsin;

8.2.32. 9.11-ci bəndin birinci cümləsində "Rəqəmsal taxoqrafın daşıyıcı" sözləri "Operator" sözü ilə, həmin bəndin ikinci cümləsində "Daşıyıcı" sözü "Operator" sözü ilə və "xüsusi təlim" sözləri "hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.33. 9.14-cü bəndin birinci cümləsində "dövlət orqanlarının səlahiyyətli işçilərinə" sözləri "DİN-in əməkdaşlarına" sözləri ilə, ikinci cümləsində "Rəqəmsal taxoqrafın" sözləri "Nəzarətçi" sözü ilə əvəz edilsin;

8.2.34. 9.15-ci bəndə "ərizə ilə" sözlərindən sonra "bu Qaydanın 9.1-ci və 9.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada" sözləri əlavə edilsin və həmin bənddə "təzələnməsi" sözü "yenilənməsi" sözü ilə əvəz edilsin;

8.2.35. 9.16-cı bənddə (hər üç halda) "təzələnməsi" sözü "yenilənməsi" sözü ilə, həmin bəndin ikinci cümləsində "nəzarət və servis emalatxanasının" sözləri "nəzarətçi və emalatxana" sözləri ilə əvəz edilsin;

8.2.36. 9.17-ci bənddə "Sürücü kartının, daşıyıcı kartının, emalatxana kartının və nəzarətçi kartının ilk dəfə verilməsi və təzələnməsi" sözləri "Sürücü, operator, emalatxana və ya nəzarətçi kartlarının verilməsi və yenilənməsi" sözləri ilə əvəz edilsin və həmin bəndə "üçün" sözündən sonra "elektron qaydada" sözləri əlavə edilsin;

8.2.37. 10.3-cü bənddən "ərizə" sözü çıxarılsın və həmin bənddə "təqdim edilir" sözləri "informasiya sistemi üzərindən müraciət edilir" sözləri ilə əvəz edilsin;

8.2.38. 10.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"10.5. Bu Qaydanın 10.1.5-ci yarımbəndində nəzərdə tutulmuş hallarda taxoqraf kartının əvəz olunması barədə ərizə ilə kartın sahibi tərəfindən müvafiq fəaliyyətin (daşınmanın, nəzarət tədbirlərinin və s.) başlanılmasına ən azı 15 gün qalmış informasiya sistemi vasitəsilə Agentliyə müraciət edir.";

8.2.39. 10.6-cı və 10.12-ci bəndlərə "Agentliyə" sözündən sonra "informasiya sistemi üzərindən" sözləri əlavə edilsin;

8.2.40. 11.3-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Rəqəmsal taxoqraf kartının ləğv edilməsi barədə məlumat kartın sahibinin informasiya sistemində yaradılmış elektron kabinetinə göndərilir.";

8.2.41. 12.4-cü bəndin ikinci cümləsi çıxarılsın;

8.2.42. həmin Qaydaya - 1 nömrəli Əlavə üzrə:

8.2.42.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.42.2. "Sürücü kartının ilk dəfə" sözləri "Sürücünün taxoqraf kartının" sözləri ilə əvəz edilsin;

8.2.42.3. 1-ci hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin, ikinci və üçüncü abzaslar çıxarılsın:

"1. Xahiş edirəm mənə beynəlxalq avtomobil daşımalarının həyata keçirilməsi zamanı istifadə ediləcək sürücünün taxoqraf kartını verəsiniz.";

8.2.42.4. 2-ci və 6-cı hissələrdə "Sürücü kartının" sözləri "Sürücünün taxoqraf kartının" sözləri ilə əvəz edilsin;

8.2.42.5. 2.9-cu və 7.3-cü bəndlərdə "xüsusi təlim" sözləri "hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.42.6. 3-cü və 4-cü hissələrdə ismin müvafiq hallarında "sürücü kartı" sözləri ismin müvafiq hallarında "sürücünün taxoqraf kartı" sözləri ilə əvəz edilsin;

8.2.42.7. 5-ci hissə və Qeydlər hissəsi ləğv edilsin;

8.2.42.8. 7.4-cü bənddən "(tarix)", "(ərizəçinin imzası)", "(soyadı, adı, atasının adı)" və "M.Y." sözləri çıxarılsın;

8.2.43. həmin Qaydaya - 2 nömrəli Əlavə üzrə:

8.2.43.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.43.2. adında "Sürücü kartının təzələnməsi üçün" sözləri "Sürücünün taxoqraf kartının yenilənməsi üçün" sözləri ilə əvəz edilsin;

8.2.43.3. 1-ci hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin, ikinci və üçüncü abzaslar çıxarılsın:

"1. Xahiş edirəm mənə istifadə müddətinin bitməsi ilə əlaqədar beynəlxalq avtomobil daşımalarının həyata keçirilməsi zamanı istifadə ediləcək sürücünün taxoqraf kartını verəsiniz.";

8.2.43.4. 4-cü və 5-ci hissələrdə ismin müvafiq hallarında "sürücü kartı" sözləri ismin müvafiq hallarında "sürücünün taxoqraf kartı" sözləri ilə əvəz edilsin;

8.2.43.5. 6-cı hissə və Qeydlər hissəsi ləğv edilsin;

8.2.43.6. 7-ci hissədə "Sürücü kartının təzələnməsi" sözləri "Sürücünün taxoqraf kartının yenilənməsi" sözləri ilə əvəz edilsin;

8.2.43.7. 8.2-ci bənddən "(tarix)", "(ərizəçinin imzası)", "(soyadı, adı, atasının adı)" və "M.Y." sözləri çıxarılsın;

8.2.44. həmin Qaydaya - 3 nömrəli Əlavə üzrə:

8.2.44.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.44.2. "Daşıyıcı kartının ilk dəfə verilməsi və təzələnməsi" sözləri "Operatorun taxoqraf kartının verilməsi və yenilənməsi" sözləri ilə əvəz edilsin;

8.2.44.3. 1-ci hissədə "daşıyıcı kartının" sözləri "operatorun taxoqraf kartının" sözləri ilə əvəz edilsin, "avtomobil" sözündən əvvəl "beynəlxalq" sözü əlavə edilsin və həmin hissədən ikinci və üçüncü abzaslar çıxarılsın;

8.2.44.4. 2.1-ci, 2.2-ci, 9.3-cü bəndlərdə və 3-cü, 4-cü, 9-cu hissələrdə ismin müvafiq hallarında "daşıyıcı kartı" sözləri ismin müvafiq hallarında "operatorun taxoqraf kartı" sözləri ilə əvəz edilsin;

8.2.44.5. 5-ci hissə və Qeydlər hissəsi ləğv edilsin;

8.2.44.6. 6-cı, 7-ci və 8-ci hissələrdə ismin müvafiq hallarında "Daşıyıcı kartı" sözləri ismin müvafiq hallarında "Operatorun taxoqraf kartı" sözləri ilə əvəz edilsin;

8.2.44.7. 8.4-cü və 10.4-cü bəndlərdə "xüsusi təlim" sözləri "hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.44.8. 10.5-ci bənddə "təzələnməsi" sözü "yenilənməsi" sözü ilə əvəz edilsin və həmin bənddən "(tarix)", "(ərizəçinin imzası)", "(soyadı, adı, atasının adı)" və "M.Y." sözləri çıxarılsın;

8.2.45. həmin Qaydaya - 4 nömrəli Əlavə üzrə:

8.2.45.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.45.2. "Emalatxana kartının ilk dəfə verilməsi və təzələnməsi" sözləri "Emalatxana taxoqraf kartının verilməsi və yenilənməsi" sözləri ilə əvəz edilsin;

8.2.45.3. 1-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı, 7-ci (birinci halda), 9-cu hissələrə, 2.1-ci və 2.2-ci bəndlərə ismin müvafiq hallarında "kartı" sözündən əvvəl "taxoqraf" sözü əlavə edilsin;

8.2.45.4. 4.4-cü və 10.5-ci bəndlərdə "xüsusi təlim" sözləri "hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.45.5. 8-ci hissə və Qeydlər hissəsi ləğv edilsin;

8.2.45.6. 10.6-cı bənddə "təzələnməsi" sözü "yenilənməsi" sözü ilə əvəz edilsin və həmin bənddən "(tarix)", "(ərizəçinin imzası)", "(soyadı, adı, atasının adı)" və "M.Y." sözləri çıxarılsın;

8.2.46. həmin Qaydaya - 5 nömrəli Əlavə üzrə:

8.2.46.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.46.2. "Nəzarətçi kartının ilk dəfə verilməsi və təzələnməsi" sözləri "Nəzarətçi taxoqraf kartının verilməsi və yenilənməsi" sözləri ilə əvəz edilsin;

8.2.46.3. 1-ci hissədən "Ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın və "nəzarətçi" sözündən sonra "taxoqraf" sözü əlavə edilsin;

8.2.46.4. 2-ci, 3-cü, 4-cü, 5-ci (birinci halda), 7-ci hissələrə və 8.1-ci bəndə ismin müvafiq hallarında "kartı" sözündən əvvəl "taxoqraf" sözü əlavə edilsin;

8.2.46.5. 3.4-cü və 8.3-cü bəndlərdə "xüsusi təlim" sözləri "hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.46.6. 6-cı hissə və Qeydlər hissəsi ləğv edilsin;

8.2.46.7. 8-ci hissədən "(tarix)", "(ərizəçinin imzası)", "(soyadı, adı, atasının adı)" və "M.Y" sözləri çıxarılsın;

8.2.47. həmin Qaydaya - 6 nömrəli Əlavə üzrə:

8.2.47.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.47.2. 3-cü hissədən "(tarix)", "(ərizəçinin imzası)", "(soyadı, adı, atasının adı)" və "M.Y." sözləri çıxarılsın;

8.2.48. həmin Qaydaya - 7 nömrəli Əlavə üzrə:

8.2.48.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.48.2. "Rəhbər", "Baş mühasib", "(imza)" (hər iki halda), "(soyadı, adı, atasının adı)" (hər iki halda) və "M.Y." sözləri çıxarılsın;

8.2.49. həmin Qaydaya - 8 nömrəli Əlavə üzrə:

8.2.49.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.49.2. 2-ci hissədə "Xüsusi təlim" sözləri "Hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.50. həmin Qaydaya - 9 nömrəli Əlavənin yuxarı sağ küncündən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın.

**9** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 8 aprel tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 397 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 351) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarına buraxılış Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.1-ci bənddə "50.6-cı" sözləri "50.3-cü" sözləri ilə əvəz edilsin;

9.2. 1.3.1-ci yarımbənddən məsul şəxsi (şəxsləri) və" sözləri çıxarılsın və həmin yarımbənddə "Agentlik tərəfindən uçota alınan hüquqi şəxs (o cümlədən xarici hüquqi şəxsin filial və ya nümayəndəliyi) və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs" sözləri "müvafiq icazəsi olan hüquqi və ya fiziki şəxs" sözləri ilə əvəz edilsin;

9.3. 2.1-ci bənd və 4–7-ci hissələr ləğv edilsin;

9.4. 2.2.1-ci yarımbəndin 2-ci abzasında "fərdi sahibkarın və ya hüquqi şəxsin idarəetmə orqanının rəhbərinin (rəhbərlərinin)" sözləri "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 13.1.1-ci maddəsində nəzərdə tutulan icazəni almaq istəyən hüquqi şəxsin, o cümlədən xarici hüquqi şəxsin filialı və ya nümayəndəliyinin (bundan sonra - hüquqi şəxs) idarəetmə orqanının rəhbərinin (rəhbərlərinin) və ya fiziki şəxsin (bundan sonra - fərdi sahibkar)" sözləri ilə əvəz edilsin;

9.5. 2.2.1-ci yarımbəndin 3-cü abzasında "operator kimi uçota alınmaq" sözləri "müvafiq icazənin alınması" sözləri ilə əvəz edilsin;

9.6. 2.2.3-cü yarımbəndin 3-cü abzası aşağıdakı redaksiyada verilsin:

"3. operatorun məsul şəxsinin (şəxslərinin), habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirəcək sürücünün (sürücülərin) peşəkarlıq səriştəsi ilə bağlı hazırlıq və ya yenidən hazırlıq keçməsi və hazırlıq və ya yenidən hazırlığın yekununda aparılmış qiymətləndirmənin nəticələrinə dair sənədə malik olması.";

9.7. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Operatorların uçotunun aparılması

Operatorların uçotu "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, Azərbaycan Respublikası ilə xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək üçün onlara verilən beynəlxalq yük və qeyri-müntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsi əsasında Agentlik tərəfindən "AYNA" informasiya sistemi vasitəsilə həyata keçirilir.";

9.8. 1 və 2 nömrəli Əlavələr ləğv edilsin.

**10.** "Sərnişin və yük daşımaları üçün avtonəqliyyat vasitəsinə lisenziya kartı verilərkən, habelə lisenziya kartı verildikdən sonra rübdə bir dəfə həmin avtonəqliyyat vasitəsinin texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğunun yoxlanılması və həmin yoxlamanın aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 20 may tarixli 82 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 390 (Cild I) ləğv edilsin.

**11** "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin (şəxslərinin), habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlığının və yenidən hazırlığının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 247 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 977 (Cild I); 2024, № 1, maddələr 111, 113, № 5 (II kitab), maddə 611) ləğv edilsin.

**12.** "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin, həmçinin beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlıq və yenidən hazırlıq keçməsi barədə sənədlərin formasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 248 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 978 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Hər ocaq tonqal deyil...

## *Novruz alovları saflıq, sağlamlıq saçır*

**Bir payız günü çay süfrəsi arxasında texnika elmləri doktoru, Beynəlxalq Mühəndistlik Akademiyasının həqiqi üzvü, Dövlət mükafatı laureatı, Əməkdar mühəndis, mərhum professor Telman Nizamovla ozonator aparatlarının tətbiq sahələrindən danışırdıq. Xəzri küləyi söhbətimizin səmtini dəyişib tonqalların başına çəkdi:**

– Hər ağacın odunundan tonqal qalamaq olmaz. Ona görə ki, odunun yanması zamanı kimyəvi reaksiya gedir. Bütün odunların tərkibində çoxlu üzvi və qeyri-üzvi maddələr var. Həmin maddələr yanarkən ətrafa istiliklə bərabər müxtəlif tərkibli tüstülər də yayır. Elə odun var tüstüsü gözümüzü acışdırır, közü kababa acılıq gətirir. İynəyarpaqlı ağacların, məsələn, şamın oduncağında cüzi miqdarda xlorun olması onun közünün keyfiyyətini aşağı salır. Yaxşı olar ki, tonqal meyvə ağaclarının oduncağından qalansın.



Əksər ağaclarda olan maddələrdəki oksigen, hidrogen və karbon qazlarının faizi eynidir. Odun, əsasən, sellüloza və karbonla zəngin olan oduncaq maddəsindən ibarətdir. Onda olan yağlar, aşılayıcı turşular və qətran ağaclara xüsusi qoxu verir.

Telman müəllim maşın təkərindən, mebel qırıqlarından, mənşəyi bilinməyən əşyalardan, sintetik materiallardan tonqal qalanmasının qəti əleyhinə idi. O, hətta xaricdən gətirilmiş ağac materiallardan, taxta-şalbandan tonqal qalanmasını da düzgün hesab etmirdi. Bunun səbəbini isə belə anladırdı: "Baxmayaraq ki, ağacların oduncağında oksigenin, karbon və hidrogenin faizi təqribən eynidir, bununla belə mühitindən, torpağından, havasından, suyundan asılı olaraq ağaclarda yağların, karbohidratların, ümumiyyətlə, üzvi və qeyri-üzvi maddələrin, hətta orqanizm üçün zərərli qurğuşun, kadmium, civə, sink, molibden, mis, kobalt, vanadium, qalay kimi ağır metalların faizi yuxarı ola bilər. Orqanizm üçün kadmium, civə, qurğuşun, nikel, xrom və arsen xüsusilə təhlükəlidir.

Çərşənbələrdə tonqal qalamaq zəruri bir ayinə çevrilib. Bu ayini zir - zibil yandırmaqla korlamaq olmaz. Tonqal şəfa mənbəyinə çevrilməlidir. Onun odunda qızınmaq, tüstüsündən və qoxusundan faydalanmaq lazımdır.

Tonqal qalamağa bir müddət əvvəldən hazırlaşmaq lazımdır. Özü də tonqal bu işdə səriştəsi olan adamlar tərəfindən yandırılmalıdır – dedi.

***Telman müəllim sözünə davam etdi:***

– Elimizə – obamıza Novruz çal-çağırla, musiqi sədaları altında qədəm qoyur. Bu çal-çağıra, büsata pırıl-pırıl yanan tonqalların çartıltısı da qarışır...

Əgər siz nə vaxtsa yoqa ilə maraqlanmısınızsa, yeddi əsas çakra və onların insanın bədənindəki enerji axınında rolu barədə eşitmiş olarsınız. Tonqallar həmin çakralara sözsüz ki, təsirsiz ötüşmür.

Çıldağçı əlindəki odlu pambıqla bədənimizin müxtəlif nöqtələrinə "dağ" basır. Bundan sonra əhvalımızın yaxşılaşdığını, enerjimizin artdığını hiss edirik. Çıldağ qan dövranını da sürətləndirir.

Qədim zamanlarda yeni anadan olmuş uşağı tonqalın başına dolandırmaqla pak edər, ancaq bundan sonra ananın qucağına qoyarmışlar. Yəqin ki, "Çevir ocağa, al qucağa" atalar sözü də o dövrlərdə yaranmışdır. Qırğızıstanda son dövrlərə qədər hamilə qadının ətrafında tonqallar qalayarmışlar ki, şər qüvvələri uzaqlaşdırsınlar, ana və körpəsini dərd- bəladan qorusunlar.

Belə bir məsəl var: "Tonqala yaş odun atılmaz, ürəyində təpər olan igid basılmaz".

Tonqal yananda qalxan alov – kimyəvi reaksiyanın nəticəsidir. Bu reaksiya son dərəcə sürətlə gedir və işıq və istiliyin ayrılması ilə müşahidə olunur.

Tonqalda yanan ağacın tərkibindəki maddələrin atomları alovda normal enerji səviyyəsinə qayıtdıqda ayrılan enerjinin spektri müxtəlif olur. Hər element atomunun özünəməxsus rəngi var.Yəni hər bir maddənin özünəməxsus buraxma spektri mövcuddur. Məsələn, əgər natrium və onun birləşmələrini alova tutsaq, onda 590 nm dalğa uzunluğuna malik işıq şüası buraxılır və alov sarı rəngə boyanır. Tonqaldakı alov odunun tərkibindəki element atomlarının spektrlərinin cəmidir.

Tonqallar ta qədimdən sağ qalmaq, soyuqdan, şaxtadan qorunmaq üçün qalanıb.

Tonqalın ətrafında dayanıb ona tamaşa edən adam ruhən rahatlıq tapır. Sözsüz ki, alov, tonqal insanın bədənində müsbət fizioloji proseslərin baş verməsinə və aktivləşməsinə səbəb olur.

Fransız yazıçısı Jorj Sand vulkan püskürməsini müşahidə edərək beyninin fəaliyyətini aktivləşdirərmiş.

Tonqalın özünün də elektromaqnit sahəsi vardır. Eyni zamanda, tonqaldakı spektrlər müxtəlif dalğa uzunluğuna malikdir.

İnsanların, canlıların hüceyrələri bir-birindən fərqlənir. Hər bir hüceyrə mürəkkəb bir quruluşa və funksiyaya malikdir. Həmin hüceyrələrin fəaliyyəti üçün enerji lazımdır.

İnsan bədənində 1700-2000-dək həssas nöqtə vardır. Onlar daxili orqanların xaricə çıxışıdır. Həmin nöqtələrin köməyi ilə daxili orqanlarla əlaqə yaratmaq, onların vəziyyətini müəyyənləşdirmək və onlara müdaxilə etmək mümkündür.

Soyuq havada çöldən gələn insan isti otağa daxil olanda rahatlıq tapır və xoşhal olur. Özü də sobaların istiliyi biri-birindən fərqlənir. Bir var elektrik və ya daş kömür sobası, bir də var odun sobası... Onların verdiyi istiliyin keyfiyyəti başqa-başqadır. Odun peçinin istiliyi adama daha xoş gəlir. Odunun çırtıltısı, alovun səsi adama bir ayrı ləzzət eləyir.

Tonqal üstündən hoppananda da bədənə enerji daxil olur. Bu elektromaqnit induksiya hadisəsini xatırladır. İnsanın bədəni həm enerjini qəbul edir, həm də şüalandırır. Həmin enerji 100 vatlıq lampanı da yandıra bilər. Tonqalın üstündən hoppananda spektrlər bədəni əhatə edir. İnsanlar bəzən tonqalın ətrafında dövrə vururlar. Bəzən tonqalın üstündən hoppanır, digərləri tonqala tamaşa etməkdən doymurlar. Bütün bunlar tonqalın şüalarının insanın bədənindəki fizioloji proseslərə müsbət təsir göstərdiyindəndir.

Novruzda, mart ayında insanların ocağa, alova, tonqala daha çox ehtiyacı olur. Çünki insanlar soyuqdan, qışdan çıxırlar. Qışda itirilən enerjini tonqal ətrafında bərpa edə bilirsən. İnsan orqanizmini stimullaşdıran bu hərəkət müəyyən qədər iynəbatırmaya da bənzəyir.

Ekstrasenslər əlləri ilə insanlara enerji verə bilirlər. Bu enerji bioenerjidir. Prinsipcə bu zaman da həmin proses baş verir.

Moskvada bir dostumun vasitəçiliyi ilə əslən polşalı olan məşhur bir professorun yanına getmişdik. O, şəhər kənarındakı ikimərtəbəli evində bizi qəbul etdi. Onun zəngin laboratoriyası vardı... Laboratoriyada çoxlu elektrik, maqnit aparatları düzülmüşdü.

Biz içəri girəndə o, "krosna" antenasına bənzər bir kreslonun üstündə əyləşmişdi. Antena naqil vasitəsilə bir aparata birləşdirilmişdi. Mən həmin aparatı diqqətlə nəzərdən keçirdim. Aparat səs tezlikli elektrik siqnalları generatoruna bənzəyirdi. Sonra öyrəndim ki, o, bu qurğu ilə enerjisini itirmiş insanları müalicə edir, gümrahlaşdırır.

Həmin professor 1982-ci ildə Brejnevi müalicə edən ekstrasens Cuna Davidaşvilinin enerjisini seansdan sonra bərpa edirmiş. O deyirdi ki, Cuna Brejnevi müalicə etdikdən sonra halsız olurdu. Onu qolundan tutub qaldırırmışlar. Ona görə ki, hər seansda çoxlu enerji itirirmiş.

Hüceyrələr neçə-neçə tezlik şüalandırır və onları qəbul edir. Amma bunun üçün gərək ona enerji verilsin.Tonqal bir çox şüaların cəmidir. Oradakı dalğaların tezliyi meqahers də ola bilər, hers də ola bilər.

Mənim metaləritmə zavodunda bir dostum işləyir. Deyir ki, metalın əridiyi sobalara yaxın durmaq mümkün deyil. Yayın istisində burada işləmək xüsusilə çətindir. Amma fəhlələrin nə vaxtsa xəstələndiyini eşitməmişəm. Ola bilər ki, kiminsə əli əzilsin və ya ayağı yansın. Amma heç vaxt xəstələnmirlər. Mən ona tonqalın xeyirindən danışanda o da mənə bunları söylədi və bildirdi ki, metaləridənlər uzun ömürlü olurlar.

Başqa bir dostum isə Gün vannası haqqında maraqlı bir əhvalat danışıb. Deyirdi ki, ev tikdirərkən ustalara kömək edirmiş. Yola tökülən bir maşın mişar daşını həyətə təkbaşına daşıyır. Bir saat işləyəndən sonra bərk yorulur və yarımçılpaq vəziyyətdə günün altına uzanır. On beş – iyirmi dəqiqədən sonra elə bil heç işləməyib. Gücü bərpa olunub...

İnsan bədəni akkumulyator kimidir. Amma o enerjini təkcə Günəşdən almır. O, enerjini təbiətdən, hətta insanlardan, o cümlədən yanan tonqaldan belə ala bilir...

Mərhum professor Telman Nizamov təbiətlə təmasda olmağı, onunla üz-üzə dayanmağı çox sevərdi. Xəzərin sahilində saatlarla gəzib-dolaşmaqdan, sinə dolusu nəfəs almaqdan doymazdı. Bir də tonqal qalayıb ətrafında oturmağı çox xoşlayardı. Tonqalın səsinə qulaq asıb, enib qalxan alov dillərinə baxmaqdan yorulmazdı. Kim bilir, bəlkə də elə tonqal səsiydi ona elmin gizlin qalan sirlərindən xəbər gətirən.

Nəinki elmlərin, hətta ictimai-siyasi hadisələrin arasında əlaqə axtaran alim tez-tez Bəxtiyar Vahabzadənin məşhur

***Şam əgər yanmırsa yaşamır demək,***
***Onun yaşamağı yanmağındadır.***

misrasını təkrar-təkrar söyləyərdi. Bu misralar onun həyatının mənasına çevrilmişdi. Yanma yoxdursa, enerji də yoxdur, enerji yoxdusa, həyat da yoxdur– deyərdi. Görkəmli alim elə özü də elmin qaranlıq, dolanbac yollarında şam kimi yana-yana ömrünü şərəflə başa vurdu.

***Söhbəti qələmə aldı:***
***Arif ƏRŞADOĞLU,***
***yazıçı-jurnalist***

**Qədim inanc – yeni güvənc**



# "İlaxır çərşənbəsi" – yeni gün

## *Bu gündən torpaq oyanır, təbiət yenidən canlanır*

**Boz ayın son çərşənbəsi gəldi. Əsatirlərə görə fəsillər, aylar bölünəndə bir aya cəmi 14 gün düşüb. O biri ayların 28–30 gün olduğunu görən həmin ay küsüb. İnciməsin deyə hər fəsil öz payından 3–4 gün ona hədiyyə edib. Ona görə də fevralın 20-dən martın 20-dək keçən, boz ay adlanan müddətdə həm qış, həm yaz, həm də yay və payızın günləri var. Gah günəş çıxır, isidir, gah qış soyuğu dondurur. Gah ağaclarda çiçək görünür, gah da yağış onu yuyub tökür. Bir sözlə, boz ayda bütün fəsillər müşahidə edilir.**

Elimizin əziz günü – Novruz bayramına qədər 4 çərşənbənin qeyd edilməsi də təsadüfi deyil. Bayramın gəlişi zamanı xoş əhval-ruhiyyə yaşanır. Rəmzi məna daşıyan çərşənbələri ulularımız həmişə bayram kimi qeyd ediblər. Çünki torpağa nəfəs gəlir. Təbiət, eləcə də, bütün canlılar oyanır.

Çərşənbələr sırasında bu gün qeyd etdiyimiz sonuncu – Torpaq çərşənbəsidir. Xalq arasında Torpaq çərşənbəsi "İlaxır çərşənbə", "Yer çərşənbəsi", "Çərşənbə–suri" kimi də adlanır. Torpaq çərşənbəsində torpağa istilik gəlir və bütün təbiət oyanmağa başlayır.

Bununla bağlı xalq arasında bir çox inanclar yaranmışdır. 4 ünsürdən sonuncunun oyanması ilə Sel, Atəş, Yel və Torpaq daha böyük güc alır. İnsanlar yoxsulluq və qıtlıqdan, çətinlik və məhrumiyyətdən xilas olurlar. Bu inamla bağlı xalq arasında yayılmış mifoloji təsəvvürə görə insanların



kasadlıqdan, yoxsulluqdan əziyyət çəkdiyi bir zamanda Sel, Atəş və Yel Torpaq Xatunun yeraltı məbədinə qonaq gəlirlər. Burada yatmış Torpaq Xatunu oyadıb, insanların aclıq çəkdiyini ona deyirlər. O zaman Torpaq Xatun yerindən qalxaraq "Adamları fəlakətə salan, özü fəlakətə düşər"– deyir və beləliklə, Sel, Atəş, Yel və Torpaq Xatun əl-ələ verib:

***Zəmzəm gəldi, Atəş gəldi, Yel gəldi,***
***Təzə ömür, təzə məhsul, il gəldi***

– deyə oxuya-oxuya işıqlı dünyaya çıxırlar. Deyilənlərə görə, həmin gün İlaxır çərşənbə olub. Selə, Atəşə, Yelə və Torpağa inanc və inamı, bütövlükdə, özündə əks etdirən ilaxır çərşənbələrin İslamdan və zərdüşlükdən əvvəlki görüşləri ilə bağlı olduğunu göstərir. Mənbələrə və müşahidələrə əsaslanaraq demək mümkündür ki, Novruz torpağın oyanması, yəni əkin mövsümünün başlanması ilə səciyyələnir. Su, Od və Yelin başlıca məqsədi torpağı oyatmaqdır.

Axır çərşənbə mərasim, ayin, etiqad, oyun və şənliklərlə daha çox zəngindir. Bu çərşənbədə əvvəlki çərşənbələrdə icra olunan bütün ayinlər kütləvi xalq şənlikləri kimi qeyd olunur. Şənliklər sübh tezdən suya inanc ayini ilə başlanır. Adamlar su üstündən atlanaraq, dərdini, arzusunu suya danışıb, ondan imdad diləyirlər. Gün ərzində müxtəlif ayinlər keçirilir. Axır çərşənbənin axşamı şənliklər daha da güclənir. Tonqallar alovlanır, həyətlərə torbalar atılır, qulaq falları qurulur və xoş ovqatlı ayinlər icra edilir. Bu çərşənbə ilə bağlı olan ayinlər illərdir ki, yaşanır və xalq öz milli Novruz bayramını böyük əhval–ruhiyyə ilə qeyd edir və bu gün də ruh yüksəkliyi insanların mənəvi dünyasında yaşayır.

Belə deyirlər ki, çərşənbə axşamı təzə libas geyən heç vaxt paltar dərdi çəkməz. Qulağı cingildəyənə müjdə gələr. Həmin gün 7 növ xörək və ya şirniyyat bişirilir, səməni halvası hazırlanır. Göyərçinlər ilk olaraq əkin–biçin sahəsindən uçarsa, həmin il bolluq olar, evlərin damına qonarlarsa, il quraqlıq keçər. Bayram üçün göyərdilmiş səməninin ortadan saralması kənarlarının yaşıl qalması taxıl qıtlığı olacağına işarədir.

Qulaq falına çıxmaq, qapılara papaq atmaq, küsülüləri barışdırmaq, xəstələrə baş çəkmək, körpələrə yeni libas almaq da bu bayrama aid adətlərdəndir. Bu günə el arasında həm də niyyət, dilək çərşənbəsi deyilir. İnanca görə, həmin gün ürəkdə tutulan xoş diləklərin hamısı hasil olur. Odur ki, həmin gün evdə mütləq xoş sözlər danışılmalıdır. Axı kimsə qulaq falına çıxıb qapını dinləməyə gələ bilər. Ona görə, ailədə könülaçan sözlər danışar, mübahisə etməzlər ki, qulaq falına çıxan şəxs xoşagəlməz ifadələr eşidib evinə ümidsiz dönməsin.

Qədim el adət və inanclarına görə, ilaxır çərşənbədə uşağa beşik düzəldərlər, gün çıxmamış su üstündən hoppanar, tonqal yandırar, kəlin buynuzuna qırmızı bağlayarlar. Qorxanların başından su töküb qorxuluğunu alarlar. Ailə üzvlərinin sayına görə şam yandırar, onu yarımçıq söndürməzlər, evdən od, kibrit, neft, ağartı, un, çörək verməzlər. Axır çərşənbə gecəsi tez yatmazlar, evdə qazan asar, vəfat etmiş yaxın adamları yada salar, onların adını çəkib "filankəslərin adına qazan asdım" – deyib qazana ət, düyü və s. tökərlər. Axır çərşənbə günü ertədən lampa yandırarlar.

Cavanlar fala baxarlar. Qızlar bir qaba su tökər, əllərindəki üzükləri çıxarıb saçlarına salarlar. Niyyət tutub üzüyü suyun üstündən keçirərlər. Üzük fırlanıb qabın divarlarına dəyir. Bu, üzüyün qaba dəydiyi say yaşda gəlin gedəcəksən anlamına gəlir.

İlaxır çərşənbədə həyət–bacada tonqallar qalanır, insanlar tonqalın üstündən atılıb ağrı–acılarının oda tökülməsini arzu edirlər: "Ağırlığım–uğurluğum, qadam–balam bu tonqalda yansın", yaxud "ağırlığım–uğurluğum odlara, tonqaldan mənimlə atılmayan yadlara". Burada məqsəd qışdan qalan dərdin, ağrı–acının adamın canından tökülməsi, insanın sağlam ruhla, saf qəlblə bayrama qovuşmaq istəyidir.

Həmin gün bayram süfrəsində balığın olması bərəkət rəmzi hesab edilir. Bişmiş və ya qurudulmuş bütöv balığı süfrəyə gətirər, bir tərəfinə su, digər tərəfinə isə düyü qoyar, balığın gözünə baxıb, arzu tutarlar. Sonra balıqdan bir az yeyər və inanarlar ki, arzular tezliklə çin olacaq.

Süfrənin əsas bəzəyi al-əlvan boyadılmış şadlıq rəmzi olan yumurta, bir də baharın gəlişini əks etdirən səmənidir. Evimizin xeyir-bərəkəti, bol ruzili, gur yanan ocaqlı olması diləyilə üzü Novruza – İlaxır çərşənbəmiz mübarək olsun!

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Qlobal qadın asılılığına son!

**Türkiyənin Nyu-Yorkdakı Baş konsulluğu, Ailə və Sosial Siyasət Nazirliyi və "Yaşıl ay"ın təşkilatçılığı ilə BMT-də Qadınların Statusu Komissiyasının 69-cu sessiyası çərçivəsində "Asılılıq və bərpa" adlı qadın forumu keçirilib. Azərbaycan nümayəndə heyəti toplantıda iştirak edib.**



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aparat rəhbəri Ceyran Rəhmətullayeva məclisdə qadınların gücləndirilməsi sahəsində dünya ölkələri və təşkilatların əməkdaşlığının vacibliyindən danışaraq, bu sahədə beynəlxalq konvensiyaların qarşıya qoyduğu öhdəlikləri qeyd edib. Qadın hüquqları ilə bağlı tarixən formalaşmış dəyərləri olan və Şərqdə qadına seçki hüququ verən ilk ölkə kimi Azərbaycanın bu sahədə təcrübəsindən danışıb.

O, dünyanın ən böyük beynəlxalq təşkilatları ilə əməkdaşlıq edən ölkəmizin Qoşulmama hərəkatına sədrliyi çərçivəsində keçirilən "Qadınların hüquqlarının qorunması və səlahiyyətlərinin artırılması" konfransında hərəkatın qadın qolunun yaradılması təşəbbüsünün irəli sürüldüyünü, eləcə də COP29 konfransında "Gender günü"nün keçirildiyini, qadınların səlahiyyətləndirilməsi ilə bağlı məsələlərin diqqətdə saxlanıldığını vurğulayıb.

Komitə rəsmisi Azərbaycanın cari ildə keçirilməsi planlaşdırılan və türk dövlətlərinin ailə və sosial siyasət nazirlərini bir araya gətirəcək növbəti konfransa da evsahibliyi edəcəyini diqqətə çatdırıb, bunun qadınların gücləndirilməsi işinə töhfə olacağını qeyd edib.

Forumda "Qadın, Gələcək və İnkişaf" İctimai Birliyinin sədri Gülşən Axundova da çıxış edib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Mikayıl Azaflı – 100

# Dədə ozanların ustad davamçısı




**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında XX əsr Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Mikayıl Azaflının 100 illik yubileyinə həsr olunmuş “Aşıq sənətində milli-mənəvi dəyərlər” mövzusunda beynəlxalq elmi simpozium keçirilib.**

Elmi məclisi giriş nitqi ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli qüdrətli söz ustadı Mikayıl Azaflının həyat və yaradıcılığından danışıb, onun Azərbaycanın saz sənətinin tanınması və inkişafındakı əvəzsiz xidmətlərindən bəhs edib. O, “Konstitusiya və Suverenlik İli”ndə keçirilən tədbirin Azərbaycanın tam suverenliyi şəraitində, həm də, ümumilikdə, müstəqillik dövründə Mikayıl Azaflı sənətinin yenidən öyrənilməsi, onun irsinin daha dərindən tədqiq olunması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

AMEA rəhbəri Türk dünyasında aşıq ədəbiyyatının inkişafında Azərbaycanın aparıcı yer tutduğunu söyləyərək qeyd edib ki, qədim zamanlardan bugünədək bütün inkişaf dövrlərində Azərbaycan xalqı özünün Dədə Qorqud, Aşıq Qurbani, Xəstə Qasım, Aşıq Abbas Tufarqanlı, Aşıq Pəri, Aşıq Ələsgər kimi ustad aşıqlarını yetişdirib. Aşıq sənətinin zirvəsi olan Aşıq Ələsgər öz yaradıcılığı ilə bu sənətin böyük ənənələrini layiqincə yaşadıb.

Simpoziumun davamında AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun professoru Qəzənfər Paşayev, Ərzincan Binəli Yıldırım Universitetinin professoru Əli Kafkasyalı və Almaniyadan olan tədqiqatçı aşıq Ozan Şiar Ağdaşanın məruzələri dinlənilib. Natiqlər Mikayıl Azaflı yaradıcılığının Azərbaycan mədəniyyəti üçün əhəmiyyətindən və onun aşıq sənətinə verdiyi töhfələrdən geniş söz açıblar.

Bildirilib ki, Mikayıl Azaflı böyük coşqunluqla yazıb-yaradan, aşıq sənətini inkişaf etdirən, sağlığında klassikləşən ustad aşıq olub. O, aşıq sənətinin kamil bilicisi olmaqla yanaşı, şairlik istedadı ilə də seçilib. Onun şeirlərində həyat fəlsəfəsi özünü bariz şəkildə göstərib.

Folklor İnstitutunun direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Hikmət Quliyev qeyd edib ki, ustad sənətkar folklorumuzun, musiqi mədəniyyətimizin yayılmasında, sevilməsində, dilimizin saf, təmiz, duzlu və şirin olmasında böyük xidmətlər göstərib. O, ustad aşığın keşməkeşli taleyi, qaçaqlıq və zindan həyatının onun yaradıcılığına da təsir etdiyini və ictimai məzmunlu, dövrdən, zamandan şikayət ruhlu şeirlərinin ortaya çıxmasına səbəb olduğunu söyləyib.

Beynəlxalq məclis 8 bölmə iclası ilə davam edib. Müzakirələrə onlayn formatda Türkiyə, Qırğızıstan, Qazaxıstan, Almaniya və digər ölkələrdən 50-dən çox alim və tədqiqatçı qatılıb.

Sonda iştirakçılara Aşıq Mikayıl Azaflı yaradıcılığına həsr olunmuş konsert proqramı təqdim olunub.

*T.RÜSTƏMLİ*
*XQ*

# “Qarlı aşırım”ın həqiqətləri elmi-ictimai gündəmdə



**Azərbaycan Dövlət Pedaqoji Universitetində filologiya elmləri doktoru, professor Təyyar Salamoğlu və filologiya üzrə fəlsəfə doktoru Məhrux Dövlətzadənin “Elm və təhsil” nəşriyyatında işıq üzü görmüş “Qarlı aşırım”ın tənqid variantları” kitabının təqdimatı keçirildi.**

Ölkənin elmi, pedaqoji və mədəni ictimaiyyəti təmsilçilərinin iştirak etdiyi mərasimi giriş sözü ilə açan ADPU-nun prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Nağıqızı Prezident İlham Əliyevin Qərbi Azərbaycana Qayıdış hərəkatının elmi-tarixi-mənəvi qaynaqlarının siyasi-diplomatik əsaslara çevrilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrdən söz açdı. O bildirdi ki, bu hərəkat erməni millətçilərinin rus-sovet hakim dairələrnin himayəsi ilə qədim türk yurdunda xalqımıza qarşı apardığı soyqırımı və deportasiya siyasətini əks etdirən əsərlərin daha dərindən öyrənilməsini, itirilmiş 9 mahalın mədəni irsinin sistemləşdirilib yaşadılmasını da gündəmə gətirib. Aparılan elmi-təbliğati işlər kompleksi bu baxımdan qədim yurdumuza sülh yolu ilə qayıdışımıza bir vəsilədir.

Filoloq alim əlavə etdi ki, XX əsr nəsrimizin parlaq simalarından biri Fərman Kərimzadənin Vedi torpağında törədilmiş zorakı siyasətin və qanlı əməllərin bəlalı bir səhifəsinin bədii salnaməsi olan “Qarlı aşırım” romanı aktuallığı və müasirliyi ilə günümüzdə yeni araşdırma mövzusu olub. Oxuculara təqdim edilən “Qarlı aşırım”ın tənqid variantları” kitabı bu zərurəti elmi-nəzəri baxımdan cavablandırıb. Monoqrafiyada romanın ideyası, məzmunu, sənətkarlıq problemlərinə yeni, müasir tələblər baxımından yanaşılması və dəyərləndirilməsi humanitar sahə alimlərinin Qərbi Azərbaycana Qayıdış hərəkatı ilə bağlı qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə böyük maraq və məsuliyyətlə yanaşdıqlarına parlaq nümunədir.

ADPU-nun “Qarlı aşırım” romanında bədiiləşmiş tarixi həqiqətin və onun filoloji tədqiqinin Qərbi Azərbaycana Qayıdışın dinc və ləyaqətli şəkildə gerçəkləşdirilməsinə mənəvi dəstək olduğunu vurğuladı. Ali məktəb rəhbəri qeyd etdi ki, belə bir önəmli təqdimatın ADPU-da keçirilməsini universitet kollektivi böyük maraqla qarşılayıb. Monoqrafiyanın filoloji yönü və praktik hədəfi müxtəlif müzakirələrlə dərindən öyrənilib təbliğ ediləcək.

“Ön sözü”ün müəllifi AMEA Folklor İnstitutu mifologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy ənənvi ədəbi tənqidlə müqayisədə əsərin özəlliyindən danışdı, müəlliflərin çağdaş elmi fikrə sanballı töfhə verdiklərini söylədi. Akademiklər Nizami Cəfərov və Muxtar İmanov yeni monoqrafiyasını ciddi və aktual problemə həsr edilən orijinal və əhatəli araşdırma kimi dəyərləndirdilər.

Milli Məclisin deputatı Hikmət Babaoğlu “Qanlı aşırım” və bu sıradan olan digər tarixi romanların sovet rejimi və kommunist ideologiyasının tələblərindən fərqli olaraq obyektiv, düzgün öyrənilməsinin vacibliyini bildirdi. Əməkdar elm xadimi, professor Vaqif Şadlinski həmyerlisi Fərman Kərimzadə, əsərdəki gerçək hadisələr haqqında özünün və atasının xatirələrini diqqətə çatdırdı.

“Azərbaycan” jurnalının baş redaktoru İntiqam Qasımzadə, Türkiyənin Mərmərə Universitetinin dosenti Mehdi Gəncəli, məfkurə şairi Ramiz Qusarçaylı romanın və onun elmi təfsirinin erməni millətçiliyi ilə mübarizədə mənəvi silah olduğunu qeyd etdilər.

“Qarlı aşırım”ın tənqid variantları” kitabının müəllifləri Təyyar Salamoğlu və Məhrux Dövlətzadə araşdırmanın nəzəri-konseptual və metodoloji əsasları ilə bağlı sovet ədəbiyyatşünaslığı ilə müasir elmi-nəzəri fikrin oxşar və fəqli cəhətlərindən bəhs etdilər, iştirakçıların suallarına cavab verdilər.

İşgüzar şəraitdə keçən, zəngin təəssürat yaradan mərasimin sonunda Fərman Kərimzadənin qızı, atasının bədii irsinin öyrənilib ictimai hərəkata gətirilməsinə görə zəhməti olanlara razılığını bildirdi.

*Abid TAHİRLİ,*
*Tahir AYDINOĞLU*

Mikayıl Rzaquluzadə – 120

# Görkəmli yazıçı və tərcüməçi

**Ədəbi təxəllüsü ötən əsrin 30-cu illərində “Mim-Re”, “M.R.”, “R. Mikayıl” olmuş şair, tərcüməçi, pedaqoq Mikayıl Rzaquluzadə ömrünün sonunadək ədəbiyyata, şeiriyyətə sadiq qalmış qələm sahiblərindən biri kimi tanınır.**



Azərbaycan uşaq ədəbiyyatının qızıl imzası sayılan Mikayıl Manaf oğlu Rzaquluzadə 1905-ci il martın 17-də Bakıda anadan olub. Ali Pedaqoji İnstitutun tarix fakültəsində təhsil alıb. Ədəbi fəaliyyətə 1923-cü ildə “Abdulla Şaiq” kitabçasında çıxan “Müəllim” şeiri ilə başlayıb. Hələ 20 yaşında ikən “Maarif işçisi” jurnalında “Çocuq ədəbiyyatında üsul məsələsi” adlı ilk məqaləsi ədəbi kuluarlarda geniş təqdir qazanıb. Müxtəlif mövzularda yazıb-yaratsa da, 1945-ci ildən başlayaraq, bütün kitablarını uşaq və gənclər üçün nəzərdə tutub. Onun “Qaranquş yuvası”, “Ağ dana”, “El gücü”, “Qu gölü” kimi 20-dən çox kitabı uşaq və gənclərin sevərək mütaliə etdiyi əsərlərdir.

Balacalar üçün qələmə aldığı mənzum nağıllar da tərbiyəvi əhəmiyyətinə, poetik ruhuna, axıcılığına görə daim dəyərləndirilib. Məsələn, “Ovçu Elişlə qoçaq Aytəkin nağılları” olduqca həyati və inandırıcıdır.

*Uzun-uzun yollarda,*
*Yoldaşı var nağılın.*
*Hər dildə dildaşı var,*
*Hər yerdə bacısı var,*
*Qardaşı var nağılın…*

Şairin böyüklər üçün yazdığı bədii nümunələr də onu əsl söz rəssamı kimi təqdim edir:

*Gümüş Aydan könüllərə nur axar kimi,*
*Dəniz inlər, qəlbində bir dərdi var kimi.*
*Ayın sərin işığında par-par parlayan*
*Sədəf qumlar ağappaqdır, təzə qar kimi...*

Mikayıl Rzaquluzadə təkcə gözəl şair, nasir, publisist deyil, həm də dünyanın müxtəlif ölkələrində yaşayan yazıçıların əsərlərini dilimizə çevirən söz ustadı kimi şöhrət qazanıb. Oldricin “Amerika məktəblilərinin xatirələri”, Kiplinqin “Mauqli”, Mayakovskinin “Seçilmiş şeirləri və poemaları”, Biankinin “Biz çoxuq”, Dümanın “Üç müşketor”, Qorkinin “Uşaqlıq”, Tolstoyun “Dirilmə”, Rodarinin “Çippolino” və s. əsərləri Azərbaycan dilinə tərcümə edib. Nizami Gəncəvinin “İsgəndərnamə. İqbalnamə” əsərinin tərcümə nəşri də Mikayıl Rzaquluzadəyə məxsusdur. Ümumiyyətlə, onun tərcüməsində 60 kitab işıq üzü görüb.

Mikayıl Rzaquluzadə 20 idən çox böyük alman şairi Henrix Heynenin şeirlərinin tərcüməsi ilə məşğul olub. Ədib şairin yaradıcılığının xüsusiyyətlərini saxlamaq, şeirin formasını olduğu kimi qorumaq prinsipini əsas götürüb. O, yazırdı: “Tərcüməçilikdə əsas yol müəllifin mühitinə getmək, onun tənəffüs etdiyi hava ilə nəfəs almaq, düşündüyü kimi duymağa çalışmaq və zövqünü əks etdirmək yoludur...”

Bəli, o, ədəbiyyat tariximizdə həm şair, həm nasir, həm də tərcüməçi kimi tanınıb. Əli qələm tutan gündən ömrünün sonunadək yorulmaq bilmədən çalışıb, uşaqların ürəyində xeyirə rəğbət və məhəbbət, şərə nifrət oyatmağa nail olmaq istəyib. “Ən dadlı meyvə”, “Ağ göyərçin”, “Düymə”, “Qiş gəlir”, “Yeni il nəğməsi”, “Döyüşən sərçələr”, “Ağ dana”, “Balaca balıqçıların nəğməsi” və s. şeirləri bu gün də uşaq bağçalarında, məktəblərin aşağı siniflərində ədəbi-bədii tədbirlərdə həvəslə səslənməkdədir.

Uşaq poeziyasının ağsaqqalı haqqında qələm dostlarının və ardıcıllarının ürək sözləri maraqlıdır.

“Mikayıl Rzaquluzadə məhsuldar yazıçıdır. Çünki onun ilham mənbəyi tükənməzdir. Kiçik nəslin böyük işləri, qaynar həyatı ona hər dəfə yeni ilham, yeni qüvvət və yeni həvəs verir” (Qılman Musayev).

“Mikayıl Rzaquluzadə tərcüməçiliyi həm ideya-məzmun, həm də bədiilik baxımından məsuliyyətli və şərəfli yaradıcılıq işi hesab edib” (Savalan Fərəcov).

“Mikayıl Rzaquluzadənin xeyli ədəbi-tənqidi məqalələri vardır. Özü də maraqlıdır ki, bu məqalələrin də əksəriyyətində uşaq ədəbiyyatı, onun yaradıcılıq problemləri ön plana gətirilmişdir” (Rafiq Yusifoğlu).

*Haqq, həqiqət, Vətən eşqi, el məhəbbəti*
*Nəsillərdən nəsillərə bir şüar olsun!..*
*Bu eşq ilə alovlanan ellər sənəti*
*Nəsillərdən nəsillərə yadigar olsun!..*

Şair bu kimi duyğu və düşüncələrini daha geniş şəkildə poemalarında qələmə alıb. Onun ideya-bədii dəyərini itirməyən bir çox poemaları var ki, bunlardan “Qaranquş yuvası”, “Zər yazılı mərmər kitab”, “Məktəbə gedir Tokay”, “Bakının axşamları”, “Yaz yuxusu”, “Sirli saz” və s. misal göstərmək olar.

İmzası imzalar içində parlayan, yazdıqları təravətini, aktuallığını itirməyən Mikayıl Rzaquluzadənin adı ədəbiyyatımızı zənginləşdirənlərin sırasında bu gün də inamla çəkilir.

*Ə.ƏLİYEV*
*XQ*

Vida sözü

# Kinomuzun Cəlalı, Muradı...

**Dünən kinomuzun daha bir əfsanəsini itirdik. Ölüm haqq olsa da, Azərbaycanın Xalq artisti Ənvər Həsənovun vəfatına hamılıqla heyfsilənirik. “Uşaqlığın son gecəsi”nin Muradı, “Yeddi oğul istərəm”in Cəlalı, “Dərviş Parisi partladır”ın Şahbaz bəyi, “Babək”in Tərxanı, neçə filmin rejissoru, ümumiyyətlə, xalqın sevimli sənətkarı idi Ənvər Həsənov.**

Keçən il onunla görüşüb sənət barədə söhbət etmək istəyirdik. Dostu Dilafət müəllim zəng edib xahişimizi çatdırdı. O isə: “Bir az nasazam, sağalım, görüşərik” – deyə cavab verdi. Təəssüf ki, bu, mümkün olmadı. Kinomuzun əfsanələrindən biri bizləri tərk edib getdi...

Tələbəlik yoldaşım, yazıçı Nurəddin Ədiloğlu düz 55 il əvvəl Ənvər Həsənovu ilk dəfə gördüyünü böyük sevgi ilə danışırdı: “Yay tətilində Masallıdan Bakıya, qohumum – əmək qəhrəmanı Məhəmməd Hüseynovgilə qonaq gəlmişdim. Əmioğlularım və qonşu uşalarla futbol oynayırdıq. Top meydançadan kənara çıxanda küçə ilə gedən Murad (“Uşaqlığın son gecəsi”) cəld hərəkətlə, özü də peşəkar futbolçulara məxsus fəndlə topu saxlayıb, sağ ayağından sol ayağına, soldan da sağa çiləyərək bizə tərəf atdı. Uşaqlardan kimsə ona ucadan “Çox sağ olun” – dedi. O da bizə baxıb xəfifcə gülümsündü. Yaraşıqlı idman gödəkçəsində, enlibalaq cins şalvarda gördüyüm aktyor indi də gözümün qabağındadır. Şaçları çiyinlərinə tökülmüşdü, uzun bakenbardları üzünün yarsına qədər uzanmışdı. Tələbə olduğunu, M.A.Əliyev adına ADİİ-nun kino və dram aktyorluğu fakültəsində təhsil aldığını da bilmirdim. Sadəcə heyrətlə uşaqlıq dünyamın ən sevimli film qəhrəmanına baxırdım. O çöhrəsindəki təbəssümlə bizdən uzaqlaşıb getdi. Çox sonralar öyrəndim ki, 1969-cu ildə ekranlara çıxan “Uşaqlığın son gecəsi” filmi beynəlxalq festivalda 5 diplom alıb. Ənvər də “Ən yaxşı kişi rolu” mükafatı ilə təltif olunub”.



Mərhumun dediyinə görə, həmin filmdəki Muradla həyatdakı Ənvər arasında elə də fərq yox idi. Çünki o da həyatda çılğın, şıltaq olub. Hərdən “Uşaqlığın son gecəsi”nə çəkildiyi günləri bir kino lenti kimi gözünün önündən keçirirmiş. O əlçatmaz, ünyetməz illərə qayıdıb, cavanlığını yaşamaq istədiyini dilə gətirirdi. Deyirdi ki, kim cavanlığına qayıtmaq istəməz ki? Amma artıq yaş özünü göstərir... Əvəzində o, nəvəsinin adını Murad qoymuşdu.

Bəli, düz deyiblər ki, ömrün son dayanacağına kimin nə vaxt və necə çatacağı Uca Yaradandan savayı, heç kəsə bəlli deyil. Artıq Muradın – Ənvərin ruhu bir zaman “Dərviş Parisi partladır”, “Atları yəhərləyin” və “Sonuncu döyüş” filmlərində birgə çəkildiyi, 17 il əvvəl isə avtomobil qəzasında həyatını itirmiş ömür-gün dostu, kinoaktrisa Mömünat Qurbanovaya qovuşdu...

*Ə.DOSTƏLİ*
*XQ*

Gəlimli-gedimli dünya

# Təsviri sənətimizin dilmancı

**...Prezident sərəncamı ilə 200 illik yubileyini qeyd etdiyimiz görkəmli rəssam, Azərbaycan dəzgah boyakarlığının banisi Mirzə Qədim İrəvani haqqında sənətşünaslıq üzrə fəklsəfə doktoru Ziyadxan Əliyevə məqalə sifariş etmək istədik. Buna görə də ötən həftə özünə zəng etdik. Telefonun o başından qızı Aysel Ziyadxanlının səsi gəldi: “Atam xəstələnib, bu üzdən də, təəssüf ki, sizinlə danışa bilməyəcək” – deyib ağladı. Çox kədərləndik və şəfalar dilədik. Dünən səhər isə Ziyadxan müəllimin artıq haqqın dərgahına qovuşduğunu eşitdik. Yadımıza bu misralar düşdü:**



*Ağla qara arasında*
*Rənglər ağlatdı bizi,*
*Rənglər aldatdı bizi…*

Azərbaycan təsviri sənətinin müxtəlif sahələrini, onun inkişaf tendensiyalarını, ayrı-ayrı sənətkarların yaradıcılığının ardıcıl araşdırıcısı Ziyadxan Əliyevi də belə itirdik. O, 1948-ci il iyulun 1-də Şəmkirdə anadan olub. Rəssamlıq Məktəbini fərqlənmə diplomu ilə bitirib. Sonra V.Surikov adına Sankt-Peterburq Rəngkarlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunun sənətşünaslıq fakültəsində təhsil alıb. 1980-ci ildə Azərbaycan Dövlət İncəsənət Muzeyində fəaliyyətə başlayıb. Əvvəlcə elmi işçi, sonra isə “Qərbi Avropa və rus incəsənəti” elmi şöbəsinin müdiri vəzifəsində çalışıb. Dünya rəssamlığının tədqiqi və təbliği sahəsində səmərəli fəaliyyət göstərib.

Jurnalistlərin dostu olan Ziyadxan Əliyev Azərbaycan təsviri sənətinin müxtəlif sahələrinə aid çoxsaylı elmi və publisistik məqalələrin müəllifidir. Tələbəlik illərində “Qobustan” jurnalında “Şamaxının qədim abidələri” adlı ilk məqaləsi çap edilib. Radio və televiziyada çıxışları daim maraqla dinlənilirdi. Onun 100-dən çox elmi məqaləsi həm Azərbaycanda, həm də xarici dövlətlərin nüfuzlu jurnallarında dərc olunub. “Mir Mövsüm Nəvvabın rənglər aləmi” kitabında rəssamın bütün irsi ətraflı təhlil edilib. Səttar Bəhlulzadəyə həsr olunmuş “Naməlum Səttar” və “Sənətin Məcnunu” kitabları böyük diqqətlə qarşılanıb. “Boyalı gülüşlər” də eləcə. Ümumiyyətlə, 20-dən artıq kitabı işıq üzü görüb. Elmi-pedaqoji fəaliyyəti də geniş olub. Gənc sənətşünasların yetişməsində müstəsna xidmətlər göstərib. Müxtəlif elmi-nəzəri konfransların iştirakçısı və məruzəçisi olub, ölkəmizin hüdudlarından uzaqlarda təşkil olunan sərgilərin təşkilində yaxından iştirak edib.

Azərbaycan təsviri sənətinin inkişafındakı xidmətlərinə görə 2006-cı ildə Əməkdar incəsənət xadimi fəxri adı ilə təltif olunub.

**Allah rəhmət eləsin.**

*Əli NƏCƏFXANLI*
*XQ*

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

*boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

**“İQTİSADİYYAT VƏ İDARƏETMƏ” FAKÜLTƏSİ**

*“İqtisadiyyat” kafedrası üzrə*

Dosent – 8 ştat
Dosent – 0,25 ştat (əvəzçiliklə)
Baş müəllim – 2 ştat
Baş müəllim – 0,5 ştat
Müəllim – 2 ştat
Müəllim – 1 ştat (2 yer olmaqla 0,5 ştat)

*“İctimai idarəetmə və sosial innovasiyalar” kafedrası üzrə*

Dosent – 0,75 ştat
Dosent – 10 ştat
Baş müəllim - 3 ştat
Baş müəllim - 0,5 ştat

*“Riyaziyyat və statistika” kafedrası üzrə*

Professor – 1 ştat
Dosent – 7 ştat
Baş müəllim – 2 ştat
Müəllim – 1 ştat

**“MALİYYƏ VƏ MÜHASİBAT” FAKÜLTƏSİ**

*“Maliyyə və audit” kafedrası üzrə*

Dosent – 7 ştat
Dosent – 0,5 ştat
Dosent – 0,5 ştat (əvəzçiliklə)
Müəllim – 3 ştat

**“BİZNES VƏ MENECMENT” FAKÜLTƏSİ**

*“Biznes və logistika” kafedrası üzrə*

Dosent – 7 ştat
Dosent – 0,5 ştat
Baş müəllim – 2 ştat
Baş müəllim – 0,25 ştat
Baş müəllim – 0,5 ştat

**“MÜHƏNDİSLİK” FAKÜLTƏSİ**

*“Mühəndislik və tətbiqi elmlər” kafedrası üzrə*

Dosent – 16 ştat
Baş müəllim – 9 ştat
Müəllim – 1 ştat

**“RƏQƏMSAL İQTİSADİYYAT” FAKÜLTƏSİ**

*“Rəqəmsal texnologiyalar və tətbiqi informatika”*

Professor –2 ştat
Dosent – 2 ştat
Baş müəllim –4 ştat

**“TÜRK DÜNYASI İQTİSAD” FAKÜLTƏSİ**

*“İqtisadiyyat və işlətmə” kafedrası üzrə*

Baş müəllim – 3 ştat

**RUS İQTİSAD MƏKTƏBİ**

*“Tətbiqi iqtisadiyyat” kafedrası üzrə*

Dosent – 11 ştat
Baş müəllim – 2 ştat

**UNEC BİZNES MƏKTƏBİ**

*“Biznesin idarə edilməsi” kafedrası üzrə*

Dosent – 1 ştat

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

*“İqtisadi və texnoloji elmlər” kafedrası üzrə*

Dosent – 4 ştat

**ÜMUMİ FƏNLƏRİN TƏDRİSİNİN TƏŞKİLİ DEPARTAMENTİ**

*“Azərbaycan dili” kafedrası üzrə*

Dosent – 1 ştat

*“Humanitar fənlər” kafedrası üzrə*

Dosent – 1 ştat
Baş müəllim – 1 ştat

**XARİCİ DİLLƏR DEPARTAMENTİ**

*“Xarici dillərin tədrisi mərkəzi” üzrə*
Baş müəllim – 3 ştat
Baş müəllim – 0,5 ştat
Müəllim – 1 ştat

**UNEC-də kafedra müdiri vəzifəsinin tutulması**

*“İctimai idarəetmə və sosial innovasiyalar” kafedrası üzrə*

Kafedra müdiri – 1 ştat

*“İqtisadiyyat və işlətmə” kafedrası üzrə*

Kafedra müdiri – 1 ştat

*“Mühəndislik və tətbiqi elmlər” kafedrası üzrə*

Kafedra müdiri – 1 ştat

*“Tətbiqi iqtisadiyyat” kafedrası üzrə*

Kafedra müdiri – 1 ştat

**UNEC İQTİSADİ ARAŞDIRMALAR ELMİ-TƏDQİQAT İNSTİTUTU**

*“Bilik iqtisadiyyatı” şöbəsi üzrə*

Elmi işçi – 1 ştat

*“Makroiqtisadi tədqiqatlar” şöbəsi üzrə*

Böyük elmi işçi – 1 ştat

*“Qeyri-neft sektorunun inkişafı ” şöbəsi üzrə*

Böyük elmi işçi – 1 ştat
Elmi işçi – 1 ştat

Qeyd olunan vəzifələri tutmaq üçün müsabiqədə yalnız mövcud əsasnamənin tələblərinə uyğun namizədlər iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

1. Ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Ali təhsil (baza təhsili), elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
5. Elmi və elmi-metodiki işlərin siyahısı.

Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan dərc edildiyi gündən başlayaraq 30 gündür.

Müsabiqədə iştirak etmək üçün sənədlər ərizə ilə birlikdə ümumi şöbəyə və ya unec@unec.edu.az ünvana təqdim olunmalıdır.

**Telefon: 492-73-72.**
**Ünvan: AZ1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, otaq 224, II mərtəbə, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC).**


Beynəlxalq aləm

# Ərdoğan və Trampın birgə sülh axtarışı



**(əvvəli 1-ci səhifədə)**

Türkiyə NATO-da ABŞ-dan sonra ikinci ən böyük silahlı qüvvələrə malik ölkədir. Ağ ev üçün Ankaranı yanında görmək son dərəcə vacibdir. Nəzərdən qaçırmaq olmaz ki, ABŞ ilə Avropa İttifaqı (Aİ) arasında xeyli soyuqluq yaranıb. Aİ sülh danışıqları prosesinə dəvət olunmayıb və bu amil “Köhnə qitə”də Vaşinqtona qarşı etimadı azaldıb.

Avropanın şərqində vəziyyət gərgin olaraq qalır. Rusiyanın Ukraynaya hücumundan artıq 3 ildən bir qədər artıq vaxt keçir. Bu, dünyada miqyasına görə İkinci Dünya müharibəsindən sonra ən böyük savaşdır. Həm də ağır, tükəndirici müharibədir. Cəbhənin təmas xətti 2 min kilometrdən çoxdur. İki xalq arasında düşmənçilik son həddə çatıb.

Səudiyyə Ərəbistanında müxtəlif formatda aparılan danışıqlar, hələlik, arzu olunan nəticələri vermir. Cəbhənin təmas xətti boyunca ağır döyüşləri, hələlik, saxlamaq mümkün olmur. Bir çox siyasi təhlilçilər düşünür ki, qlobal güclər çağdaş dünyada münaqişələrin məqbul nizamlanma mexanizmini tapa bilmirlər. Belə ki, köhnə qanunlar işləmir, yeni qaydalar isə yoxdur.

Görünən budur ki, Ukrayna böhranı dünyadakı siyasi və hərbi proseslərin məhək daşına çevrilib. Planetimiz hazırda yol ayrıcındadır. Dünya ya sivil, bəşəri qaydalarla, ya da gücə, zora tapınaraq idarə olunacaq. Amma Ukraynada ağır döyüşlərin nə vaxt bitəcəyini gözləmək insanlığa ziddir.

Vəziyyətdən çıxış yolunu isə mütləq tapmaq lazımdır. Yeni dünya düzəni ilə bağlı bir çox təklif bu yöndədir. Türkiyə dövlətinin diplomatik səyləri bu baxımdan diqqəti daha cəlbedici edir. Ankaranın yanaşması kifayət qədər praqmatik və humanistdir. Belə ki, Türkiyə dövləti döyüşləri dərhal dayandırmağı və danışıqları ölkələrin ərazi bütövlüyünü qorumaq şərti ilə aparmağı təklif edir.

Ankara bu istiqamətdə uğurlu nəticələrə ümid edir. Bunu Liviyanın, Qətərin, Suriyanın timsalında görmək olar. Türkiyə Rusiya–Ukrayna savaşının bitməsi üçün də öz töhfəsini vermək stəyir. Bu ölkə regionda sülhün və sabitiyin bərqərar olunmasında maraqlıdır. Ən azı ona görə ki, bu hadisələr onun sərhədləri yaxınlığında baş verir.

Xatırladaq ki, Prezident Rəcəb Tayyib Ərdoğan Ukrayna böhranı başlanan gündən məsələnin diplomatik yolla həlli üçün ciddi səylər ortaya qoymuşdu. 2022-ci ilin yayında tərəflər İstanbulda sülh sazişinə çox yaxın idilər. Əgər bu prosesə bir çox Qərb dövlətləri mane olmasaydılar, münaqişə tezliklə başa çata bilərdi.

Ankara Rusiya–Ukrayna müharibəsinin diplomatik yolla həlli üçün yenidən ciddi səylər ortaya qoyur. Türkiyənin xarici işlər naziri Hakan Fidan “TV1000” telekanalına müsahibəsində deyib ki, Türkiyə Ukrayna böhranının həlli naminə optimal təkliflər hazırlayaraq tərəflərə göndərib. Ankara bütün formatlarda sülh prosesinə töhfə verməyə hazırdır.

Türkiyə haqq və ədaləti təkcə özü üçün istəmir, bunu bütün dünya üçün arzulayır. Region dövlətləri silahların susması və insan ölümlərinə son qoyulması üçün ciddi güzəştlərə getməyə hazır olmalıdırlar. Türkiyə Prezidenti məhz bunu arzulayır və çağırışlar edir. Ankaranın sülhyaratma təklifləri dünya xalqları tərəfindən də müsbət qarşılanır.

Ankara belə bir arqumentdən çıxış edir ki, Rusiya – Ukrayna müharibəsi dünyada qütbləşməyə səbəb oldu. Müharibənin bitməməsi ölkələri qarşı-qarşıya qoyub. Yəni müharibənin əhatə dairəsi bu qədər genişdir. Bəşəriyyətin taleyi ilə oynamaq olmaz. Bugünkü və gələcək nəsilləri gözləyən təhlükələri düşünmək və ağıllı qərarlar qəbul etmək lazımdır.

Türkiyə və ABŞ prezidentləri arasındakı telefon bağlantısında qaldırılan problemlər tezliklə müsbət həllini taparsa, regionda sülh və sabitliyi təmin etmək üçün əlverişli vəziyyət yarana bilər. Unutmaq olmaz ki, bütün savaşlar sülhlə bitir. Sülhə aparan yol nə qədər qısa olsa, bəşəriyyət bir o qədər çox qazanar.

***M.HACIXANLI***
***XQ***

# Türkiyədə təhsilə yeni fürsət

**İslam İnkişaf Bankı türkdilli dövlətlərdən və üzv ölkələrdən tələbələr üçün yeni təqaüd layihəsi təqdim edib. Kompleks proqram Türkiyənin nüfuzlu universitetlərində təhsil almaq istəyənlər üçün yeni fürsətdir.**



Azərbaycanlı tələbələrin də iştirakına imkan verən təqaüd proqramı haqqında XQ-yə məlumat verən Bilkent Universitetinin professoru, Türkiyədə fəaliyyət göstərən Azərbaycanlı Elm Adamları Dərnəyinin rəhbəri Əmirulla Məmmədov bildirib:

– Bu təqaüd bakalavr, magistratura və doktorantura pillələrində təhsil almaq istəyən tələbələrə veriləcək. Müraciət üçün 2025-ci ilin mart ayının 10-dan 20-dək Türkiyə Türk Dünyası Maarif Vəqfinin (YTB) rəsmi veb-saytında qeydiyyatdan keçmək lazımdır.

Proqramın əsas məqsədi İslam İnkişaf Bankına üzv ölkələrdən, o cümlədən Türk dövlətlərindən Türkiyədə təhsil almaq istəyənlərin bilik və bacarıqlarını artırmağa dəstək verməkdir. Bu proqram həmin tələbələrin təhsil xərclərini qarşılamaqla yanaşı, onların Türkiyədə həyat şəraitini asanlaşdırmaq üçün müxtəlif imkanlar da təqdim edir.

Professor qeyd edib ki, təqaüd proqramı Türkiyədə təhsil almaq istəyənlər üçün üstün imkanlar yaradır. Azərbaycan da daxil olmaqla, İran, Misir, İraq, Somali, Qazaxıstan, Qırğızıstan, Əfqanıstan, Tunis, Mali, Pakistan və s. 56 ölkənin tələbələri taqaüd proqramından yararlana bilərlər. Ətraflı məlumatları Türkiyə Türk Dünyası Maarif Vəqfinin rəsmi veb-saytından almaq mümkündür.

***Namiq QƏDİMOĞLU***
***XQ***


## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun Dəniz Nəqliyyat Donanmasının inzibati binasının pilləkən pillələrinə və pəncərə mailliklərinə mərmərin quraşdırılması xidmətlərinin (material və işçi qüvvəsi daxil olmaqla) satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il aprelin 4-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1263.**
**Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.**



## “Moskviçtexxidmət” ASC səhmdarlarının nəzərinə!

3 may 2025-ci il saat 10.00-da Bakı şəhəri, Sumqayıt şossesi, 4 nömrəli ünvanda “Moskviçtexxidmət”ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

***Yığıncağın gündəliyi :***

**1.** Cəmiyyətin 2024-cü ilə aid maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
**2.** Dividendlərin verilməsi .
**3.** Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinə aid məsələlərlə bağlı cəmiyyətə müraciət etmək olar.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 59 (30753) 18 mart 2025-ci il, çərşənbə axşamı

İdman

## Cüdoçu qızlarımız 3 medal qazanıblar



**Xorvatiyanın Poreç şəhərində cüdo üzrə yeniyetmələr arasında Avropa Kuboku yarışında Azərbaycan komandası 1-i qızıl medal olmaqla, 3 mükafat qazanıb.**

Komandamızın üzvlərindən Aysun Məmmədova (50 kq) uğurla çıxış edərək, fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Mədinə Hüseynova (40) və Xədicə Abdullayeva (44 kq) isə bürünc medala yiyələniblər.

Azərbaycan yarışda 5 çəki dərəcəsində 14 qız idmançı ilə təmsil olunub. Avropa Kubokunda 37 ölkədən 813 idmançı iştirak edib.

## Belçikadan 11 taekvondo mükafatı gətirilib



**Azərbaycanın yeniyetmə taekvondoçuları Belçikanın Lommel şəhərində keçirilən açıq beynəlxalq turnirdə 11 medal qazanıblar.**

Mükafatlardan 6-sı qızıl, 1-i gümüş, 4-ü isə bürünc medal olub. Mədinə Aslanlı (29 kq), Eda Eren (55 kq), Tapdıq Quluzadə (33 kq), Ədiş Cəlilov (49 kq), Elmir Səlimov (53 kq) və Rəsul Cavadzadə (61 kq) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar. Yusif Nağızadə (57 kq) 2-ci yeri tutub. Fidan Muxtarzadə (29 kq), Aysu Aslanlı (41 kq), Əbil Mehrəli (45 kq) və Fuad Həsənov (+65 ) isə bürünc medal qazanıblar.

## Beynəlxalq boks turnirində 3 mükafatçımız oldu



**Azərbaycan boksçuları Macarıstanın Debretsen şəhərində keçirilən beynəlxalq turniri 3 medalla başa vurublar.**

Millimizin üzvləri Məhəmmədəli Qasımzadə (60 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, finalda Kruzito Kovaçı (Macarıstan) 4:1 hesabı ilə məğlub edib. Tural Sarıyevlə (50 kq) Əli Abdullayev (65 kq) isə gümüş medala sahib olublar.

*LA ZAD*
*XQ*

✓ *ƏMDX-nin DƏDRK və reyestri PHŞ tərəfindən Sabirabad rayonunun Nərimankənd sakini Babayev Rəsul Mürsəl oğlunun adına verilmiş torpaq sahəsinin 909013042773 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.*

Turan elləri

# Özbəklərin fətiri – qardaş süfrəsinin ətiri

## *Ən çox iftar məclislərində istifadə olunur*

**Özbəkistanda Ramazan günlərində bizim fətir, özbəklərin "patır" adlandırdıqları xüsusi növ çörəyi daha çox bişirirlər. "Patır"ın xəmirini yağ və süd əlavə edərək yoğururlar və o dadına və ətrinə görə adi çörəklərdən xeyli seçilir. Ramazan günlərində bu çörəkdən dadmayan, demək olar ki, olmur.**



"Patır" özbəklərin gündəlik həyatında mühüm rol oynayır. Bu çörəyin 50-yə yaxın növü var ki, onlar həm tərkibinə, həm bişirilmə qaydalarına, həm də ayrı-ayrı regionlara aid olduqlarına görə xeyli fərqlənirlər.

İnsanlar bayramlarda, toylarda və Ramazanda kərə və quyruq yağı ilə hazırlanan "patır"a daha çox üstünlük verirlər. Bu çörəyin müxtəlif növləri və hər birinin də, təbii ki, öz adı var: "navvay", "kazan", "qatlama", "şırmay", "abi", "laçira", "külçə" və s.

Tərkibində olan inqrediyentlərdən asılı olaraq soğanlı, ətli, qozlu, küncütlü patırlar olur. "Patır"ın ölkənin əsas regionlaru üzrə – Səmərqənd, Buxara, Kokand və Xarəzm məxsusi versiyaları da var.

Özbəkistanın bir çox şəhərlərində xüsusi çörək bazarları var. Orada ənənəvi olaraq odun, yaxud kömür peçlərində hazırlanan ən müxtəlif çörəkləri tapmaq olar. Daşkənd çörək bazarındakı Əziz Əkbərov adlı bir nəfər çörəkçi "Anadolu" müxbirinə deyib ki, o, bu peşə ilə uzun illərdir ki, məşğul olur və taleyindən çox razıdır. Əziz şirin özbək ləhcəsində deyib:

– Mənim qarşımda 50 növ çörək var. Hər bir çörəyin də öz alıcıları var. Müştərilər öz zövq və imkanlarına görə "patır" alırlar. Qiymətlər də münasibdir.

Əziz Əkbərovun sözlərinə görə, müqəddəs Ramazan günlərində "patır"a tələb xüsusilə çox artır. Bu dadlı çörəklər adamları həm də tez doyuzdurur.

Özbəklərin çoxu yaxın-uzaq xarici ölkələrə səfər edərkən, özləri ilə "patır" aparmağı unutmurlar. Axı bu ənənəvi özbək çörəyi bir neçə gün ərzində öz təravətini qoruyub saxlaya bilir.

Əziz Əkbərov həmçinin deyib ki, o, şəxsən Ramazanda, təxminən, gündə 1000 çörək satır. Bəzi müştərilər "patır"ı əvvəlcədən sifariş edirlər və pulunu da ödəyirlər.

Çörək bərəkətdir və halallığı sevir. Belə deyib atalar və şübhəsiz, haqlıdırlar!

Qeyd edək ki, Özbəkistanda çörəyi "nan" adlandırırlar. Evlərdə onu bir qayda olaraq qadınlar bişirirlər, iri böyük təndirlər quraşdırılan çörəkbişirmə sexlərində isə, adətən, kişilərin əməyindən bəhrələnirlər.

Yeri gəlmişkən, dili dilimizdən olan dost, qardaş Özbəkistanda çörəkbişirənləri "navvai" adlandırırlar. Təcrübəli "navvai"lər hələ sübhdən əvvəl işə başlayırlar və günəş üfüqdə görünənə qədər ilk çörəkləri hazır edirlər. Təzə çörəyin ətri isə ətrafa yayılaraq insanlara bolluq, rifah vəd edir.

Maraqlıdır ki, Özbəkistanda adlı-sanlı çörəkbişirmə ustaları var və onlar "öz patırlar"ının üzərinə fərqli naxışlar çəkirlər ki, alıcılar malı mala qatmasınlar. Təbii ki, daimi alıcılar tanış "navvai"lərin "imzalarını" dərhal tanıyırlar.

Bu məqamda qeyd etmək lazımdır ki. özbəklər üçün çörək təkcə zəruri ərzaq məhsulu deyil, həm də bu xalqın milli adət və ənənələrinin ayrılmaz bir hissəsidir.

Özbəklər ta qədim zamanlardan çörəyə böyük ehtiram bəsləyirlər. Onların hörmətli qonaqları qarşılama mərasimləri, təntənəli ailəvi məclisləri heç cür "patır"sız ötüşə bilməz.

Özbəkistanın regionları arasında "Səmərqənd patırı" xüsusilə məşhurdur. Deyilənlərə görə, bu çörəyin tərkibi daha bərk olduğu üçün onu hətta 1 aya qədər saxlamaq mümkündür.

Məşhur bir əfsanəyə görə, Əmir Teymurun nəvəsi Babur şah bir gün Moğol imperiyasına yola düşməli olur. Doğma Səmərqəndi tərk edərkən ən yaxşı çörək bişirənlərdən bir neçə nəfəri də özü ilə aparır. Amma məlum olur ki, bu adlı-sanlı ustaların bişirdiyi çörəklər belə yad diyarda "Səmərqənd patırı"nın dadını vermir.

Babur şah bunun səbəbini soruşanda ona deyirlər ki, dadlı patır üçün Səmərqəndin havası və suyu lazımdır. Bu hekayətin olub-olmadığını bu gün demək çətindir. Amma özbəklər bu rəvayətə çox inanırlar.

Bu yerdə unutmaq olmaz ki, Azərbaycan xalqı da hər zaman çörəyə, bərəkətə böyük diqqət və saygı ilə yanaşıb. Hətta Ağdamda vaxtilə dünyada yeganə "çörək muzeyi" də açılmışdı.

Amma erməni vandalları işğal illərində Qarabağın bu gözəl şəhərini yerlə-yeksan etdikləri kimi, "çörək muzeyi"ni də büsbütün dağıtmışlar. Azərbaycan hökuməti isə həmin muzeyi yenidən bərpa etmək üçün vəsait ayırıb.

Sonda bildirək ki, qoy hər bir eldən, obadan hər zaman çörək ətri ətrafa yayılsın, barıt iyi yox! Allah heç bir xalqı çörəklə sınağa çəkməsin!

*Məsaim ABDULLAYEV*
*XQ*

# Danışan akvarellər dünyası

**Xətai Sənət Mərkəzində müasir Azərbaycan akvarelçilərinin əsərlərinin yer aldığı "Akvarel rəssamlığın ruhudur" adlı kitab-kataloqun təqdimatı olub. Toplunu ərsəyə gətirməkdə məqsəd müasir Azərbaycan akvarelçilərini tanıtmaq və onların əsərlərini gələcəkdə beynəlxalq nüfuzlu qalereyaların sərgi salonlarına təqdim etməkdir.**

Burada, Beynəlxalq Akvarel Cəmiyyətinin sədri Atanur Doğan, 1999-2018-ci illərdə "Azərmarka" şirkətinin baş rəssamı vəzifəsində çalışmış və həmin illərdə buraxılan Azərbaycan Respublikasının poçt markalarının müəllifi Xasay Mirzəyev, Beynəlxalq Akvarel Cəmiyyətinin Sumqayıt nümayəndəliyinin rəhbəri İntiqam Cəfərov, 2019-cu ildə "Mənim Bakım" akvarel müsabiqəsində birinci yerin qalibi olmuş Pərviz Əliyev, Beynəlxalq Akvarel Cəmiyyətinin ölkəmizdəki nümayəndəliyinin rəhbəri Səbinə İskəndərova və digər akvarelçi rəssamların müxtəlif illərdə çəkdikləri rəsm nümunələri yer alır. 75 akvarelçi rəssamın əsərlərinin toplandığı bu kataloqda insan portretləri, mənzərələr, dağlar, göllər, günün müxtəlif çağı, natürmortlar, meyvələr əlvan rənglərlə təsvir olunaraq, sanki dil açıb danışır.



Akvarel sənəti bu gün də müasir rəssamlar tərəfindən fərqli mövzu və texnikalarla zənginləşdirilir. Qədim tarixi və zəngin bədii ənənələri olan müasir təsviri sənətimizdə bu texnika ilə yaradılmış əsərlərin özünəməxsus yeri var. Akvarel ilə çəkilən əsərlər su ilə yarandığından, həm də saflığı, təmizliyi təcəssüm etdirir. Bunun nəticəsində ərsəyə gələn sənət əsərlərində rəssamın ruhunu dərindən hiss etmək mümkündür.

Akvarelin ən maraqlı xüsusiyyəti isə onun şəffaf, hava kimi zərif olmasıdır. Bu ecazkar texnika ilə gözəl təbiət mənzərəsi, açıq səma, aydın səhər, çöllər, meşələr və canlı təbiətin ən incə rənglərini yaratmaq mümkündür. Məşhur Azərbaycan rəssamları Bəhruz Kəngərli, Mikayıl Abdullayev, Tahir Salahov və başqaları akvarel sənətinin ən gözəl nümunələrini yaradıblar. Azərbaycan karikatura sənətinin banisi, SSR Xalq




rəssamı Əzim Əzimzadənin 1919-1922-ci illərdə Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Hüseynqulu Sarabskinin əsərlərinə akvarel üslubunda çəkdiyi rəsmlərdə milli kolorit çox güclüdür. Bu illüstrasiyalardan gənc rəssamlar da bəhrələnərək ecazkar və gözəl sənət əsərləri yaradırlar.

Qeyd edək ki, akvarelçi rəssamların əsərlərinin cəmləndiyi bu kitab-kataloqun ideya müəllifi və layihə rəhbəri Beynəlxalq Sulu Boya Cəmiyyətinin Sumqayıt nümayəndəliyinin sədri İntiqam Cəfərovdur. Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyev və Beynəlxalq Sulu Boya Cəmiyyətinin təsisçisi və prezidenti Atanur Doğan isə bu layihənin məsləhətçiləridir. Təşkilati dəstək "IWS Globe Networka" məxsusdur.

*Fidan SALMANOVA*
*XQ*

HAVA

## Abşeronda günəşli, bölgələrdə yağış və duman...

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, martın 18-də Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Cənub-qərb küləyi əsəcək, axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 8-13°, gündüz 25-30° isti olacaq. Atmosfer təzyiqi 754 mm civə sütunundan 750 mm civə sütununa enəcək, nisbi rütubət gecə 60-70, gündüz 45-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə dolu düşəcəyi, dağlıq ərazilərdə sulu qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 26-31°, dağlarda gecə 4-9°, gündüz 20-25° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kollektivi

**İSMAYIL QURBAN OĞLU ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova və professor-müəllim heyəti

**NƏZAKƏT QAZIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Asəf Həsənov, Sadiq Gözəlov və Yadigar Məmmədli tələbəlik dostları, Əməkdar jurnalist Cavid Xaspoladova anası

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3373
SİFARİŞ 611
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00